**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**KÖNÜL FAİQ qızı MAHMUDOVA**
**SEVİL ŞİVƏXAN qızı BƏHRƏMOVA**

# HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN ELMİ VƏ TƏHSİLİ
## (DƏRS VƏSAİTİ)

*Bakı Avrasiya Universitetinin Elmi Şurasının 31.10.2025-ci il tarixli iclasının EŞ2-10/25 nömrəli protokoluna əsasən çap edilir.*

**BAKI – 2026**

**Elmi redaktor:** **Faiq Şaban oğlu Şahbazlı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **Səyavuş Kamran oğlu Qasımov**
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

**Leyla Əhliman qızı Hüseynova**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Əlyənnağı Məhəmmədtağı oğlu Məhərrəmov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Dil üzrə redaktor:** **Sevil Eyvaz qızı Cavadova**

**Korrektor:** **Nuranə Şivəxan qızı Ələkbərova**

**Könül Faiq qızı Mahmudova, Sevil Şivəxan qızı Bəhrəmova. HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN ELMİ VƏ TƏHSİLİ** (Ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı,*"OPTİMİST"MMC*-2026. 198 səh.

*Bu dərs vəsaiti ali məktəblərin magistratura pilləsində tədris olunan "Heydər Əliyev və Azərbaycan elmi" adlı fənnin proqramına uyğun hazırlanmışdır. "Heydər Əliyev - Azərbaycan elmi və təhsili" vəsaitində Ümummillilider Heydər Əliyevin ölkədə elmin və təhsilin inkişafına yönəlmiş strateji siyasətinin elmi-nəzəri əsasları sistemli şəkildə təhlil edilir. Belə ki, vəsaitdə Heydər Əliyevin müxtəlif ictimai-siyasi mərhələlərdə həyata keçirdiyi islahatlar, milli təhsil sisteminin modernləşdirilməsi, elmi müəssisələrlə tədris strukturlarının inteqrasiyasının gücləndirilməsi və elmin prioritet istiqamət kimi müəyyənləşdirilməsi geniş faktoloji materiallar əsasında araşdırılır. Həm sovet, həm də müstəqillik dövründə Heydər Əliyevin elmə və təhsilə dair ideoloji yanaşmaları müqayisəli şəkildə təqdim edilir, müstəqil Azərbaycan Respublikasında elmi-tədris mühitinin yenidən qurulması prosesi analitik müstəvidə şərh edilir. Müstəqillik illərində qəbul olunmuş normativ-hüquqi sənədlər, dövlət proqramları və institusional qərarlar əsasında ölkədə elmi potensialın gücləndirilməsi və təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində əldə olunan nailiyyətlər elmi əsaslarla izah olunur.*

*Vəsaitdə Ulu öndər Heydər Əliyevin elmin və təhsilin inkişafına dair konsepsiyası yalnız tarixi faktlar fonunda deyil, həm də müasir dövrdə formalaşan strateji inkişaf modelləri ilə əlaqələndirilərək təqdim edilir. Dərs vəsaitinin üstün tərəflərindən biri hər bir mövzu üzrə təlim nəticələri verilməklə yanaşı, sual və tapşırıqlarla əhatələnməsidir.*

*ISBN 978-9952-561-90-6*

*©"OPTİMİST" MMC-2026*

**MÜNDƏRİCAT**

GİRİŞ. ........................................................................................ 4
1. .“Heydər Əliyev və Azərbaycan elmi” fənninin predmeti, məqsədi, vəzifələri. ........................................................................15
2. .Heydər Əliyevin təhsil və elmə qayğısı. ..............................24
3. .Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə ümumi təhsil sahəsindəki nailiyyətlər. ...........................................42
4. .Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə texniki peşə təhsili sahəsindəki nailiyyətlər. ................................54
5. .Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə ali təhsil sahəsindəki nailiyyətlər.....................................................62
6. .Heydər Əliyevin gənclər siyasəti. .........................................70
7. .Heydər Əliyevin hərbi təhsilə qayğısı.................................78
8. .Heydər Əliyevin tibbi təhsilin inkişafında rolu................86
9. .Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə (1993-2003) Azərbaycan təhsili. .........................................97
10. 1993-2001-ci illərdə AMEA-nın elmin inkişafı sahəsində əldə etdiyi nailiyyətlər. .................................................110
11. Heydər Əliyevin elmin inkişafı sahəsində imzaladığı fərman və sərəncamlar....................................................................124
12. Heydər Əliyevin elm xadimlərinə münasibəti, elm xadimlərinin təltif olunması. ...........................................................141
13. Heydər Əliyev və təhsil islahatı........................................152
14. Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin təmiri, müasir tədris avadanlıqları ilə təmin olunması. .......................................168
15. Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyevin Azərbaycan təhsilinin inkişafınada həyata keçirdiyi siyasət. 177
Ədəbiyyat siyahısı....................................................................193

# GİRİŞ

Elm hər bir xalqın milli tərəqqisinin, intellektual potensialının və uzunmüddətli inkişaf strategiyasının əsas dayaqlarından biridir. O, cəmiyyətin mənəvi dəyərlərinin zənginləşməsində mühüm rol oynamaqla yanaşı, iqtisadi, sosial və mədəni yüksəlişin də əsasını təşkil edir. Azərbaycan xalqı tarix boyu elmin inkişafına mühüm töhfələr vermiş, bir çox tanınmış alim və mütəfəkkirlər yetirmişdir. Bununla belə, Azərbaycan elminin sistemli şəkildə təşkili, müasir tələblər səviyyəsində inkişaf etdirilməsi və qlobal elmi məkana inteqrasiyası əsasən müstəqillik dövrünə, xüsusilə də ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir.

Magistratura pilləsində tədris olunan “Heydər Əliyev və Azərbaycan elmi” adlı fənnin proqramına əsaslanaraq hazırlanmış “Heydər Əliyev-Azərbaycan elmi və təhsili” adlı vəsait Azərbaycanın müasir elmi düşüncəsinin formalaşmasında və inkişafında Heydər Əliyev şəxsiyyətinin rolunu elmi əsaslarla öyrənməyi, təhlil etməyi və tədris etməyi hədəfləyir. Fənn siyasi, tarixi və elmi yanaşmaların vəhdətində Heydər Əliyev dövründə elmin dövlət siyasətində tutduğu yeri və bu sahədə həyata keçirilmiş məqsədyönlü tədbirləri kompleks şəkildə təhlil edir.

Ümummilli lider Heydər Əliyev elmin inkişafını milli maraqlar kontekstində dəyərləndirmiş, bu sahəni dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirməyə nail olmuşdur. Onun rəhbərliyi ilə Azərbaycanda elmi-tədqiqat institutlarının şəbəkəsi genişləndirilmiş, alimlərin sosial rifahı yaxşılaşdırılmış, gənc kadrların elmi fəaliyyətə cəlb olunması istiqamətində davamlı və sistemli tədbirlər görülmüşdür. Heydər Əliyevin elmə və elm adamlarına münasibəti yalnız inzibati qərarlarla de-

yil, eyni zamanda onların cəmiyyətdə nüfuzunun artırılması siyasəti ilə də səciyyələnir.

Fənn çərçivəsində, həmçinin ümummilli liderin tarix, filologiya, təbiət elmləri, texniki və aqrar sahələr kimi müxtəlif elmi istiqamətlərə göstərdiyi diqqət də ayrıca təhlil edilir. Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyəti, elm-təhsil inteqrasiyasının dərinləşdirilməsi, beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi məsələləri də vəsaitin əsas tədqiqat predmetləri sırasındadır.

Vəsaitin elmi və ictimai aktuallığı ondan ibarətdir ki, bu gün Azərbaycanda həyata keçirilən "elm və təhsil inteqrasiyası", "rəqəmsal transformasiya", "intellektual iqtisadiyyat" kimi konseptual yanaşmaların tarixi təməlini düzgün anlamaq üçün məhz bu dövrün dərindən öyrənilməsi zəruridir. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Heydər Əliyev siyasi kursu, o cümlədən elmi fəaliyyətə verilən yüksək dəyər və dəstək, məhz bu zəmin üzərində formalaşmışdır.

Fənnin əsas məqsədi tələbələrə müstəqillik dövründə Azərbaycan elminin inkişaf mərhələlərini ümummilli lider Heydər Əliyevin fəaliyyəti kontekstində tədqiq etmək, analitik düşüncə və elmi-fəlsəfi təhlil bacarıqlarını formalaşdırmaq, eləcə də müasir elmi yanaşmalar əsasında araşdırmalar aparmaq vərdişlərini aşılamaqdır.

Tədris prosesi çərçivəsində tələbələrə müxtəlif elmi mənbələrdən, arxiv materiallarından, dövrün mətbuat nümunələrindən və elmi əsərlərdən istifadə etməklə tədqiqat aparmaq imkanı yaradılır.

Bununla yanaşı, fənn çərçivəsində tələbələr aşağıdakı əsas istiqamətlər üzrə tədqiqat aparmağa təşviq olunurlar:

- Elmi siyasətin formalaşma prinsipləri və əsas prioritetləri nədən ibarətdir?

- Heydər Əliyev elmin inkişafı üçün hansı konkret strateji addımları atmışdır?
- Qəbul edilmiş dövlət proqramlarının və qərarların elmi mühitə təsiri necə olmuşdur?
- Elmin cəmiyyət həyatındakı rolu bu mərhələdə hansı dəyişikliklərə uğramışdır?
- Gənc nəslin elmi fəaliyyətə cəlb olunması sahəsində hansı təşəbbüslər həyata keçirilmişdir?

Fənnin strukturu tələbələrin bu suallara cavab tapmasına, Ümummilli liderin siyasi və mənəvi irsinin elmi kontekstdə dərk edilməsinə yönəlib. Buraya elmi müəssisələrin fəaliyyətinin təhlili, ayrı-ayrı alimlərin fəaliyyətinə münasibət, elmə ayrılan dövlət vəsaitlərinin analizi, elmi nəşrlərin dəstəklənməsi və xarici ölkələrlə elmi əlaqələrin genişləndirilməsi kimi mövzular daxildir.

Heydər Əliyev irsini yalnız siyasi liderlik prizmasından deyil, həm də maarifçi və elmsevər dövlət xadimi kontekstində dəyərləndirmək, onun elmin inkişafında xidmətlərini obyektiv şəkildə analiz etmək bu fənnin ən mühüm ideya xəttini təşkil edir. Çünki müasir elmi düşüncə və elmi idarəetmə sistemi bu tarixi irsin üzərində qurulmuşdur.

Bütün bu yanaşmalar fonunda "Heydər Əliyev və Azərbaycan elmi" fənni yalnız tarixi proseslərin tədrisi ilə kifayətlənmir, eyni zamanda tələbələrə elmi proseslərin siyasi və sosial kontekstini dərketmə, müstəqil araşdırmalar aparma və nəticə çıxarma bacarığı aşılayır. Beləliklə, fənn həm elmi-nəzəri biliklər verir, həm də tədqiqat yönlü düşüncə tərzini formalaşdırır.

XX və XXI əsrlərin qovşağında, böyük ictimai-siyasi və iqtisadi təlatümlərlə xarakterizə olunan bir dövrdə elm cəmiyyətin davamlı inkişafı və rifahı ücün ən vacib amillərdən birinə çevrilmişdir. Elm sərf olunmuş zaman və resurslara baxmaya-

raq, uzunmüddətli perspektivdə cəmiyyətin potensial imkanlarını şəkilləndirir, iqtisadiyyatı, təhsili, səhiyyəni və sosial sferanı istiqamətləndirir. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev tərəfindən bu reallıq dəqiq qiymətləndirilmiş, elm sferası müstəqil dövlətin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu hər iki dövr (1969–1982-ci illər və 1993–2003-cü illər) elm sahəsinin sistemli, dəyər mərkəzli və strateji yanaşma ilə idarə olunması baxımından fərqlənir. Xüsusilə 1990-cı illərdə sovet imperiyasının dağılmasından sonra yaranmış xaos, iqtisadi təlatüm və idarəetmə pozuntuları, təbii ki, elm sahəsində də dərin iz bəraxmışdı. Məhz belə bir şəraitdə Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı bütün sistemin təkrar bərpası və yenidən qurulması prosesinin təməlini qoydu. Bu siyasətin mərkəzində elmin milli maraqlara cavab verən formalaşdırılması, əqli potensialın qorunması və inkişaf etdirilməsi dayanırdı.

Heydər Əliyev elmə sadəcə bir sahə kimi deyil, dövlətin strateji təminatı, milli suverenliyin ideoloji dayaqlarından biri kimi yanaşırdı. Onun dəfələrlə vurğuladığı kimi, xalqın intellektual potensialı olmadan hər hansı davamlı inkişafdan söhbət gedə bilməz. Bu baxımdan, alimlərə, akademik institutlara, elmi-tədqiqat müəssisələrinə qayğı və dəstək onun davam etdirdiyi siyasətin ayrılmaz hissəsinə çevrilmişdir.

Fənnin predmetini məhz bu istiqamətlər təşkil edir: Heydər Əliyevin elm siyasətinin tarixi kontekstdə təhlili, bu siyasətin təsiri altında formalaşan elmi idarəetmə modelləri, akademik sistemin qurulması, elmi kadr siyasəti, elmin maddi-texniki bazasının gücləndirilməsi və elm-təhsil əlaqələrinin inkiafı.

Eyni zamanda, fənn daxilində müstəqillik illərində üzə çıxan problemlər, bu çətinliklərin aradan qaldırılması üçün

Heydər Əliyev tərəfindən reallaşdırılan proqram və tədbirlər təhlil olunur. Bundan başqa, elmi əsərlərə və çıxışlara istinad edilməklə, Heydər Əliyevin elm xadimləri, akademik dairələrlə münasibətləri şəxsi-ideoloji kontekstdə araşdırılır.

Heydər Əliyevin çıxışlarında elmin rolu davamlı olaraq vurğulanır: “Elm millətin zəka mənbəyidir, elm olmasa, xalq inkişaf etmir, elm yoxdursa, dövlətin güclənməsi mümkün deyil”. Bu prinsip də bir daha onu göstərir ki, elmi potensialın qorunması milli varlığın qorunması anlamı daşıyır.

Azərbaycan Milli Elmlər Akademiyasının yenidən strukturlaşdırılması, elmi tədqiqat institutlarının profilləşdirilməsi, fundamental elmlərə ünvanlanan dəstək bu dövrdə daha da artmışdır. 1995-ci ildə qəbul edilmiş “Elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsi” proqramı, 1998-ci ildə təsdiqlənmiş “Azərbaycan elminin inkişaf konsepsiyası” kimi sənədlər bu istiqamətdə aparılan siyasətin əsaslı təməllərini qoymuşdur.

Heydər Əliyev elm xadimlərinə daim diqqət göstərmiş, alimlərin sosial statusunun yüksəldilməsinə nail olmuşdur. Onun səyi ilə bir çox alimlər dövlət təltifinə layiq görülmüş, gənclərin elmə marağını artırmaq məqsədilə elmi-təqaüd proqramları təşkil olunmuşdur. Gənclərə göstərilən bu etimad elmin davamılı inkişafını əlavə təmin edirdi.

Magistratura pilləsində bu fənnin tədrisi tələbələrdə dövlət idarəetməsi, elm siyasəti və milli intellektual potensialın formalaşması üzərində sistemli bilik və bacarıqları formalaşdırmaqla yanaşı, gənclər arasında elmi düşüncə tərzi və təhlil bacarığını təşviq edir. Eyni zamanda, bu fənn vasitəsilə Heydər Əliyev irsinin daha dəqiq, sistemli şəkildə öyrənilməsi təmin olunur.

Hazırlanan bu dərs vəsaiti tələbələrə Heydər Əliyevin elmə dair baxışlarını, onun tətbiq etdiyi siyasətin real nəticələrini,

elm sahəsində yaradılmış davamlılıq və varislik prinsipini şərh edir və əsas mənbələrə istinad etməklə dəyərli bir araşdırma bazası rolunu oynayır. Azərbaycan elmi və təhsili keçdiyi tarixi inkişaf mərhələləri ilə ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatının mühüm dayaqlarından biri kimi formalaşmışdır. Bu inkişaf prosesi heç də həmişə asan olmamış, müxtəlif dövrlərdə siyasi təzyiqlərə, iqtisadi çətinliklərə baxmayaraq davam etmişdir. Lakin ölkənin müstəqilliyi və milli inkişafı üçün elmin strateji əhəmiyyətini dərindən dərk edən liderlərin fəaliyyəti bu sahədə mühüm keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev elmin və təhsilin inkişafını dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirmiş şəxsiyyət kimi milli tariximizdə silinməz iz qoymuşdur.

"Heydər Əliyev - Azərbaycan elmi və təhsili" adlı dərs vəsaiti məhz bu böyük şəxsiyyətin elmin inkişafı uğrunda apardığı fəaliyyətin sistemli şəkildə öyrənilməsinə xidmət edir. Dərs vəsaitində məqsəd tələbələrə Heydər Əliyevin elmə və təhsilə verdiyi töhfələri dərin elmi təhlillərlə izah etmək, bu fəaliyyətin müasir dövrdə necə davam etdirildiyini göstərmək və gənc nəsildə dövlətçilik düşüncəsi, elmi-siyasi analiz bacarıqları formalaşdırmaqdır. Məhz bu baxımdan, bu nüanslara xüsusi diqqət ayrılmış, faktlarla yanaşı təhlillər, həmçinin sual və tapşırıqlarla əhatələnmiş dərs vəsaiti ərsəyə gətrilmişdir.

Vəsaitdə fənnin qarşıya qoyduğu vəzifələr də müəyyən olunmuş və qruplaşdırılmışdır.

Fənn aşağıdakı əsas vəzifələri yerinə yetirməyi qarşısına məqsəd qoyur:

- Azərbaycan elminin inkişafında Heydər Əliyev mərhələsini təhlil etmək;
- Təhsil siyasətində baş verən dəyişiklikləri dövrlər üzrə araşdırmaq;

- Elmi institusional struktur və hüquqi baza sahəsindəki islahatları öyrənmək;
- Heydər Əliyevin elm xadimlərinə münasibətini və onların stimullaşdırılmasını izah etmək;
- Təhsil islahatlarının tarixi və ideoloji əsaslarını qiymətləndirmək;
- İlham Əliyev dövründə bu siyasətin davamlılığını nəzərdən keçirmək.

Heydər Əliyevin rəhbərliyi dövründə təhsil və elm Azərbaycan cəmiyyətinin sosial-mədəni inkişafında prioritet sahələr kimi formalaşmışdır. O, dəfələrlə çıxışlarında təhsili "milli inkişafın təməl daşı", elmi isə "dövlətin sabitliyinin və tərəqqisinin təminatçısı" kimi səciyyələndirmişdir. Onun siyasi kursunda həm ümumi təhsil, həm peşə, həm də ali təhsil kompleks şəkildə nəzərə alınmış, eyni zamanda, elmi tədqiqatlar, kadr hazırlığı, infrastrukturun yenilənməsi və beynəlxalq əməkdaşlıq istiqamətləri üzrə sistemli tədbirlər həyata keçirilmişdir.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə respublikada elmin və təhsilin inkişafı SSRİ miqyasında nümunəvi təcrübə kimi qəbul olunurdu. O dövrdə:

- Ümumi təhsil sahəsində dərs ilinin uzadılması, dərsliklərin yenilənməsi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi təmin olundu;
- Texniki peşə təhsili genişləndirildi, müxtəlif regionlarda peşə məktəbləri və texnikumlar yaradıldı;
- Ali təhsil sahəsində universitetlərin profilləşdirilməsi, yeni ixtisasların açılması və akademik heyətin təkmilləşdirilməsi həyata keçirildi;
- Respublikadan kənarda təhsil siyasəti çərçivəsində yüzlərlə azərbaycanlı gəncin Moskva, Leninqrad, Kiyev kimi elmi mərkəzlərdə təhsil alması təmin olundu;

- Hərbi təhsil istiqamətində Azərbaycan gənclərinin ali hərbi məktəblərə qəbuluna şərait yaradıldı və Cəmşid Naxçıvanski adına hərbi liseyin əsası qoyuldu;
- Tibbi sahənin genişləndirilməsi, ixtisaslı həkimlərin hazırlanması və səhiyyə elminin inkişafı istiqamətində mühüm addımlar atıldı.

1990-cı illərin əvvəllərində ölkədəki xaos, müharibə və iqtisadi böhran şəraitində elm və təhsil sahələri ciddi tənəzzülə uğramışdı. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra elmin və təhsilin bərpasını milli təhlükəsizlik və dövlət quruculuğunun ayrılmaz hissəsi kimi dəyərləndirdi. Onun rəhbərliyi ilə:

- Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyəti bərpa olundu və əsas tədqiqat istiqamətləri dövlət prioritetlərinə uyğunlaşdırıldı;
- 1993–2001-ci illərdə elmi layihələrin maliyyələşməsi artırıldı, tədqiqat institutları yenidən quruldu;
- Elm sahəsində fərman və sərəncamlarla hüquqi baza gücləndirildi; gənc alimlər üçün təqaüdlər, mükafatlar və qrant sistemləri tətbiq olundu;
- Elm xadimlərinə münasibət etik-sosial səviyyəyə yüksəldildi, bir çox görkəmli alimlər təltif edildi, onların təcrübəsi dövlət qurumlarında istifadə olundu;
- Təhsil İslahatı başlandı, kurikulumlar yeniləndi, təhsildə qiymətləndirmə sistemləri təkmilləşdirildi, pedaqoji kadrların ixtisasartırma proqramları həyata keçirildi;
- Yeni məktəblərin tikintisi, köhnə məktəblərin təmir və texniki təminatı, kompüterləşdirilməsi, laboratoriyaların yenilənməsi geniş vüsət aldı.

Dərs vəsaiti yalnız keçmişin öyrənilməsinə deyil, həm də bu siyasətin müasir dövrdə necə davam etdirildiyinin qiymət-

ləndirilməsinə yönəlib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin təhsil və elm siyasəti daha müasir formatda davam etdirilir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişaf strategiyası”nda təhsilin keyfiyyətinin artırılması və elmin innovasiya yönlü inkişafı əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Təhsildə rəqəmsallaşma, STEAM proqramlarının tətbiqi, beynəlxalq ali təhsil reytinqlərində iştirak, elmi nəşrlərin keyfiyyətinin yüksəldilməsi və innovasiya parklarının yaradılması bu siyasətin konkret nəticələrindəndir.

Heydər Əliyevin Azərbaycan elminin və təhsilinin inkişafı sahəsində həyata keçirdiyi çoxşaxəli siyasət bu sahələrin milli dövlət quruculuğunda strateji əhəmiyyət kəsb etdiyini bir daha sübut edir. Ulu Öndərin fəaliyyəti, yalnız bir liderin təşəbbüsləri deyil, həm də elm və təhsilə kompleks dövlət yanaşmasının formalaşması baxımından mühüm mərhələ kimi qiymətləndirilməlidir. Onun rəhbərlik etdiyi bütün dövrlərdə- istər sovet hakimiyyəti dövründə, istərsə də müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə təhsil və elm sahələri daim diqqət mərkəzində olmuşdur. Bu siyasət təkcə infrastruktur tədbirləri ilə deyil, həm də sistemli hüquqi-normativ islahatlar, kadr siyasəti, beynəlxalq əlaqələrin inkişafı və elmi təşviq mexanizmləri ilə müşayiət olunmuşdur.

Heydər Əliyevin elm siyasəti elmi biliklərin tətbiqi, fundamental və tətbiqi tədqiqatların balanslaşdırılması, gənc tədqiqatçıların yetişdirilməsi və elmin cəmiyyətin rifahına xidmət etməsi prinsipləri üzərində qurulmuşdu. Onun təşəbbüsü ilə qəbul edilən qərarlar və fərmanlar Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini canlandırmış, ölkənin elmi potensialının mühafizəsi və inkişafına real imkanlar yaratmışdır. O, elmi sahədə çalışan insanların sosial rifahının yaxşılaşdırılması, onların əməyinin layiqincə qiymətləndirilməsi üçün də addımlar atmış-

dır. Ən yüksək dövlət mükafatları, fəxri adlar və digər stimullaşdırıcı tədbirlər bunun bariz nümunəsidir.

Təhsilə münasibətdə Heydər Əliyevin əsas yanaşması onun milli mənafelərə uyğunlaşdırılması, azərbaycançılıq ideologiyasına əsaslanması və beynəlxalq təcrübə ilə sintez olunması idi. Müstəqillik dövründə bu sahədə həyata keçirilən islahatlar yeni məktəblərin tikintisi, tədris proqramlarının yenilənməsi, müəllimlərin ixtisasartırılması və təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi  onun uzaqgörən siyasətinin tərkib hissəsi idi. Təhsil sahəsində strateji yanaşma həm də Azərbaycanın gələcəyinə, yeni nəsil intellektual kadrların formalaşmasına yönəlmişdi. Bu baxımdan, Heydər Əliyev təhsil və elmə sərmayəni ən səmərəli və perspektivli dövlət investisiyası kimi qiymətləndirirdi.

Heydər Əliyevin təhsil siyasətində diqqətçəkən əsas xüsusiyyətlərdən biri də elmi-təcrübi inteqrasiyanın təşviq edilməsidir. Təhsil müəssisələrinin elmi mərkəzlərlə əməkdaşlığının gücləndirilməsi, tələbə və müəllim kontingentinin beynəlxalq elmi aləmlə əlaqələrinin artırılması, elmi informasiya resurslarına çıxış imkanlarının yaradılması bu istiqamətdə atılan əsas addımlardandır. Onun təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə başlanılmış, bu isə tədrisin keyfiyyətinə müsbət təsir göstərmişdir.

Eyni zamanda, Ulu Öndərin siyasi kursunun davamı olaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsil və elmin daha da inkişaf etdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilir. Bu gün "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf strategiyası" çərçivəsində elmin innovativ əsaslarda inkişafı, rəqəmsallaşma, süni intellekt və yeni texnologiyalar sahəsində araşdırmaların dəstəklənməsi Heydər Əliyev siyasətinin müasir mər-

hələdəki davamıdır. STEAM təhsil proqramlarının tətbiqi, beynəlxalq reytinqlərdə iştirak, alimlərin beynəlxalq fondlara çıxış imkanlarının genişləndirilməsi və təhsildə keyfiyyətin artırılması istiqamətində atılan addımlar onun müəyyən etdiyi konseptual çərçivənin praktik həyata keçirilməsidir.

Nəticə etibarilə, bu vəsait bir tarixi mərhələnin öyrənilməsi deyil, həm də dövlətçilik təfəkkürünün formalaşması, milli elmi irsin qorunması və gələcək üçün mütərəqqi düşüncə tərzinin inkişafı baxımından əhəmiyyətlidir. Vəsaitin məzmunu göstərir ki, elm və təhsil sahəsində Heydər Əliyev tərəfindən qoyulmuş təməl prinsiplər bu gün də öz aktuallığını qoruyur və Azərbaycanın davamlı inkişaf strategiyasının ayrılmaz hissəsi kimi fəaliyyət göstərməkdədir. Bu səbəbdən tələbələrin bu vəsaitdən əldə etdikləri biliklər həm onların elmi dünyagörüşünü formalaşdıracaq, həm də onları gələcəkdə Azərbaycan elminin və təhsilinin inkişafına töhfə verəcək mütəxəssislər kimi yetişdirəcəkdir.

## MÖVZU 1. HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ELMİ FƏNNİNİN PREDMETİ, MƏQSƏDİ, VƏZİFƏLƏRİ

**Mövzu üzrə təlim nəticələri:**

*MTN 1. Heydər Əliyev dövründə elmin inkişafına dair qəbul edilmiş qərarları və strateji sənədləri araşdıraraq, bu qərarların konkret elmi sahələrdə necə tətbiq olunduğunu nümunələrlə əsaslandırır;*

*MTN 2. Azərbaycan elminin institusional inkişafını təhlil edir, bu dövrün elmi siyasətindəki prioritet sahələri müəyyənləşdirir və onların milli maraqlara uyğunluğunu izah edir;*

*MTN 3. Heydər Əliyevin elm siyasətinə əsaslanaraq, müasir elmi inkişaf modelləri ilə inteqrasiya olunmuş alternativ yanaşmalar təklif edir və elmin idarə olunması sahəsində yeni struktur konsepsiyaları formalaşdırır;*

*MTN 4. Heydər Əliyevin elmi sahəyə münasibətini və bu istiqamətdə həyata keçirdiyi tədbirlərin effektivliyini kompleks şəkildə qiymətləndirir, onların Azərbaycan elminin bugünkü inkişafına təsirini obyektiv şəkildə dəyərləndirir.*

Müasir cəmiyyətin sosial-iqtisadi, mədəni və siyasi tərəqqisi birbaşa elm və təhsilin inkişaf səviyyəsi ilə müəyyən olunur. Qloballaşma proseslərinin dərinləşdiyi, informasiya-kommunikasiya texnologiyalarının həyatın bütün sahələrinə nüfuz etdiyi bir şəraitdə bilik iqtisadiyyatına əsaslanan, yüksək rəqabət qabiliyyətinə malik milli iqtisadiyyatın formalaşdırılması, eləcə də davamlı inkişafın təmin edilməsi üçün elmin rolu həlledici əhəmiyyət kəsb edir.

İnnovativ texnologiyaların tətbiqi, bilik istehsalının sürətlənməsi, elmi nəticələrin praktik sahələrə transferi və yeni ixtiraların gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi, dövlətlərin intellektual potensialını gücləndirməyi və elmi fəaliyyətin keyfiyyət göstəricilərini yüksəltməyi tələb edir. Bu baxımdan, elm yalnız nəzəri tədqiqatların aparılması ilə məhdudlaşmır; o, eyni zamanda fundamental biliklərin yaradılması, tətbiqi nəticələrin istehsalat, idarəetmə və sosial həyat sferalarına inteqrasiyası, habelə cəmiyyətin qarşısında duran strateji problemlərin elmi əsaslarla həllini özündə birləşdirən kompleks fəaliyyət sahəsi kimi çıxış edir.

Elmin əsas funksiyaları sırasında yeni biliklərin yaradılması, qabaqcıl texnologiyaların işlənib hazırlanması və tətbiqi, sosial-iqtisadi problemlərin elmi əsaslarla araşdırılması, həmçinin təhsil prosesinin elmi nailiyyətlər əsasında təkmilləşdirilməsi xüsusi yer tutur. Məhz bu səbəbdən müasir dövlət siyasətində elmi-tədqiqat infrastrukturunun inkişaf etdirilməsi, innovasiya ekosisteminin formalaşdırılması, texnologiya transferi mexanizmlərinin qurulması və beynəlxalq elmi əməkdaşlıq əlaqələrinin genişləndirilməsi strateji prioritetlərdən biri kimi müəyyən edilir.

Azərbaycan Respublikasının son onilliklərdə keçdiyi inkişaf mərhələsi elmi-intellektual potensialın gücləndirilməsi baxımından diqqətəlayiq nəticələrlə xarakterizə olunur. Xüsusilə də 1969-cu ildən başlayaraq respublikanın ictimai-siyasi həyatında mühüm rol oynamağa başlayan, 1993-cü ildən etibarən isə müstəqil Azərbaycanın siyasi liderliyini öz üzərinə götürən Ümummilli lider Heydər Əliyevin bu sahədəki tarixi xidmətləri xüsusi qeyd olunmalıdır.

Heydər Əliyev elmi dövlət siyasətinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirərək, ölkədə elmi kadr hazırlığının sə-

viyyəsinin yüksəldilməsi, ali və orta ixtisas təhsil müəssisələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, elmi təşkilatların maddi-texniki bazasının möhkəmləndirilməsi və gənclərin elmə marağının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Onun təşəbbüsü ilə respublika daxilində və xaricdə təhsil alan azərbaycanlı gənclərin sayı artırılmış, nüfuzlu beynəlxalq universitet və elmi mərkəzlərlə əməkdaşlıq genişləndirilmişdir.

Ümummilli liderin rəhbərliyi dövründə Azərbaycan Elmlər Akademiyasının strukturunda optimallaşdırma tədbirləri həyata keçirilmiş, elmi tədqiqatların keyfiyyət və effektivlik göstəricilərinin yüksəldilməsi üçün islahatlar aparılmışdır. Eyni zamanda, elm və təhsil arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, tədris proqramlarında müasir elmi nailiyyətlərin tətbiqi və elmi-tədqiqat nəticələrinin real iqtisadi sektora transferi prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

Heydər Əliyevin elmin inkişafına dair konsepsiyası yalnız öz dövrü üçün deyil, müasir mərhələ üçün də aktuallığını qorumaqdadır. Onun müəyyən etdiyi strateji istiqamətlər elmi infrastrukturun gücləndirilməsi, kadr potensialının artırılması, beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və innovasiya yönlü iqtisadiyyatın qurulması bu gün də Azərbaycan Respublikasında elmi və təhsili inkişaf etdirmək üçün möhkəm ideya bazası kimi çıxış edir.

Ümummilli lider dəfələrlə vurğulamışdır ki, müasir dövlətin formalaşması, milli mədəniyyətin qorunması və cəmiyyətin tərəqqisi yalnız elmi biliyə əsaslanan idarəetmə strategiyaları ilə mümkündür. Onun həyata keçirdiyi kompleks tədbirlər nəticəsində elm ölkənin sosial-iqtisadi inkişaf strategiyasının aparıcı komponentlərindən birinə çevrilmişdir.

Heydər Əliyevin irəli sürdüyü elmi inkişaf konsepsiyası müasir Azərbaycan elminin davamlı inkişafını təmin edən əsas strateji baza olmuş, ölkənin intellektual resurslarının formalaşmasına, milli innovasiya potensialının gücləndirilməsinə və qlobal elmi məkanla inteqrasiyasına zəmin yaratmışdır.

Heydər Əliyev dövründə həyata keçirilmiş tədbirlərin mahiyyətinə nəzər saldıqda aydın olur ki, elmi-tədqiqat institutlarının fəaliyyətinin stimullaşdırılması, onların maliyyə təminatının gücləndirilməsi, müasir texnoloji imkanların yaradılması və elmi kadr potensialının artırılması bu siyasətin əsas istiqamətlərini təşkil etmişdir. Ümummilli liderin elmə yanaşması yalnız mövcud resursların idarə olunması ilə məhdudlaşmamış, həm də strateji perspektivləri nəzərə alan, uzunmüddətli institusional bazanın formalaşdırılmasına yönəlmiş kompleks tədbirlər sisteminə əsaslanmışdır.

Belə ki, elm və təhsil sahələrinin qarşılıqlı inteqrasiyasını sürətləndirmək məqsədilə təhsil sistemində köklü islahatlar həyata keçirilmiş, bütün pillələr üzrə tədrisin məzmununun yeniləşdirilməsinə və müasir pedaqoji-metodoloji yanaşmalara uyğunlaşdırmağa çalışmışdır. Bu islahatlar çərçivəsində dərsliklərin və tədris proqramlarının müasir tələblərə uyğun yenidən hazırlanması, müəllim və tədqiqatçıların sosial təminatının yaxşılaşdırılması, onların peşəkar inkişafına dövlət dəstəyinin gücləndirilməsi prioritet istiqamət kimi müəyyən edilmişdir. Nəticədə, Azərbaycanın elmi infrastrukturu möhkəmləndirilmiş, milli elmin inkişafı üçün davamlı institusional baza yaradılmışdır.

Müasir mərhələdə bu siyasət ardıcıl şəkildə davam etdirilir. Azərbaycan elmi hazırda yenidən qurulma, beynəlxalq standartlara uyğunlaşma və qlobal elmi məkana inteqrasiya mərhələsini yaşayır. Elmi fəaliyyətin keyfiyyətinin yüksəldilmə-

si, tədqiqatların innovativ xarakter alması, tətbiqyönlü nəticələrin artırılması və elmi nailiyyətlərin iqtisadi dövriyyəyə cəlb edilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilir. Dövlət strategiyasında elmi istiqamətlərin prioritetləşdirilməsi, texnologiyaların transferi və elmi tədqiqatların kommersiyalaşdırılması əsas hədəflər kimi müəyyən olunmuşdur.

Bu məqsədlə müasir tələblərə cavab verən elmi infrastrukturun formalaşdırılması istiqamətində genişmiqyaslı layihələr icra olunur, startap ekosistemi və innovasiya mərkəzləri yaradılır, elmi-texniki nailiyyətlərin tətbiqi imkanları genişləndirilir. Beynəlxalq elmi əməkdaşlıq da bu prosesin mühüm komponentidir. Azərbaycan alimləri nüfuzlu beynəlxalq elmi platformalarda fəal təmsil olunur, çoxsaylı beynəlxalq layihələrdə tərəfdaş qismində çıxış edir, bu isə milli elmin qlobal miqyasda tanınmasına və nüfuzunun artmasına mühüm töhfə verir.

Qlobal təcrübə göstərir ki, elmə və təhsilə yüksək prioritet verən dövlətlər yalnız iqtisadi tərəqqi sahəsində deyil, eyni zamanda milli mədəni irsin qorunması, identikliyin möhkəmləndirilməsi və sosial rifahın təmin olunması istiqamətlərində də mühüm üstünlüklər qazanırlar. Bu kontekstdə Heydər Əliyevin milli təhsil və elmin inkişafına verdiyi töhfələr sırf bir tarixi dövrün siyasəti kimi deyil, strateji yönlü və uzunmüddətli təsirə malik milli inkişaf konsepsiyası kimi qiymətləndirilməlidir.

Onun rəhbərliyi ilə həyata keçirilmiş təhsil islahatları, təhsil sisteminin modernləşdirilməsi, müəllim kadrlarının ixtisas səviyyəsinin yüksəldilməsi, elmi metodların tədris prosesinə tətbiqi, təhsilin məzmun və formasının yenilənməsi Azərbaycanda milli maarifçilik ənənələrinin yeni mərhələyə yüksəlməsinə səbəb olmuşdur. Heydər Əliyevin irəli sürdüyü bu strateji xətt müasir dövrdə də öz aktuallığını qoruyaraq, ölkənin elmi və

təhsil sisteminin inkişafında ideya və fəaliyyət bazası kimi çıxış edir.

Heydər Əliyevin elm və təhsili milli inkişafın təməl sütunları kimi qiymətləndirən strateji yanaşması müasir dövrdə də aktuallığını qorumaqdadır. Hazırkı mərhələdə bu strateji xətt Prezident İlham Əliyev tərəfindən ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir. Dövlət səviyyəsində qəbul edilən "Elm haqqında" və "Təhsil haqqında" qanunlar, eləcə də milli strategiyalar və dövlət proqramları məhz Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və ideoloji əsasların müasir şəraitdə inkişafını təmin edir. Bu faktlar sübut edir ki, Azərbaycanın elmi və təhsil sistemi üçün möhkəm bir bünövrə formalaşdırılmışdır və bu bünövrə dövrün çağırışlarına cavab verən şəkildə təkmilləşdirilməkdədir.

Ümummilli lider təhsil sahəsini dövlətin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi qiymətləndirmiş və bu sahədə sistemli, kompleks xarakterli islahatların həyata keçirilməsinə xüsusi önəm vermişdir. Onun baxışına görə, **təhsil milli təhlükəsizliyin təminatı, intellektual potensialın formalaşmasının əsası və davamlı inkişafın başlıca hərəkətverici qüvvəsidir**. Bu səbəbdən Heydər Əliyev təhsil siyasətinin bütün pillələr üzrə keyfiyyətin yüksəldilməsinə, idarəetmədə çevik və səmərəli mexanizmlərin tətbiqinə, təhsil pillələri arasında funksional əlaqələrin gücləndirilməsinə və müasir tələblərə cavab verən kadr hazırlığının təmin edilməsinə xüsusi diqqət yetirmişdir.

Onun təşəbbüsü ilə müəllimlərin sosial rifahının yaxşılaşdırılması, əməyinə verilən dəyərin artırılması və peşə nüfuzunun möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Müəllim və tədqiqatçıların peşəkarlıq səviyyəsinin artırılması üçün ixtisasartırma proqramları yenilənmiş,

tədris prosesində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təşviq olunmuşdur. Dərslik siyasətində keyfiyyət, elmi əsaslılıq və aktuallıq meyarları ön plana çəkilmişdir. Nəticə etibarilə, müstəqillik dövründə milli təhsil sisteminin möhkəmləndirilməsi, elmi-metodiki bazanın gücləndirilməsi və institusional inkişaf istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Fənnin predmeti Heydər Əliyevin elm və təhsil sahəsində həyata keçirdiyi siyasətin mahiyyətini, bu sahələrdə formalaşdırdığı strateji istiqamətləri və onun rəhbərliyi altında yaranmış milli elmi-mədəni mühitin özünəməxsus xüsusiyyətlərini hərtərəfli öyrənməkdən ibarətdir. Məqsədi isə tələbələrə ümummilli liderin elm və təhsil siyasəti, bu sahədə apardığı islahatlar, müəllim əməyinə verdiyi yüksək dəyər və dövlət idarəetməsində tətbiq etdiyi konseptual yanaşmalar barədə geniş və sistemləşdirilmiş biliklər təqdim etməkdir.

Fənnin vəzifələri sırasında Heydər Əliyevin elm və təhsil sahəsindəki irsinin elmi təhlili, dövlətçilik fəlsəfəsinin təhsil siyasətinə təsirinin araşdırılması, müəyyən etdiyi strateji istiqamətlərin müasir dövrdə davam etdirilməsi və gələcək nəsillərə ötürülməsi xüsusi yer tutur. Bu proses tələbələrdə analitik təfəkkürün inkişafına, strateji təhlil bacarıqlarının formalaşmasına və milli təhsil modelinə yaradıcı yanaşma qabiliyyətinin gücləndirilməsinə xidmət edir.

Eyni zamanda, fənn tələbələrə Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilmiş elm və təhsil siyasətinin sistemli xarakterini təhlil etməyi, bu sahədə müəyyən olunmuş məqsəd və vəzifələri dərk etməyi, həmçinin həmin siyasətin müasir mərhələdə davam etdirilməsinin aktuallığını qiymətləndirməyi öyrədir. Bu biliklər tələbələrin müasir Azərbaycan elminin inkişaf perspektivlərini dərindən anlamalarına, intellektual poten-

sialın gücləndirilməsi istiqamətində aparılan islahatlara elmi və vətəndaş mövqeyindən yanaşmalarına şərait yaradır.

Nəticə etibarilə, "Heydər Əliyev və Azərbaycan elmi" fənni yalnız tarixi-siyasi məzmun daşımır, həm də milli elmi düşüncənin inkişafı, təhsilin modernləşdirilməsi və innovasiya yönlü idarəetmə strategiyalarının tətbiqi baxımından mühüm nəzəri-praktik əhəmiyyətə malikdir. Bu fənn tələbələrdə milli dəyərlərə sadiqlik, elmi dünyagörüş, araşdırma mədəniyyəti və təhsil prosesinə yaradıcı yanaşma motivasiyasını formalaşdırır. Qazanılmış bilik və bacarıqlar isə onların gələcəkdə həm elmi tədqiqatlarda, həm də ictimai-siyasi həyatda fəal iştirakına zəmin yaradır, yüksək intellektual potensiala malik yeni nəslin formalaşmasına töhfə verir.

**Sual və tapşırıqlar:**

1. Heydər Əliyevin elm və təhsil sahəsindəki əsas prioritetlərini izah edin.
2. Azərbaycanın müasir elmi inkişafında Ulu Öndərin rolunu ümumiləşdirin.
3. Heydər Əliyev dövründə elmi infrastrukturların inkişafı üçün hansı tədbirlər həyata keçirilmişdir?
4. Müəllimlərin sosial müdafiəsinin yaxşılaşdırılması Heydər Əliyev siyasətində özünü necə göstərirdi?
5. Təhsil sistemində dərsliklərin yenilənməsi və tədris proqramlarının modernləşdirilməsi niyə vacib idi?
6. Heydər Əliyevin elmi siyasətinin Azərbaycan cəmiyyətinə iqtisadi və mədəni təsirlərini şərh edin.
7. Azərbaycan elminin müasir inkişafında beynəlxalq əməkdaşlığın rolunu Heydər Əliyev siyasətinin fonunda qiymətləndirin.

8. Heydər Əliyevin təhsil siyasətində müəllim əməyinin şərəfi necə nəzərə alınmışdır? Bu, təhsil keyfiyyətinə necə təsir göstərir?
9. Müasir Azərbaycanın elmi islahatlarını Heydər Əliyevin dövründə həyata keçirilmiş tədbirlərlə müqayisə edin.
10. Ulu Öndərin elmi inkişaf strategiyasının əsas elementlərini qeyd edib onların həyata keçirilmə yollarını izah edin.
11. Sizcə, elm və təhsilə dövlət dəstəyinin artması cəmiyyətin inkişafına necə təsir edir? Nümunələr gətirin.
12. Gənc nəsillərin elm və təhsilə marağının artırılması üçün hansı əlavə tədbirlər həyata keçirilməlidir?
13. Azərbaycan elminin dünya səviyyəsinə çıxması üçün hansı əsas çətinliklər mövcuddur və onları aradan qaldırmaq üçün nə edilməlidir?
14. Heydər Əliyevin formalaşdırdığı elmi siyasətin davamlılığının təmin olunması üçün gələcək dövrdə həyata keçirilməli olan strateji istiqamətlər hansılardır?
15. Esse yazısı: "Heydər Əliyevin Azərbaycan elminə verdiyi töhfələr və bu töhfələrin müasir dövrdə əhəmiyyəti" mövzusunda 500-700 sözlük esse yazın. Essedə Ulu Öndərin elmi siyasətinin əsas istiqamətlərinə və onların Azərbaycan elmində yaratdığı dəyişiklikləri də əks etdirin.
16. Müzakirə: Heydər Əliyevin elmi siyasətinin cəmiyyətə təsiri haqqında müzakirə aparın. Qeyd olunan fikirləri ümumiləşdirin.
17. Tədqiqat işi: Azərbaycan elminin inkişafında Heydər Əliyevin yaratdığı şərait və bu gün aparılan islahatlar barədə qısa tədqiqat işi hazırlayın (3-4 səhifə)

## MÖVZU 2. HEYDƏR ƏLİYEVİN TƏHSİL VƏ ELMƏ QAYĞISI

**Mövzu üzrə təlim nəticələri:**

*MTN 1. Heydər Əliyevin rəhbərliyi ilə təhsil və elm sahəsində qəbul edilmiş qərarları konkret nümunələr əsasında tətbiq edir, bu qərarların ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının fəaliyyətinə təsirini qiymətləndirir;*

*MTN 2. Heydər Əliyevin dövründə həyata keçirilən elm və təhsil islahatlarını təhlil edir, onların siyasi, sosial və milli təhlükəsizlik kontekstində əhəmiyyətini əsaslandırır;*

*MTN 3. Heydər Əliyevin elm və təhsilə dair yanaşmalarını ümumiləşdirərək müasir dövr üçün yeni strategiyalar formalaşdırır və bu strategiyaları elmi və pedaqoji inkişafla əlaqələndirir;*

*MTN 4. Heydər Əliyevin elm və təhsilə göstərdiyi qayğının uzunmüddətli təsirlərini təhlil edir və bu siyasətin Azərbaycan cəmiyyətinin intellektual potensialına və innovasiya mühitinə verdiyi töhfəni qiymətləndirir.*

Heydər Əliyev təhsil sistemini dövlətin siyasi, iqtisadi və mədəni inkişafının təməl dayaqlarından biri kimi qiymətləndirərək, bu sahəni milli təhlükəsizlik və uzunmüddətli strateji inkişaf konsepsiyasının ayrılmaz tərkib hissəsi hesab etmişdir. Onun baxışına görə, təhsil yalnız bilik və bacarıqların ötürülməsi prosesi deyil, həm də cəmiyyətin intellektual potensialının formalaşdırılması, milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərin milli mənlik şüurunun möhkəmləndirilməsi baxımından həlledici əhəmiyyət daşıyırdı.

Bu strateji yanaşma çərçivəsində Heydər Əliyev respublikanın müxtəlif inkişaf mərhələlərində təhsilin rolunu yüksəltmək üçün ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir. Tarixi təhlillərə əsasən, Azərbaycan təhsilinin son onilliklərdə keçdiyi inkişaf yolunu şərti olaraq dörd əsas mərhələyə bölə bilərik:

**1. Azərbaycan təhsilində yüksəliş dövrü (1969–1982-ci illər)**

1969-cu ildə Heydər Əliyevin Azərbaycan SSR rəhbərliyinə gəlişi ilə ölkədə təhsil sahəsində köklü dəyişikliklər baş vermişdir. Bu mərhələ, xüsusilə aşağıda qeyd olunan məsələlərlə bağlı milli təhsil tarixində əsl intibah dövrü kimi xarakterizə olunur.

- **Maddi-texniki baza:** Respublikanın bütün bölgələrində yüzlərlə yeni məktəb binası inşa edilmiş, mövcud təhsil müəssisələri əsaslı təmir olunmuşdur. Tədris laboratoriyaları, kitabxanalar, idman və mədəniyyət obyektləri ilə təminat genişləndirilmişdir.
- **Kadr hazırlığı:** Müəllimlərin peşəkarlıq səviyyəsini artırmaq məqsədilə ixtisasartırma kurslarının fəaliyyəti gücləndirilmiş, ali pedaqoji məktəblərin maddi bazası yenilənmişdir.
- **Tədrisin məzmunu:** Təhsil proqramlarına milli-mənəvi dəyərlərin, Azərbaycan tarixi və ədəbiyyatının tədrisinə ayrılan saatların artırılması, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi istiqamətində dəyişikliklər edilmişdir.

Bu dövrdə Heydər Əliyevin şəxsən müəllimlərlə görüşməsi, onların sosial nüfuzunun artırılması üçün təşəbbüslər irəli sürməsi təhsil sahəsində mühüm psixoloji və motivasiyaedici təsir yaratmışdır. Nəticədə, 1969–1982-ci illər Azərbaycan təh-

silinin həm struktur, həm məzmun, həm də funksional baxımdan yeni keyfiyyət mərhələsinə keçidi ilə yadda qalmışdır.

**2. Mərkəzi rəhbərlik dövründə təhsilin strateji inkişafı (1982–1987-ci illər)**

Bu mərhələ Heydər Əliyevin SSRİ rəhbərliyində yüksək dövlət vəzifələrində çalışdığı illəri əhatə edir. O, birbaşa respublika idarəçiliyində olmasa da, SSRİ səviyyəsindəki nüfuzu və təşəbbüsləri ilə Azərbaycan təhsilinin inkişafına dolayı, lakin əhəmiyyətli təsir göstərmişdir.

- **Təhsil imkanlarının genişlənməsi:** Azərbaycan gənclərinin SSRİ-nin qabaqcıl ali məktəblərində - Moskva, Leninqrad, Kiyev və digər nüfuzlu elm-təhsil mərkəzlərində oxumaları üçün kvotalar artırılmışdır.
- **Elmi kadr potensialı:** Xaricdə və ittifaqın aparıcı universitetlərində təhsil alan gənclərin respublikaya qayıdaraq elmi-tədqiqat institutlarında fəaliyyətə başlaması milli elmi kadr potensialının güclənməsinə şərait yaratmışdır.
- **Sosial təminat:** Tələbə yataqxanalarının şəraitinin yaxşılaşdırılması, təqaüd və sosial dəstək mexanizmlərinin gücləndirilməsi gənclərin ali təhsilə marağını artırmışdır.

**3. Böhran və çətinlik illəri (1988-1993-cü illər)**

SSRİ-nin dağılması, Qarabağ münaqişəsinin başlanması və ölkədəki sosial-iqtisadi böhran təhsil sisteminə də ciddi zərbə vurmuşdur.

- **Maddi-texniki zəifləmə:** Təhsil müəssisələrinin infrastrukturu sürətlə köhnəlmiş, texniki avadanlıqların yenilənməsi dayanmışdır.
- **Kadr itkiləri:** Müəllimlərin maaşlarının aşağı olması səbəbindən peşəkar kadrların digər sahələrə və xaricə axını baş vermişdir.

- **Hüquqi baza:** 1992-ci ildə qəbul edilmiş "Təhsil haqqında Qanun" müəyyən hüquqi yeniliklər yaratsa da, siyasi sabitliyin olmaması onun səmərəli tətbiqinə imkan verməmişdir.

**4. Müstəqil Azərbaycanın yeni təhsil quruculuğu dövrü (1993-cü ildən etibarən)**

1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə siyasi sabitlik bərpa olundu və təhsil sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

- **İslahatlar:** Təhsil sisteminin idarə olunmasında normativ-hüquqi baza möhkəmləndirildi, dərsliklərin yenilənməsi, yeni tədris proqramlarının hazırlanması və beynəlxalq təhsil standartlarına uyğunlaşdırılması prosesinə başlanıldı.
- **Elm-təhsil inteqrasiyası:** Elmi-tədqiqat institutları ilə ali məktəblər arasında əməkdaşlıq genişləndirildi, gənc alimlərin hazırlanması üçün dövlət proqramları qəbul edildi.
- **Beynəlxalq əməkdaşlıq:** Azərbaycan təhsil sistemi UNESCO, Dünya Bankı, Avropa Şurası kimi beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələrinə qoşuldu.

Bu mərhələdə atılan addımlar nəticəsində Azərbaycan təhsil sistemi yalnız milli çərçivədə deyil, beynəlxalq elmi-mədəni məkanın bir hissəsi kimi formalaşmağa başladı.

Heydər Əliyev Azərbaycan təhsil sisteminin milli maraqlar, müasir tələblər və beynəlxalq təcrübə əsasında formalaşdırılmasını strateji zərurət kimi qiymətləndirirdi. Onun siyasi rəhbərliyi dövründə təhsilin yalnız bilik ötürmə prosesi deyil, həm də milli-mənəvi dəyərlərin qorunması, intellektual potensialın inkişafı və ölkənin davamlı tərəqqisinin təminatçısı kimi funksional əhəmiyyət kəsb etməsi əsas hədəf olaraq müəyyən edil-

mişdi. Ulu Öndərin təşəbbüsü ilə hazırlanaraq qəbul edilən Milli Təhsil Konsepsiyası təhsil sisteminin humanist və demokratik prinsiplərə əsaslanmasını, milli kimliyin möhkəmləndirilməsini, dünyəvi elmi biliklərin mənimsədilməsini və beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin edən kompleks bir proqram xarakteri daşımışdır.

Bu dövrdə həyata keçirilən islahatlar aşağıdakı əsas istiqamətləri əhatə edirdi:

- **İdarəetmə və hüquqi baza:** Təhsil sisteminin idarə olunması mexanizmləri təkmilləşdirilmiş, "Təhsil haqqında" Qanun yenilənmiş, sahəyə dair normativ-hüquqi aktların tətbiq mexanizmləri gücləndirilmişdir.
- **Ali və orta ixtisas təhsili:** Struktur islahatları nəticəsində yeni ixtisaslar təsis edilmiş, tədris planları müasirləşdirilmiş və əmək bazarının tələblərinə uyğunlaşdırılmışdır.
- **Elmi-tədqiqat sahəsi:** Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinin gücləndirilməsi istiqamətində dövlət dəstəyi artırılmış, tədqiqat institutlarının elmi potensialının bərpası üçün kompleks tədbirlər görülmüşdür.
- **Regionlarda təhsil infrastrukturunun inkişafı:** Kənd məktəblərinin maddi-texniki bazası gücləndirilmiş, yeni məktəb binalarının tikintisi və mövcud binaların əsaslı təmiri üzrə dövlət proqramları icra edilmişdir.

Heydər Əliyevin təhsilə yanaşması həm siyasi, həm də praktiki səviyyədə özünü göstərmişdir. Onun hakimiyyətdə olduğu illərdə təhsilin maddi-texniki bazası əhəmiyyətli dərəcədə genişlənmiş, kadr potensialı güclənmişdir. 1969–1982-ci illər ərzində respublika üzrə təqribən 700 yeni məktəb binası istifadəyə verilmiş, ali məktəblərdə təhsil alan tələbələrin sayı 70

mindən 100 minə yüksəlmişdir. Bu mərhələ eyni zamanda azərbaycanlı gənclərin SSRİ-nin aparıcı ali təhsil müəssisələrinə göndərilməsi ilə də yadda qalmışdır. Əgər 1969-cu ildə xarici təhsil mərkəzlərinə göndərilən gənclərin sayı 67 nəfər idisə, 1980-ci illərin əvvəllərində bu rəqəm illik 1000-1400 nəfərə çatmışdır. Bu, ölkədə yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında mühüm rol oynamışdır.

Təhsil siyasətinin mühüm istiqamətlərindən biri də hərbi təhsil sahəsi olmuşdur. 1982-ci ildə SSRİ-nin müxtəlif hərbi məktəblərinə qəbul edilən 1000 nəfərdən 550 nəfərinin azərbaycanlı olması, bu sahəyə göstərilən xüsusi diqqətin və gənclərin hərbi kadr kimi yetişdirilməsinə yönəlmiş məqsədyönlü dövlət siyasətinin nəticəsi idi.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil siyasəti, Azərbaycanın milli intellektual potensialının formalaşdırılması, beynəlxalq rəqabət qabiliyyətinə malik kadrların hazırlanması və təhsilin davamlı inkişafı üçün möhkəm təməl yaratmışdır.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsində milli təhsil və dil məsələləri xüsusi strateji istiqamət kimi formalaşmışdır. Onun təhsil siyasəti yalnız peşəkar kadr hazırlığını deyil, həm də milli kimliyin qorunması, intellektual potensialın inkişafı və gənc nəslin dünyagörüşünün formalaşdırılması kimi məqsədləri hədəfləyirdi.

1970-ci ildə Azərbaycanda fəaliyyət göstərən texniki-peşə məktəblərinin sayı 76, bu məktəblərdə təhsil alan şagirdlərin sayı isə 40,9 min nəfər təşkil edirdi. 1980-ci ilə qədər bu rəqəmlər dinamik şəkildə artaraq müvafiq olaraq 173 məktəbə və 99,8 min şagirdə çatmışdır. 1982-ci ildə isə artıq 184 texniki-peşə məktəbi fəaliyyət göstərirdi və bu məktəblərdə 109 min şagird təhsil alırdı. Beləliklə, 1970–1982-ci illər ərzində məktəblərin sayı təxminən 2.5 dəfə, şagird sayı isə 2.5 dəfəyə yaxın artmışdır.

Bu artım sadəcə kəmiyyət göstəricisi ilə məhdudlaşmamış, eyni zamanda ölkənin sosial-iqtisadi inkişafına uyğun olaraq peşə və ixtisas müxtəlifliyinin genişləndirilməsi ilə müşayiət olunmuşdur. 1982-1983-cü tədris ilində 184 texniki-peşə məktəbində 230 müxtəlif peşə üzrə ümumilikdə 110 min şagird təh-

sil alırdı. Bu, 1970-ci illə müqayisədə şagird sayında təxminən ikiqat artım deməkdir. Sözügedən dövrdə təhsil yalnız kütləviliyi ilə deyil, eyni zamanda tədrisin keyfiyyəti və müasir texnoloji tələblərə uyğunlaşması ilə də müsbət xarakterizə olunurdu.

Bu uğurların əldə olunmasında böyük siyasi iradə və məqsədyönlü idarəetmə rolu xüsusi qeyd olunmalıdır. Məhz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə texniki-peşə təhsilinə göstərilən diqqət və qayğı öz bəhrəsini vermişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə bu sahədə ilk dəfə strateji yanaşma formalaşdırılmış, peşə təhsilinin inkişafı məqsədilə konkret proqramlar hazırlanmış və həyata keçirilmişdir.

1982-ci ildən başlayaraq Heydər Əliyevin SSRİ rəhbərliyində Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışması, onun təhsil sahəsindəki islahatların miqyasını daha da genişləndirmişdir. Bu dövrdə o, həm ümumittifaq səviyyəsində təhsil islahatlarına rəhbərlik etmiş, həm də Azərbaycan təhsilinin inkişafına xüsusi diqqət yetirmişdir.

Beləliklə, 1970-1987-ci illər ərzində texniki-peşə təhsili sistemi Azərbaycanda təkcə statistik göstəricilər baxımından deyil, həm də struktur və məzmun baxımından böyük bir inkişaf yolu keçmişdir. Bu dövr peşə təhsilinin keyfiyyətcə yeni mərhələyə keçidi, sistemli şəkildə modernləşməsi və ölkənin iqtisadi inkişafına real töhfə verən kadrların hazırlanması ilə səciyyələnmişdir.

**Heydər Əliyevin rəhbərliyi ilə texniki-peşə təhsilinin inkişafı və təhsil sistemində strateji rolu.**

Heydər Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanda texniki-peşə təhsili sahəsində formalaşan model, ölkənin təhsil sistemində uzun müddət əsas dayaqlardan birinə çevrilmişdir. 1978-1987-ci illərdə respublikada texniki-peşə təhsilinin maddi-texniki bazası xeyli gücləndiril-

mişdir. Bu dövrdə yeni texniki-peşə kompleksləri, müasir tədris binaları, laboratoriyalar, təcrübə korpusları və yataqxana binaları tikilib istifadəyə verilmişdir. Ümumilikdə bu illərdə 194 tədris-istehsalat emalatxanası və 22 təlim təsərrüfatı yaradılmışdır ki, bu da təhsilin praktik aspektlərinin inkişafına və təhsilalanların real istehsalat şəraitində təcrübə qazanmasına imkan yaratmışdır.

Heydər Əliyevin 1982-1987-ci illərdə təhsil sistemində, xüsusilə texniki-peşə təhsilində əsaslı islahatlar aparması mühüm dönüş nöqtəsi olmuşdur. Bu islahat proqramı çərçivəsində orta texniki-peşə məktəblərinə daxil olan IX sinif məzunlarının sayı və xüsusi çəkisi iki dəfə artırılmış, həmçinin əmək fəaliyyətinə başlamazdan əvvəl bütün gənclərə peşələrə yiyələnmək imkanı yaradılmışdır. Gənclərin peşə təhsili ilə yanaşı, ümumi orta təhsil almaları da nəzərdə tutulmuş, beləliklə, təhsil proqramları həm keyfiyyət, həm də əhatə baxımından zənginləşdirilmişdir.

Texniki-peşə təhsilinin tarixi inkişafını təhlil etdikdə görünür ki, bu təhsil pilləsi Azərbaycan cəmiyyətinin müxtəlif inkişaf mərhələlərində formalaşaraq dərin köklər salmış və respublikanın iqtisadiyyatının bütün sahələrinin ixtisaslı fəhlə kadrları ilə təmin edilməsində əvəzsiz rol oynamışdır. Xüsusilə 1982-1996-cı illərdə, Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə texniki-peşə təhsili daha sürətli inkişaf etmiş, bu sahədə 100-dən çox yeni məktəb yaradılmışdır.

1980-ci illərin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən 185 texniki-peşə məktəbində 109 minədək şagird təhsil alırdı ki, bu da peşə təhsilinin kütləviliyini və əhatəsini əks etdirirdi.

Ulu Öndər Heydər Əliyevin 30 ildən artıq bir müddətdə ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında müstəsna rolu olmuşdur. Onun fəaliyyəti Azərbaycan təhsilinin inkişafın-

da xüsusi yer tutmuşdur. Təhsilin cəmiyyətin ümumi inkişafında və şəxsiyyətin formalaşmasında önəmini daim yüksək qiymətləndirən dahi rəhbər qəbul etdiyi strateji qərarlar, irəli sürdüyü konseptual ideyalar və tövsiyələrlə bu gün də ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşməsində önəmli təsir göstərməkdədir.

Beləliklə, Heydər Əliyevin uzaqgörən rəhbərliyi Azərbaycan təhsil sisteminin, xüsusilə texniki-peşə təhsilinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsində həlledici rol oynamış, bu sistemin möhkəmlənməsini və genişləndirilməsini təmin etmişdir. Bu inkişaf həm ölkənin sosial-iqtisadi tələblərinə cavab vermiş, həm də gələcək nəsillərin peşəkar və bacarıqlı kadr kimi yetişdirilməsinə zəmin yaratmışdır.

**Sual və tapşırıqlar:**

1. Heydər Əliyevin Azərbaycan SSR-in rəhbərliyi dövründə texniki-peşə təhsilinin inkişafının zəruriliyi nə ilə izah olunur?
2. Texniki-peşə təhsilinin inkişafında Heydər Əliyevin təşəbbüsləri və əsas siyasət istiqamətləri hansılar olmuşdur?
3. Həmin dövrdə Azərbaycanda texniki-peşə məktəblərinin sayında və təhsil keyfiyyətində baş verən dəyişikliklər nələrdən ibarət idi?
4. Texniki-peşə təhsilinin inkişafıının Azərbaycanın iqtisadiyyatına təsiri necə qiymətləndirilə bilər?
5. Heydər Əliyevin rəhbərliyi dövründə texniki-peşə təhsilinin inkişafı Azərbaycanın sənaye və texnologiya sahəsindəki irəliləyişlərinə necə töhfə vermişdir?

6. Sizcə, texniki peşə təhsilinə qoyulan investisiyalar uzun müddətli perspektivdə hansı faydaları gətirmişdir?
7. Heydər Əliyevin rəhbərliyi dövründə texniki peşə təhsili sahəsində həyata keçirilən əsas layihələri araşdırıb qısa təqdimat hazırlayın.
8. Texniki peşə məktəbləri və onların hazırlıq planları ilə bağlı arxiv məlumatları və elmi məqalələri toplayıb təhlil edin.
9. Texniki peşə təhsili sahəsində Heydər Əliyevin strateji yanaşmasını təsvir edən esse yazın.
10. Texniki peşə təhsilinin inkişafı ilə bağlı statistik məlumatları toplayıb, nəticələri qrafik və diaqramlarla vizuallaşdırın.

## MÖVZU 5. HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN SSR-ə RƏHBƏRLİYİ DÖVRÜNDƏ ALİ TƏHSİL SAHƏSİNDƏKİ NAİLİYYƏTLƏR

**Mövzu üzrə təlim nəticələri:**

*MTN 1. Heydər Əliyevin 1969-1982-ci illərdə ali təhsil sahəsində həyata keçirdiyi islahatları və qəbul olunan qərarların tətbiqini araşdırır, bu qərarların universitetlərin maddi-texniki bazasının, professor-müəllim heyətinin və ixtisaslı kadr hazırlığının gücləndirilməsinə necə təsir etdiyini konkret nümunələrlə göstərir.*

*MTN 2. SSRİ dövründə Azərbaycan ali məktəblərinin ixtisas strukturunda və elmi-pedaqoji potensialında baş verən dəyişiklikləri təhlil edir, bu dəyişikliklərin Heydər Əliyevin elm və təhsilin inteqrasiyasına yönəlmiş siyasəti ilə bağlılığını əsaslandırır.*

*MTN 3. Heydər Əliyevin ali təhsilin keyfiyyətini yüksəltmək və onu sənaye, iqtisadiyyat və mədəniyyətlə uzlaşdırmaq istiqamətindəki yanaşmalarını ümumiləşdirir və bu model əsasında müasir tələblərə cavab verən yeni ali təhsil konsepsiyası hazırlayır.*

*MTN 4. Heydər Əliyevin SSRİ dövründə ali təhsilin inkişafı sahəsində gördüyü işləri tarixi, sosial və strateji aspektlərdən qiymətləndirir, bu siyasətin Azərbaycan cəmiyyətinin intellektual inkişafına və gələcək elmi potensialına təsirini obyektiv şəkildə dəyərləndirir.*

Azərbaycan təhsil sistemi uzun və zəngin inkişaf yoluna malikdir və bu prosesdə müxtəlif tarixi mərhələlər özünəməxsus xüsusiyyətləri ilə seçilərək ümumi təhsil siyasətinə mühüm

təsir göstərmişdir. Hər bir mərhələ təkcə xronoloji ardıcıllığı deyil, həm də dövrün sosial-iqtisadi və siyasi şəraitini, dövlətin təhsilə yanaşma prinsiplərini və strateji hədəflərini əks etdirir.

Xüsusilə 1969-1982-ci illər Azərbaycan təhsil tarixində yüksəliş və genişlənmə dövrü kimi xüsusi əhəmiyyət kəsb edir. Bu illərdə təhsil sahəsində ardıcıl və sistemli islahatlar həyata keçirilmiş, dövlətin inkişaf strategiyasında təhsil əsas prioritet istiqamətlərdən biri elan olunmuşdur. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə görülən tədbirlər nəticəsində yeni tədris müəssisələrinin yaradılması sürətlənmiş, mövcud məktəblərin maddi-texniki bazası gücləndirilmişdir.

Dövrün mühüm nailiyyətlərindən biri də kadr potensialının formalaşdırılması istiqamətində atılan addımlar olmuşdur. Müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, ixtisasartırma və yenidənqurma tədbirlərinin həyata keçirilməsi, eləcə də ali təhsilli pedaqoji kadrların sayının əhəmiyyətli dərəcədə artırılması təhsilin keyfiyyətinə birbaşa təsir göstərmişdir. Bununla yanaşı, sosial infrastrukturun inkişafı məktəb binalarının, laboratoriyaların, kitabxanaların və tələbə yataqxanalarının inşası təhsil prosesinin əlçatanlığını artırmış, şagird və tələbələrin bilik əldə etmələri üçün zəruri şərait yaratmışdır.

Bütün bu inkişaf təhsil sisteminin müasir tələblərə uyğunlaşdırılmasına, təlimin məzmun və metodikasının yenilənməsinə, şagird və tələbələrin intellektual səviyyəsinin yüksəldilməsinə xidmət etmişdir. Nəticədə, 1969-1982-ci illər Azərbaycan təhsilinin yalnız kəmiyyət baxımından deyil, həm də keyfiyyət göstəricilərinə görə əhəmiyyətli irəliləyişlər əldə etdiyi mərhələ kimi dəyərləndirilir.

## I. Təhsilin yüksəliş mərhələsi (1969-1982-ci illər)

1969–1982-ci illər Azərbaycan təhsil tarixində dönüş mərhələsi kimi dəyərləndirilir. Bu dövrdə təhsil siyasətinə döv-

lət səviyyəsində xüsusi diqqət ayrılmış, təhsil müəssisələrinin sayı sürətlə artmış, təhsilalanların əhatə dairəsi genişlənmişdir. Bununla yanaşı, tədrisin məzmununda və keyfiyyət göstəricilərində mühüm dəyişikliklər həyata keçirilmişdir. Həyata keçirilən islahatların əsasını ümummilli lider Heydər Əliyevin rəhbərliyi, uzaqgörən siyasəti və strateji baxışları təşkil etmişdir.

**Ali təhsilin genişlənməsi və mükafatlandırılması.**

1970-ci illər Azərbaycan ali təhsilinin yeni yüksəliş mərhələsi kimi xarakterizə olunur. Bu illərdə ali məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni fakültələr və ixtisaslar açılmış, tələbələrin elmi fəaliyyətə cəlb olunması istiqamətində mühüm addımlar atılmışdır. Bir sıra ali təhsil müəssisələri ittifaq miqyasında yüksək nəticələr əldə etmişdir. Məhz bu uğurların nəticəsi olaraq həmin dövrdə Azərbaycan SSR-in 5 ali məktəbi Sovet İttifaqının ali mükafatlarına layiq görülmüşdür. Bu fakt həm respublikanın təhsil sisteminin nüfuzunu artırmış, həm də Azərbaycan ali məktəblərinin SSRİ miqyasında tanınmasına və rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaratmışdır.

**Elm və təhsilə dövlətin yüksək qiyməti.**

1980-ci ildə “Azərbaycan SSR əməkdar elm xadimi” fəxri adının təsis edilməsi dövlətin elm və təhsil sahəsinə verdiyi yüksək qiymətin göstəricisi idi. Bu addım yalnız təhsil və elmi fəaliyyətin stimullaşdırılması deyil, həm də pedaqoji kadrların əməyinə verilən hörmətin rəmzi kimi qəbul olunurdu. Sözsüz ki, bu fəxri ad alimlər, müəllimlər və təhsil təşkilatçıları üçün əlavə motivasiya yaradır, onların ölkənin intellektual potensialının gücləndirilməsinə daha böyük töhfə verməsinə şərait yaradırdı.

**Tədris infrastrukturlarının yaradılması və genişləndirilməsi:**

1970-1980-ci illərdə ali məktəblər üçün yeni tədris korpusları, yataqxanalar və laboratoriyalar inşa edilmişdir. Bu döv-

rün ən mühüm nailiyyətlərindən biri təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi olmuşdur. Yalnız Bakı və digər böyük şəhərlərdə deyil, eyni zamanda regionlarda da yeni tədris binalarının tikilməsi və təmir edilməsi nəticəsində təhsil sahəsində əlverişli şərait yaradılmışdır. Bu, təhsil alanların sayının artmasına və təhsilin keyfiyyətinin yüksəlməsinə şərait yaratmışdır.

Ali və orta ixtisas məktəblərinə qəbul olanların sayında da mühüm artım müşahidə olunmuşdur. Bu, ölkədə təhsilə olan marağın artması və təhsil sisteminə qoyulan dövlət investisiyalarının nəticəsi idi.

**Yeni ali məktəblərin yaradılması və ixtisasların genişləndirilməsi:**

Azərbaycan iqtisadiyyatının inkişafı və sənaye sahələrinin sürətli genişlənməsi yeni mütəxəssis tələbatını ortaya qoymuşdur. Bu tələbatı ödəmək məqsədilə 1970-1982-ci illərdə ölkədə bir neçə yeni ali məktəb yaradılmış, çoxsaylı yeni ixtisaslar və kafedralar açılmışdır. Məsələn, tikinti sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün Azərbaycan İnşaat Mühəndisləri İnstitutu, üzümçülük və kənd təsərrüfatının digər sahələri üçün isə Azərbaycan Texnologiya İnstitutu təsis edilmişdir. Bu ali təhsil müəssisələri ölkənin iqtisadiyyatının müxtəlif sahələrində çalışan kadrların keyfiyyətinin yüksəldilməsində mühüm rol oynamışdır. 1960-cı illərin sonunda ölkədə yalnız 12 ali məktəb fəaliyyət göstərirdisə, 1982-ci ilə bu say 17-yə çatdırılmışdır ki, bu da təhsil sahəsində ciddi genişlənmə deməkdir.

**Gənclərin xaricdə təhsili və beynəlxalq əlaqələrin inkişafı:** Heydər Əliyevin təşəbbüsü ilə ölkə gənclərinin xaricdə ali təhsil almaları üçün geniş imkanlar yaradılmışdır. 1970-1980-ci illərdə Azərbaycan gəncləri keçmiş Sovet İttifaqının 50-

dən artıq şəhərində 170-dən çox tanınmış ali məktəbdə təhsil almışdır. Bu təhsil müəssisələrində 250-dən çox ixtisas üzrə 15 mindən artıq Azərbaycan gənci yüksək səviyyəli mütəxəssis kimi hazırlanmışdır. Bu, ölkədə ali təhsilin keyfiyyətinin yüksəldilməsinə və təhsil alanların beynəlxalq səviyyədə rəqabətqabiliyyətli olmasına şərait yaratmışdır.

**Orta və ali hərbi təhsilin təşkili:** 1970-ci illərdə Bakıda Cəmşid Naxçıvanski adına ali hərbi məktəb yaradılmışdır. Bu, ölkədə ilk orta və ali hərbi təhsil sisteminin formalaşması üçün əhəmiyyətli addım olmuşdur. Həmin illərdə Azərbaycanın gəncləri Sovet İttifaqının ali hərbi məktəblərinə göndərilərək yüksək səviyyəli hərbi hazırlıq almışlar. Bu, hərbi kadrların hazırlanması sahəsində də Azərbaycanın ciddi uğurlar əldə etməsinə imkan vermişdir.

**İdman və bədən tərbiyəsi sahəsində inkişaf:** 1969-1982-ci illərdə ölkədə idman infrastrukturu genişlənmiş, yeni idman kompleksləri, meydançalar və sağlamlıq mərkəzləri inşa edilmişdir. Heydər Əliyevin təşəbbüsü ilə bədən tərbiyəsi və idman təhsilinin inkişafında mühüm nailiyyətlər əldə olunmuşdur. İdmanın kütləviliyinin artırılması, sağlam həyat tərzinin təşviqi və idmançılar üçün əlverişli şəraitin yaradılması ölkədə sosial həyatın vacib hissəsinə çevrilmişdir.

Azərbaycan təhsilinin inkişafı yalnız elm və təhsil sahələri ilə məhdudlaşmamış, eyni zamanda ölkənin sosial-iqtisadi həyatına da dərin və çoxşaxəli təsir göstərmişdir. Bu proses, xüsusilə yüksək ixtisaslı kadrların hazırlanması vasitəsilə sənaye, kənd təsərrüfatı, tikinti və digər iqtisadi sahələrin sürətlə inkişafına təkan vermişdir. Təhsil sistemində əldə olunan nailiyyətlər, həmçinin cəmiyyətin maariflənməsi və mədəniyyətin inkişafında mühüm rol oynamışdır.

Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi və müasirləşdirilməsi üçün yüksək ixtisaslı mütəxəssislərə ehtiyac böyük idi. Bu baxımdan, təhsil sisteminin genişləndirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi ölkənin iqtisadi potensialının artırılmasında əsas amillərdən biri olmuşdur. Məsələn, sənaye sahəsində müasir texnologiyaların tətbiqi və yeni müəssisələrin yaradılması üçün ixtisaslı mühəndislər, texniklər və digər mütəxəssislər hazırlamaq təhsil sisteminin prioritetləri arasında olmuşdur. Eyni zamanda, kənd təsərrüfatında modernləşdirmə işləri aparılarkən bu sahədə bilikli və təcrübəli kadrların hazırlanması mühüm əhəmiyyət kəsb etmişdir.

Tikinti sahəsində isə yüksək ixtisaslı mühəndislərin və texniki işçilərin yetişdirilməsi ölkədə infrastrukturun yenilənməsi, yaşayış və sənaye binalarının tikilməsi işlərinin keyfiyyətli həyata keçirilməsinə zəmin yaratmışdır. Nəticədə, ölkənin iqtisadi inkişafı ilə paralel olaraq sosial sahələrdə də islahatlar və yeniliklər həyata keçirilmiş, insanların yaşayış səviyyəsi yüksəlmişdir.

Təhsil sisteminin inkişafı cəmiyyətin maariflənməsində mühüm rol oynayır. Azərbaycanda təhsil sahəsində aparılan islahatlar və genişləndirmələr nəticəsində vətəndaşların bilik səviyyəsi, dünyagörüşü və intellektual potensialı əhəmiyyətli dərəcədə artmışdır. Bu, öz növbəsində ölkədə mədəniyyətin, incəsənətin və ədəbi-ictimai həyatın inkişafına böyük təkan vermişdir.

Təhsil, həmçinin insanların dünyaya baxışını genişləndirərək sosial ədalət, bərabərlik və vətəndaş məsuliyyəti kimi dəyərlərin formalaşmasına kömək etmişdir. Təhsil vasitəsilə cəmiyyətdə sağlam rəqabət mühiti yaradılmış, innovasiyalara açıq və yaradıcı düşüncə tərzi təşviq olunmuşdur. Bu, milli özünü-

dərk və milli kimliyin möhkəmləndirilməsi prosesinə də müsbət təsir göstərmişdir.

Azərbaycan təhsilinin inkişafında dövlətin rolu həlledici olmuşdur. Dövlət tərəfindən təhsil sisteminə göstərilən geniş-miqyaslı diqqət və investisiyalar, ölkənin Sovet İttifaqı çərçivəsində qabaqcıl təhsil sistemlərindən birinə çevrilməsində əsas faktor olmuşdur. Bu dövrdə təhsil sahəsinə ayrılan maliyyə vəsaitləri tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, müəllim heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və yeni təhsil proqramlarının hazırlanmasına yönəldilmişdir.

Dövlət proqramları təhsil müəssisələrinin infrastrukturunun inkişafını, yeni məktəblərin və ali təhsil ocaqlarının açılmasını, təhsil alanların sayının artmasını təmin etmişdir. Həmçinin müəllimlərin və tədqiqatçıların təkmilləşdirilməsi üçün kurslar, seminarlar və təlimlər təşkil edilmiş, onların bilik və bacarıqlarının artırılması prioritet kimi qəbul edilmişdir.

Beləliklə, Azərbaycan təhsilinin inkişafı təkcə elmi-nəzəri biliklərin verilməsi ilə məhdudlaşmayıb, həm də ölkənin sosial-iqtisadi inkişafına, mədəniyyət və maarif sahələrinə böyük töhfələr vermişdir. Dövlət tərəfindən təhsilə ayrılan diqqət və investisiyalar, bu sahənin müasir standartlar səviyyəsinə çatdırılması, həmçinin cəmiyyətin intellektual səviyyəsinin yüksəldilməsi Azərbaycanı Sovet İttifaqının qabaqcıl təhsil sistemlərindən birinə çevirmişdir. Bu inkişaf modeli gələcək nəsillərin daha da zəngin və səmərəli təhsil almasına əsas yaratmışdır.

**Sual və tapşırıqlar:**

1. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR-də ali təhsilin inkişafı üçün hansı əsas tədbirlər həyata keçirildi?
2. Ali təhsilin keyfiyyətinin yüksəldilməsi üçün hansı addımlar atıldı?
3. Heydər Əliyev dövründə hansı ali təhsil müəssisələri əsaslı şəkildə inkişaf etdirildi?
4. Ali təhsilin inkişafının ölkənin sosial-iqtisadi həyatına təsiri necə oldu?
5. Heydər Əliyevin ali təhsil sahəsində apardığı islahatlar Azərbaycan elmi potensialına necə təsir göstərdi?
6. Ali təhsilin inkişafı ilə əlaqədar Heydər Əliyevin strategiyasını şərh edin və onun müasir Azərbaycan üçün nə dərəcədə önəmli olduğunu izah edin.
7. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan SSR-də ali təhsilin inkişafına dair əsas qanun və proqramları toplayıb təqdimat hazırlayın.
8. Ali təhsil sahəsində Heydər Əliyevin nailiyyətlərini araşdırın, esse yazın.
9. Heydər Əliyev dövründə ali təhsilin inkişafı ilə bağlı statistik məlumatları toplayaraq nəticələri qrafik və ya diaqram şəklində göstərin.
10. Məşhur Azərbaycan universitetlərinin tarixi və inkişaf mərhələlərini tədqiq edib mövzu ilə əlaqələndirin.

# MÖVZU 6. HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ

**Mövzu üzrə təlim nəticəsi:**

*MTN 1. 1969-1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlı gənclərin SSRİ-nin müxtəlif ali məktəblərinə göndərilməsi istiqamətində həyata keçirilmiş təşkilati tədbirləri və kvota siyasətini konkret faktlar əsasında araşdırır və tətbiq mexanizmini izah edir.*

*MTN 2. Respublikadan kənarda təhsil alan azərbaycanlı gənclərin sayındakı artım, seçilən ixtisaslar və coğrafi bölgülər üzərində təhlil aparır, bu siyasətin milli kadr hazırlığına və elmi potensialın yüksəldilməsinə təsirini əsaslandırır.*

*MTN 3. Bu dövrdə həyata keçirilən "gənclərin ittifaq respublikalarına göndərilməsi" siyasətini ümumiləşdirərək müasir dövr üçün xaricdə təhsil modelinin yerli ehtiyaclara uyğunlaşdırılmış yeni yanaşmalarını formalaşdırır.*

*MTN 4. Azərbaycanlı gənclərin SSRİ-nin qabaqcıl ali məktəblərində təhsilalma imkanlarının Heydər Əliyev tərəfindən genişləndirilməsinin milli elita və idarəçilik korpusunun formalaşmasına təsirini tarixi və strateji baxımdan obyektiv şəkildə dəyərləndirir.*

Azərbaycanın müasir tarixində 1969-1970-ci illər mühüm dönüş nöqtələrindən biri hesab olunur. Bu dövr respublikada siyasi, iqtisadi və mədəni həyatın canlandığı, milli şüurun yüksəldiyi, dövlət idarəçiliyində yeni yanaşmaların tətbiq olunduğu mərhələ idi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi ilə ölkə inkişafın yeni istiqamətinə qədəm qoydu.

Bu inkişafın əsas dayağını gənclərin gələcək taleyinə xüsusi diqqət təşkil edirdi. Heydər Əliyev yaxşı anlayırdı ki, ölkənin sosial-iqtisadi və mədəni tərəqqisinin başlıca hərəkətverici qüvvəsi savadlı, bilikli və müasir düşüncəli gənclərdir. Ona görə də bu illərdə gənclərin təhsil, sosial və mədəni sahələrdə hərtərəfli inkişafına yönəlmiş tədbirlər dövlət siyasətinin prioritetinə çevrildi.

Xüsusilə 1969-1970-ci illərdə həyata keçirilən ən mühüm addımlardan biri azərbaycanlı gənclərin ittifaqın qabaqcıl şəhərlərində və nüfuzlu ali məktəblərində təhsil almasına şərait yaradılması oldu. Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev, Minsk və digər şəhərlərdə yerləşən aparıcı ali təhsil müəssisələrinə göndərilən azərbaycanlı tələbələr yalnız peşəkar ixtisas biliklərinə yiyələnmir, həm də yeni dünyagörüş, idarəçilik təcrübəsi və müasir elmi texnologiyaları öyrənirdilər. Bu, gələcəkdə onların respublikaya qayıdaraq müxtəlif sahələrdə peşəkar fəaliyyət göstərməsinə, kadr potensialının güclənməsinə mühüm töhfə verdi. Bununla yanaşı, həmin dövrdə respublikanın daxili təhsil müəssisələrində də yeni ixtisaslar açılır, pedaqoji kadrların hazırlanmasına diqqət artırılırdı. Beləliklə, xaricdə oxuyan gənclərlə yanaşı, ölkə daxilində də savadlı və müasir tələblərə cavab verən mütəxəssislərin formalaşması təmin edilirdi.

Ümumilikdə, 1969-1970-ci illər Azərbaycanda gənclərə yönəlik dövlət siyasətinin əsaslarının qoyulduğu və bu siyasətin sonrakı onilliklərdə öz müsbət nəticələrini verdiyi bir dövr kimi xarakterizə oluna bilər. Bu illərdə atılan strateji addımlar təhsilin inkişafında, milli kadrların hazırlanmasında və intellektual potensialın formalaşmasında mühüm rol oynamışdır.

## I. Tarixi-siyasi kontekst: Azərbaycan 1969-1970-ci illərdə

1960-cı illərin sonları Azərbaycan üçün iqtisadi və mədəni baxımdan mürəkkəb dövr idi. Sovet İttifaqının planlı iqtisadiyyat modelində respublikanın mövqeyi müəyyən qədər məhdudlaşdırılmışdı və milli kimlik və mədəniyyət zəifləməkdə idi. Eyni zamanda, peşəkar kadr çatışmazlığı ciddi problemlər yaradırdı. Bu şəraitdə Heydər Əliyevin ölkə rəhbərliyinə gəlməsi azərbaycanlıların milli hüquqlarının qorunması və sosial-iqtisadi inkişafının təmin edilməsi üçün əsaslı dəyişikliklərə yol açdı.

Heydər Əliyev uzaqgörən siyasətçi olaraq gənclərin inkişafına xüsusi önəm verdi. Onun əsas məqsədi gənc nəslin vətənə bağlı, yüksək intellektual səviyyəli, ideoloji baxımdan möhkəm və milli-mənəvi dəyərlərə sadiq bir şəkildə yetişməsini təmin etmək idi. O, gənclərin yüksək səviyyəli təhsil almasını ölkənin gələcəyi üçün həlledici hesab edirdi. 1969-1970-ci illərdə aparılan tədbirlər məhz bu məqsədə xidmət edirdi.

## II. Gənclərin respublikadan kənarda təhsili: sistemli yanaşma və geniş imkanlar

1969-1970-ci illərdə gənclərin təhsili sahəsində əsas yenilik ondan ibarət idi ki, respublikanın ən istedadlı və perspektivli gəncləri SSRİ-nin aparıcı universitetlərinə göndərilməyə başladı. Moskva Dövlət Universiteti, Sankt-Peterburq (Leninqrad), Kiyev, Xarkov, Minsk kimi şəhərlərdə yerləşən qabaqcıl təhsil ocaqları müxtəlif ixtisaslar üzrə azərbaycanlı tələbələrə geniş imkanlar yaratdı.

Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci ildə 1500-dən artıq gənc belə qayğı ilə əhatə olundu. Bu, təkcə kadr hazırlığı deyil, həm də milli inkişafın strateji komponenti idi. Bu gənclər təhsilini başa vurub vətənə qayıtdıqdan sonra ölkənin iqtisadiyyatının müxtəlif sahələrində – sənaye, kənd təsərrüfatı, elmi-

tədqiqat müəssisələri, təhsil və idarəetmə strukturlarında önəmli vəzifələrdə çalışdılar. Bu dövrdə hər il orta hesabla 800 tələbənin təhsil üçün xarici şəhərlərə göndərilməsi gənclərin peşəkar səviyyəsinin yüksəlməsinə xidmət edirdi. Təhsil aldıqdan sonra onlar yalnız texniki və nəzəri biliklərlə kifayətlənməyib, həm də milli ruhu, vətənpərvərlik duyğusunu inkişaf etdirmiş, ölkənin sosial-siyasi həyatında fəal iştirak etməyə hazır olmuşdular.

**III. Ümummilli lider Heydər Əliyevin gənclər siyasətinin ideoloji əsasları**

Heydər Əliyev gənclər siyasətinə insan kapitalı və milli ideologiyanın iki əsas sütunu kimi yanaşırdı. Onun fikrincə, ölkənin inkişafı üçün gənc nəsli həm intellektual səviyyəcə yüksək olmalı, həm də milli mənəviyyat və dövlətçilik prinsiplərinə sadiq qalmalıdır. “Azərbaycanın gələcəyi gənclərin əlindədir”- deyə Ulu Öndər daim vurğulayırdı.

Bu siyasət gənclərin vətənpərvərliyinin, dövlətə sədaqətinin və sosial məsuliyyətinin formalaşmasına yönəlmişdi. Həmçinin, sovet sosializminin ideoloji bazasında milli dəyərlərin qorunması və inkişaf etdirilməsi Heydər Əliyevin həyata keçirdiyi gənclər siyasətinin mühüm elementlərindən idi.

Məhz bu yanaşmanın nəticəsidir ki, 1970-ci illərdən başlayaraq Azərbaycanda gənclər müxtəlif sahələrdə - həm texniki, həm humanitar, həm də elmi sahələrdə yüksək nəticələr göstərdilər.

**IV. Dövlət qurumlarının yaradılması və gənclər siyasətinin sistemləşdirilməsi**

Heydər Əliyevin uzaqgörən siyasəti müstəqillik dövründə də uğurla davam etdirildi. 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Gənclər və İdman Nazirliyi yara-

dıldı. Bu qurum gənclərin sosial, mədəni və idman sahələrində inkişafını təşkil etdi, dövlətin gənclər siyasətinin əsasını qoydu.

1995-ci ildə yaradılan Gənclər Təşkilatlarının Milli Şurası və 1996-cı ildə keçirilən Azərbaycan Gənclərinin I Forumu gənclər siyasətinin yeni mərhələsini açdı. Bu tədbirlərdə gənclərin sosial problemlərinin həlli, onların idarəçilikdə və ictimai həyatda aktiv iştirakının təmin olunması məsələləri müzakirə edildi. Gənclərin hüquqları, təhsili, məşğulluğu, mənəvi inkişafı dövlət siyasətinin prioritet sahələri kimi müəyyən edildi.

Bu dövrdən başlayaraq "Dövlət gənclər siyasəti haqqında" qanun, "Bədən tərbiyəsi və idman haqqında" qanun və digər proqramlar qəbul edilərək ölkədə gənclərin hərtərəfli inkişafı üçün qanunvericilik bazası yaradıldı.

**V. Gənclərin idman sahəsində uğurları və fiziki inkişafın təşviqi**

Heydər Əliyevin gənclər siyasətində idmanın rolu xüsusi idi. Onun fikrincə, sağlam bədən sağlam ruhun əsasıdır. Bu səbəbdən idmanın genişləndirilməsi, gənclərin fiziki inkişafı dövlət siyasətində prioritet kimi qəbul edildi.

Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Azərbaycanda gənc idmançılar beynəlxalq səviyyədə uğurlar qazanır, olimpiya, dünya və Avropa çempionatlarında ölkəmizi layiqincə təmsil edirlər. Məsələn, XXX London Yay Olimpiya Oyunlarında Azərbaycan 200 ölkə arasında 30-cu yeri tutdu, IV İslam Həmrəyliyi Oyunlarında isə 162 medal qazandı. Bu uğurlar gənclər arasında idman ruhunun güclənməsinə və milli qürurun yüksəlməsinə səbəb olur.

**VI. Gənclər siyasətinin müasir dövrdə inkişafı və gələcək perspektivlər**

Müasir Azərbaycanda dövlət gənclər siyasətinin inkişafı prioritet istiqamətlərdən biridir. Bu sahədə geniş proqramlar

hazırlanaraq həyata keçirilir və gənclərin təhsildə, idarəetmədə, elm, innovasiya və mədəniyyət sahələrində fəal iştirakına şərait yaradılır. Prezident İlham Əliyev gənclərlə görüşlərində onların təklif və təşəbbüslərini diqqətlə dinləyir, onların qarşılaşdığı real problemlərin həllinə dövlət səviyyəsində dəstək göstərir.

Bugünki Azərbaycan gəncliyi intellektual, mənəvi və ideoloji baxımdan yetkin, həmçinin yaradıcı və innovativ qüvvə kimi formalaşır. Onlar yalnız ölkənin gələcəyinin təminatçısı deyil, həm də beynəlxalq səviyyədə nüfuz qazanmış, öz potensialı ilə seçilən bir nəsildir. Bu proses ölkənin sosial-iqtisadi inkişafı, elmi tərəqqi və mədəniyyət sahəsində innovativ həllərin tətbiqinə mühüm töhfə verir.

1969-1970-ci illərdə azərbaycanlı gənclərin respublikadan kənarda təhsili sahəsində görülən işlər ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olmuş və gənclərin intellektual, mənəvi və ideoloji inkişafında həlledici rol oynamışdır. Bu siyasət Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi həyatının bütün sahələrində yeni mərhələ açmış, gənclərin potensialının səmərəli formalaşmasına zəmin yaratmışdır.

Ulu Öndərin qoyduğu təməl üzərində aparılan dövlət gənclər siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gəncləri milli inkişafın aparıcı qüvvəsi kimi özlərini təsdiq edir, təhsildə, elmdə, innovasiyalarda və sosial həyatın müxtəlif sahələrində fəal iştirak edirlər. Gənclərin təhsili, fiziki sağlamlığı, mənəvi və ideoloji inkişafı gələcəkdə Azərbaycanın müstəqilliyinin, rifahının və gücünün təminatı olacaq, dövlətin strateji məqsədlərinə nail olunmasına xidmət edəcəkdir.

**Sual və tapşırıqlar:**

1. Heydər Əliyevin 1969-1970-ci illərdə azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması ilə bağlı siyasətinin əsas məqsədi nə idi?
2. Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində təhsili respublikanın inkişafına necə təsir göstərirdi?
3. 1970-ci illərdə azərbaycanlı gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər içərisində ən mühüm təşəbbüs hansıdır və bu təşəbbüsün əhəmiyyəti nə ilə izah olunur?
4. Heydər Əliyevin gənclər siyasətində hansı ideoloji və milli dəyərlər önəm daşıyırdı?
5. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılmasının gənclər siyasətinə təsirlərini izah edin.
6. Azərbaycanda gənclərin təhsili və idman sahəsindəki uğurların ümumi sosial və mədəni əhəmiyyəti nədir?
7. Azərbaycan gənclərinin xaricdə təhsil alması müstəqillik dövründə ölkənin elmi və texniki potensialının artmasına necə təsir göstərdi?
8. Heydər Əliyevin gənclər siyasətini müasir dövrdə Prezident İlham Əliyevin siyasəti ilə müqayisə edin. Nə kimi oxşarlıqlar və fərqliliklər mövcuddur?
9. Azərbaycan gənclərinin beynəlxalq idman arenalarında qazandığı uğurlar gənclərin mənəvi-psixoloji inkişafına necə təsir edir?
10. Sovet dönəmində gənclərin təhsili ilə bağlı görülən tədbirlərin müsbət və mənfi cəhətlərini müzakirə edin.
11. Azərbaycan gənclərinin 1969-1970-ci illərdə xaricdə təhsil almaları ilə bağlı tarixi faktları istifadə edərək, 1-2

səhifəlik məqalə yazın. Məqalədə bu təhsilin ölkənin sosial-iqtisadi inkişafına təsirlərini vurğulayın.

12. Heydər Əliyevin gənclər siyasəti haqqında qısa təqdimat hazırlayın və onu təqdim edin. Təqdimatda gənclərin təhsili, mənəvi-ideoloji inkişafı və idman sahəsindəki nailiyyətlərini şərh edin.
13. Müasir Azərbaycan gənclərinin ölkənin inkişafındakı rolunu qiymətləndirən esse yazın. Əsaslandırmada Heydər Əliyevin və Prezident İlham Əliyevin gənclər siyasətini nəzərə alın.
14. Gənclər üçün idman və sağlam həyat tərzinin əhəmiyyəti barədə müzakirə aparın. Öz fikrinizi əsaslandıraraq 5 dəqiqəlik çıxış hazırlayın.
15. Azərbaycanın müxtəlif regionlarından olan gənclərin təhsili üçün dövlət tərəfindən görülən tədbirləri araşdırın və hesabat hazırlayın. Bu hesabatda 1969-1970-ci illərdə başlayan proseslə müasir dövrü müqayisə edin.
16. Azərbaycan gənclərinin xaricdə təhsili ilə bağlı konkret bir şəxs (məsələn, tanınmış alim, dövlət xadimi və ya idmançı) haqqında qısa bioqrafiya hazırlayın və onun gənclər siyasətindəki rolunu qiymətləndirin.

# MÖVZU 7. HEYDƏR ƏLİYEVİN HƏRBİ TƏHSİLƏ QAYĞISI

**Mövzu üzrə təlim nəticəsi:**

*MTN 1. Heydər Əliyevin hərbi təhsilin inkişafı sahəsində həyata keçirdiyi tədbirləri (məsələn, C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması, hərbi ixtisasların təşviqi və kadr hazırlığı) konkret nümunələr əsasında araşdırır və onların tətbiq formasını izah edir.*

*MTN 2. Heydər Əliyevin hərbi təhsilə dair siyasətini SSRİ dövrü və müstəqillik dövrü kontekstində təhlil edir, bu siyasətin milli ordu quruculuğuna və gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsinə təsirini əsaslandırır.*

*MTN 3. Heydər Əliyevin hərbi təhsilə dair yanaşmalarını ümumiləşdirərək, müasir dövrdə milli təhlükəsizlik və peşəkar ordu formalaşdırılması baxımından yeni hərbi təhsil modelləri və strategiyalarını formalaşdırır.*

*MTN 4. Heydər Əliyevin hərbi təhsilə göstərdiyi qayğının ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsində, zabit heyətinin hazırlanmasında və milli təhlükəsizlik strategiyasında oynadığı rolu kompleks şəkildə qiymətləndirir.*

Azərbaycanın təhsil sistemi əsrlər boyu müxtəlif siyasi, iqtisadi və sosial şəraitdən keçərək inkişaf etmişdir. Bu inkişaf prosesində hərbi təhsil xüsusi əhəmiyyət kəsb etmişdir. Hərbi kadr potensialının yetişdirilməsi yalnız ölkənin müstəqilliyi üçün deyil, həm də dövlət təhlükəsizliyinin təminatı baxımından mühüm rol oynamışdır.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın hərbi təhsilinə verdiyi diqqət və qayğı ilə yanaşı, milli kadrların formalaşması istiqamətində sistemli və məqsədyönlü islahatların əsasını qoy-

muşdur. Burada Heydər Əliyevin hərbi təhsilə göstərdiyi diqqət tarixi kontekstdə analiz ediləcək, onun Sovet dövründə və müstəqillik sonrası fəaliyyətləri əsasında əldə olunan nəticələr təhlil olunacaq.

**Azərbaycan təhsilinin inkişaf mərhələləri**

Azərbaycan təhsilinin tarixi inkişafı dörd əsas mərhələyə bölünür:

- **I mərhələ (1969-1982)** – Azərbaycan təhsilinin yüksəlişi,
- **II mərhələ (1982-1987)** – təhsildə müəyyən durğunluq və problemlər,
- **III mərhələ (1988-1993)** – ağır depressiya illəri,
- **IV mərhələ (1993-cü ilin iyunundan müasir dövrə qədər)** – təhsilin yenidən qurulması və inkişafı.

Bu mərhələlər yalnız ümumi təhsilin deyil, hərbi təhsilin də inkişaf dinamikasını əks etdirir. Xüsusilə I və IV mərhələlərdə hərbi təhsil sahəsində həyata keçirilən islahatlar və Heydər Əliyevin siyasəti əhəmiyyətli dönüş nöqtələri yaratmışdır.

**Hərbi təhsilin tarixi konteksti:**

Çar Rusiyası dövründə Qafqaz və Orta Asiyanın müsəlman xalqları, o cümlədən azərbaycanlılar orduda xidmətə cəlb edilmirdi. Hərbi xidmət əsasən bəylər və mülkədar ailələrinin könüllü razılığı əsasında həyata keçirilirdi. Bu siyasət Sovet İttifaqı qurulduqdan sonra da uzun müddət davam etdi.

1938-ci ildən sonra azərbaycanlılar ümumi hərbi xidmətə cəlb olunmağa başladı. Lakin onlar, əsasən xüsusi hərbi bilik və hazırlıq tələb etməyən vəzifələrə göndərilirdi. Bu vəziyyət hərbi təhsilin inkişafı və milli kadrların hazırlanması sahəsində ciddi maneələr yaradırdı.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hərbi təhsilin modernləşdirilməsi, milli kadrlara əsaslanan ixtisaslı təlim

sisteminin yaradılması və orduda yüksək hazırlıqlı peşəkar kadrların formalaşdırılması istiqamətində ciddi addımlar atıldı. Bu siyasət Azərbaycanın müdafiə qabiliyyətinin və dövlət təhlükəsizliyinin təminatında mühüm rol oynadı.

İkinci Dünya Müharibəsi dövründə isə Sovet İttifaqının canlı qüvvəyə olan tələbatı səbəbindən azərbaycanlılar ön cəbhələrə göndərildi.

Heydər Əliyev hakimiyyətdə olduğu illərdə Sovet ordusunda azərbaycanlı zabitlərin yüksək vəzifələrə irəli çəkilməsi məsələsinə diqqət yetirirdi. O, azərbaycanlı zabitlərin karyera inkişafını daim izləyir, onların yüksək vəzifələrə təyinatında fəal iştirak edirdi. Bu fəaliyyət nəticəsində bir sıra azərbaycanlı zabitlər və generallar yüksək məsuliyyətli vəzifələrə təyin edildi.

Heydər Əliyev öz xatirələrində bildirirdi ki, həmin dövrdə Azərbaycan zabit kadrlarının yetişdirilməsi məsələsi onun üçün prioritet idi və o, zabitlərin irəli çəkilməsinə şərait yaratmağa çalışırdı. Bu təşəbbüslər Azərbaycanın hərbi kadr potensialının formalaşmasında əhəmiyyətli rol oynadı və gələcək üçün möhkəm baza yaratdı.

Sovet dövründə Bakıda iki əsas ali hərbi məktəb fəaliyyət göstərirdi: Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbi. Bu məktəblər SSRİ miqyasında seçilən təhsil ocaqları idi və İttifaqın müxtəlif şəhərlərindən kursantlar burada təhsil alırdılar. Xarici ölkələrdən də Bakı Ali Hərbi Dənizçilik Məktəbinə kursantlar gəlirdi, lakin azərbaycanlıların sayı son dərəcə az idi. XX əsrin 70-ci illərində bu məktəblərə qəbul olunan kursantların içində azərbaycanlıların sayı çox aşağı olmuşdu: Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində 300 qəbuldan yalnız 10-15 nəfəri, Bakı Ali Hərbi Dənizçilik Məktəbində isə 1-2 nəfəri azərbaycanlı idi.

Heydər Əliyev bu vəziyyətin iki səbəbini vurğulayırdı: bir tərəfdən Sovet hakimiyyətinin siyasəti azərbaycanlıların yüksək hərbi vəzifələrə yüksəlməsini istəmirdi, digər tərəfdən isə azərbaycanlı gənclərin hərbi peşəyə soyuq münasibəti mövcud idi. Bu mənzərənin dəyişdirilməsi üçün Heydər Əliyev qətiyyətlə mübarizə aparmağa başladı.

O, ilk növbədə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinə yüksək rütbəli azərbaycanlı kadrların gətirilməsini təmin etdi və məktəbə qəbul olunan azərbaycanlıların sayının artırılması üçün geniş təşəbbüslər göstərdi. Nəticədə, bu ali məktəbə daxil olan azərbaycanlıların sayı xeyli artdı.

Daha sonra Heydər Əliyev Sovet İttifaqı səviyyəsində olan ali hərbi məktəblərə gənclərin göndərilməsini də artırdı. 1970-ci illərin sonlarında Azərbaycandan illik 800-900 nəfər gənc İttifaqın 45-dən artıq ali hərbi məktəbinə göndərilirdi. Bu isə Azərbaycan gənclərinin hərbi peşəyə cəlb olunmasında böyük uğur hesab edilirdi.

Heydər Əliyev, eyni zamanda ali hərbi təhsilin bazasını daha da gücləndirmək məqsədilə xüsusi hərbi təyinatlı orta internat məktəbinin yaradılmasının vacibliyini hiss etmişdi. Bu məktəb azərbaycanlı gənclərə rus dilini mükəmməl öyrənmək, ilkin hərbi biliklərə yiyələnmək və ali hərbi məktəblərə rahat qəbul olmaq imkanı verəcəkdi. Bu təşəbbüs Maarif Nazirliyinə verilmiş və Moskvanın müdaxiləsinin qarşısını almaq üçün sənədləşdirilmişdi.

1971-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Bürosunun qərarı ilə Bakı şəhəri, Zığ qəsəbəsində 2 nömrəli 8 illik internat məktəbinin bazasında Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Bu hadisə Azərbaycan hərbi təhsili tarixində mühüm dönüş nöqtəsi hesab olunur. Liseyin açılması ilə ilk dəfə Azərbaycanda hərbi kadrların sistemli və

planlı şəkildə hazırlanması prosesi başladı, bu isə milli müdafiə qabiliyyətinin gücləndirilməsinə əsaslı töhfə verdi.

1998-ci ilin martında liseyin Naxçıvan filialı açıldı və daha sonra bu filial Heydər Əliyevin adı ilə adlandırıldı. Bu addım onun hərbi təhsilə göstərdiyi diqqətin, qayğının və uzunmüddətli siyasətin birbaşa nəticəsi kimi qiymətləndirilir.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin müdafiə sisteminin formalaşdırılması zərurəti yarandı. Həmin il Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradıldı və milli müdafiə institutlarının təşkili istiqamətində ilkin addımlar atıldı. Lakin, Silahlı Qüvvələrin strukturunun sistemli şəkildə yenidən qurulması prosesi sonrakı mərhələdə, xüsusilə 1993-cü ildən sonra həyata keçirilməyə başlandı.

1993-cü ilin iyununda Heydər Əliyevin Bakıya qayıdaraq Azərbaycan prezidenti seçilməsi ilə ölkənin Silahlı Qüvvələrinin yenidən qurulması prioritet məsələlərdən biri oldu. 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində hərbi təhsilin modernləşdirilməsi istiqamətində geniş proqramlar həyata keçirildi. Bu proqramlar həm hərbi liseylərin maddi-texniki bazasının gücləndirilməsini, həm də hərbi kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsini nəzərdə tuturdu.

Beləliklə, Heydər Əliyevin hərbi təhsilə göstərdiyi diqqət və sistemli siyasət Azərbaycanın müdafiə potensialının möhkəmləndirilməsində və peşəkar kadr hazırlığında həlledici rol oynamışdır.

1998-ci ilin martında “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında” sərəncam imzalandı. Bu sənəd təhsil sektorunun bütün sahələrində, o cümlədən hərbi təhsildə islahatların başlanğıcını qoydu.

Heydər Əliyevin siyasi varisi, hazırkı prezident İlham Əliyev hərbi təhsilin inkişafını şərəflə davam etdirir. 1997-2001-ci illərdə Silahlı Qüvvələrin Hərbi Akademiyası, zabitlərin təkmilləşdirilməsi kursları, zabit kadrların yetişdirilməsi məktəbi və digər hərbi təhsil müəssisələri yaradıldı.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin fəaliyyətə başlaması kimi mühüm hadisələr Silahlı Qüvvələrin peşəkar, savadlı və vətənpərvər zabitlərlə təmin olunmasına imkan yaratdı.

Naxçıvan şəhərində fəaliyyət göstərən və Ümummilli lider Heydər Əliyevin adını daşıyan Hərbi Lisey və 2004-cü ildə yaradılan Ali Hərbi Məktəb Azərbaycanın hərbi təhsil sisteminin əsas dayaqları hesab olunur və milli müdafiə qabiliyyətinin gücləndirilməsində aparıcı rol oynayırlar.

Heydər Əliyevin hərbi təhsilə göstərdiyi qayğı və diqqət, ölkənin hərbi kadr potensialının formalaşması və milli ordunun peşəkarlıq səviyyəsinin yüksəldilməsi baxımından əvəzsiz əhəmiyyət kəsb edir. Onun sovet dövründə və müstəqillik illərində atdığı addımlar nəticəsində Azərbaycan hərbi təhsili sahəsində ciddi uğurlar əldə edilmiş, hərbi kadrların hazırlanması sistemli və planlı şəkildə təşkil olunmuşdur.

Ümummilli liderin yaratdığı baza müasir dövrdə də inkişaf etdirilir və gələcək nəsillərə təhvil verilir. Bu təhsil müəssisələri Azərbaycan hərbi təhsilinin modernləşdirilməsi, ordunun peşəkar kadrlarla təmin edilməsi və dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsi üçün strateji əhəmiyyət daşıyır. Beləliklə, Heydər Əliyevin hərbi təhsilə verdiyi töhfələr təkcə tarixi bir fakt deyil, eyni zamanda Azərbaycanın müstəqilliyinin və təhlükəsizliyinin təminatında davamlı təsir göstərən amil kimi yaşayır.

Hərbi təhsil sistemində yaradılan yüksək nizam-intizam gənclərimizdə vətənpərvərlik ruhunun formalaşdırılmasında xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma orduda vahid komandanlıq və peşəkar idarəetmə mədəniyyətinin yaranmasına şərait yaratdı. Nəticədə sonrakı illərdə formalaşmış peşəkar zabit kamandası Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin yüksəlməsində mühüm rol oynadı. Məhz bu potensial sayəsində Qarabağın işğaldan azad olunması prosesində ordunun əməliyyat imkanları əhəmiyyətli dərəcədə gücləndirildi. Beləliklə, Heydər Əliyev dövründə hərbi təhsilin inkişafı gələcək hərbi uğurların strateji əsasını təşkil etdi.

**Sual və tapşırıqlar:**

1. Çar Rusiyası və Sovet İttifaqı dövründə azərbaycanlıların orduya cəlb olunması necə təşkil olunurdu?
2. Azərbaycan təhsilinin hansı mərhələləri Heydər Əliyevin fəaliyyət dövrünə təsadüf edir? Hər mərhələni qısa izah edin.
3. Heydər Əliyevin Sovet ordusunda azərbaycanlı zabitlərin yüksək vəzifələrə irəli çəkilməsi istiqamətində gördüyü tədbirləri izah edin.
4. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbində azərbaycanlı kursantların sayı ilə bağlı vəziyyəti izah et. Daha sonra bu vəziyyətin yaxşılaşdırılması məqsədilə Heydər Əliyevin hansı tədbirləri gördüyünü qeyd et. Cavabında konkret tədbirlər və onların nəticələrini əsaslandırın.
5. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının önəmini izah et və bu prosesdə Heydər Əliyevin rolunu göstər.

6. 1991-ci ildən sonra Heydər Əliyevin müstəqil Azərbaycanın hərbi quruculuğuna verdiyi töhfələri araşdırın.
7. Heydər Əliyevin hərbi təhsilə göstərdiyi diqqətin müasir dövrdə davam etdirilməsi məqsədilə həyata keçirilən tədbirləri araşdırın.
8. Heydər Əliyevin hərbi təhsilə qayğısının Azərbaycanın müstəqilliyi və təhlükəsizliyi baxımından əhəmiyyətini şərh edin.
9. Təsvir olunan mərhələlərdən birini seçin və həmin mərhələdə Azərbaycan hərbi təhsilinin inkişafında yaranan problemləri və əldə olunan uğurları 1 səhifə həcmində yazın.
10. Heydər Əliyevin hərbi təhsilə göstərdiyi qayğını nümunələrlə izah edən təqdimat (PowerPoint və ya digər proqramda) hazırlayın.
11. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının Azərbaycan üçün əhəmiyyətini araşdıran esse yazın. (minimum 500 söz)
12. Heydər Əliyevin Sovet dövründə azərbaycanlı zabitlərin yüksəlməsi üçün gördüyü işləri müqayisəli təhlil edin. Bu təhlildə Sovet hakimiyyətinin siyasətinin və Heydər Əliyevin fəaliyyətinin əhəmiyyətini əsaslandırın.
13. Azərbaycanın müstəqillik dövründə hərbi təhsil sisteminin formalaşması və inkişafını Heydər Əliyevin rəhbərliyi kontekstində təhlil edin.
14. Mətndə qeyd olunan nizam-intizam, vətənpərvərlik ruhu və peşəkar zabit korpusunun formalaşması proseslərini araşdır. Bu elementlərin Qarabağın işğaldan azad olunmasında rolu haqqında qısa esse yazın.

## MÖVZU 8. HEYDƏR ƏLİYEVİN TİBBİ TƏHSİLİN İNKİŞAFINDA ROLU

**Mövzu üzrə təlim nəticəsi:**

*MTN 1. Heydər Əliyevin SSRİ dövründə və müstəqillik illərində tibbi təhsilin inkişafı ilə bağlı qəbul etdiyi qərarları (tibb ali məktəblərinin və tibbi təhsil müəssisələrinin genişləndirilməsi, tibb kadrlarının hazırlanması, ixtisasartırma və rezidentura sisteminin təşkili və s.) konkret nümunələr əsasında araşdırır və onların icra mexanizmini izah edir.*

*MTN 2. Heydər Əliyevin tibbi təhsil sahəsində apardığı siyasəti kadr potensialının gücləndirilməsi, tibbi bilik və bacarıqların müasirləşdirilməsi, eləcə də səhiyyə sisteminin tələblərinə uyğun ixtisaslı mütəxəssislərin hazırlanması baxımından təhlil edir.*

*MTN 3. Heydər Əliyevin tibbi təhsilə dair yanaşmalarını ümumiləşdirərək, bu prinsiplər əsasında müasir tibbi təhsil sisteminin inkişafı üçün yeni konseptual model və strategiyalar hazırlayır.*

*MTN 4. Heydər Əliyevin tibbi təhsil siyasətinin səhiyyə kadrlarının keyfiyyətinə, tibbi xidmətin səmərəliliyinə və ölkənin səhiyyə potensialının formalaşmasına təsirini tarixi və funksional baxımdan obyektiv şəkildə qiymətləndirir.*

Müasir tibb təhsili Azərbaycanda 1919-cu ildən formalaşmağa başlamışdır. İlk mərhələdə, yəni 1930-cu ilə qədər, tibb təhsili Bakı Dövlət Universitetinin tibb fakültəsi çərçivəsində aparılırdı. Lakin həmin dövrdə tibb təhsili yalnız rus dilində aparılırdı və milli kadrların hazırlanmasına kifayət qədər diqqət

yetirilmirdi. Bu səbəbdən tibb sahəsində ciddi irəliləyişlər müşahidə olunmurdu və Azərbaycan gənclərinin böyük əksəriyyətinin bu ali təhsil sistemindən kənarda qalırdı. 1930-cu il 9 may tarixində Bakı Dövlət Universitetinin tibb fakültəsi əsasında müstəqil ali təhsil müəssisəsi - Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldı. Yeni ali təhsil müəssisəsinin rəhbərliyinə azərbaycanlı alimlər gətirildi və milli kadrların hazırlanması üçün əlverişli şərait yaradıldı. Bundan sonra Azərbaycan dilində tədrisə başlanması ölkənin müxtəlif regionlarından gələn gənclərin institutda təhsil almasına imkan verdi. Lakin dərsliklərin azlığı və maddi-texniki bazanın zəif olması təhsil prosesində çətinliklər yaratmaqda davam edirdi.

1930-cu illərin əvvəlində institutun rəhbərliyinə professor Əziz Əliyev gətirildikdən sonra problemlərin həllinə ciddi başlanıldı və bir sıra islahatlar həyata keçirildi. 1930-cu ildə institutda çalışan 24 professordan yalnız biri azərbaycanlı idisə, 1940-cı ilə qədər bu göstərici əhəmiyyətli dərəcədə artaraq 40 professorun yarısı milli kadrlar tərəfindən təşkil edildi. Bu inkişaf milli tibb kadrlarının sayının və keyfiyyətinin yüksəlməsinə imkan yaratdı. Azərbaycan üçün 1969-cu il səhiyyə və tibb təhsili sahəsində ciddi irəliləyişlərin başlanğıcı oldu. Həmin ildə Azərbaycanın siyasi rəhbərliyinə gələn ümummilli lider Heydər Əliyev ölkənin səhiyyə və tibb təhsilində fundamental yeniliklər həyata keçirdi. Onun rəhbərliyi altında tibb sahəsinin maddi-texniki bazası möhkəmləndirildi, həkim və səhiyyə işçilərinə xüsusi diqqət göstərildi.

Heydər Əliyevin uzaqgörən strategiyası nəticəsində ölkədə ardıcıl olaraq yeni xəstəxanalar, poliklinikalar, elmi-tədqiqat institutları və müalicə-diaqnostika mərkəzləri yaradıldı. Bu müəssisələr tibb elminin inkişafına, tibb təhsilinin keyfiyyətinin yüksəlməsinə və ölkədə səhiyyənin müasir səviyyəyə çatdırıl-

masına mühüm təkan verdi. Beləliklə, 1969-cu ildən sonra Azərbaycan tibb təhsili yalnız kadr hazırlığı baxımından deyil, həm də elmi-texniki və sosial təminat baxımından yeni mərhələyə qədəm qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin xüsusi səyi və təşəbbüsü ilə ölkəmizdə həmin dövrdə mühüm beynəlxalq tədbirlər, konfranslar, simpoziumlar və qurultaylar keçirilmişdir. Bu tədbirlər Azərbaycan tibb elminin beynəlxalq arenaya inteqrasiya prosesini sürətləndirmiş və ölkəmizin səhiyyə sahəsinin dünya miqyasında tanınmasına geniş imkanlar açmışdır. XX əsrin 60-cı illərinin sonlarından başlayaraq, 70-ci illərin əvvəllərində Bakıda təşkil olunan beynəlxalq tibb konqresləri və simpoziumlar Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş və bu tədbirlər Azərbaycan səhiyyəsinin, həmçinin tibb elmi və tibb təhsilinin beynəlxalq səviyyədə mövqeyinin möhkəmlənməsinə zəmin yaratmışdır. Ümummilli liderin uzaqgörən siyasəti sayəsində, o dövrədək Azərbaycan səhiyyə işçilərinin və tibb elmi nümayəndələrinin arzuladığı, lakin maddi-texniki və təşkilati problemlər səbəbindən reallaşdıra bilmədikləri bir çox işlər uğurla həyata keçirilmişdir. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan səhiyyəsi, tibb elmi və tibb təhsili sistemi XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində, təxminən 35 il ərzində davamlı inkişaf yoluna daxil olmuşdur. Bu dövr ərzində səhiyyə sahəsində aparılan sistemli islahatlar və qurulan möhkəm əsaslar ölkəmizin tibb sistemini hazırki yüksək səviyyəyə çıxarmışdır. XX əsrin 70-80-ci illərində aparılan ciddi islahatlar nəticəsində Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovetlər İttifaqı daxilində öz nüfuzunu əhəmiyyətli dərəcədə artırmış və ölkəmizin tibb təhsili sistemi həm kəmiyyət, həm də keyfiyyət baxımından tanınmağa başlamışdır. Bu dövr Azərbaycan tibb təhsilinin inkişafında dönüş nöqtəsi kimi qiymətləndirilir, çünki hə-

min dövrdə institutu sovet məkanında seçilən və nümunəvi ali təhsil müəssisələrindən birinə çevirmişdir.

XX əsrin 70-ci illərində Azərbaycan Dövlət Tibb İnstitutunda tibb elminin tədrisində, xüsusilə diplomaqədər və diplomdansonrakı mərhələlərdə keyfiyyətin artırılması istiqamətində mühüm addımlar atılmışdır. Bu dövrdə tələbələrin və məzunların peşə hazırlığının təkmilləşdirilməsi, eləcə də instituta qəbul olan abituriyentlərin seçimində keyfiyyətin yüksəldilməsi məqsədilə internatura kursları, hazırlıq şöbələri, istehsalat təcrübəsi dekanlığı kimi əlavə struktur bölmələr yaradılmışdır. Bu yeniliklər tibb təhsilinin hərtərəfli inkişafına zəmin yaratmış və tədris prosesinin daha sistemli və səmərəli aparılmasına imkan vermişdir. Ulu Öndər Heydər Əliyev isə ölkənin səhiyyə sisteminin bütün sahələrində olduğu kimi, Azərbaycan Dövlət Tibb İnstitutunun maddi-texniki bazasının gücləndirilməsini də daim diqqət mərkəzində saxlayırdı. Onun rəhbərliyi altında bir-birinin ardınca yeni tədris binaları, müasir səhiyyə müəssisələri tikilərək xalqın istifadəsinə verilmiş və bu da təhsil prosesinin müasir tələblərə uyğunlaşdırılmasına böyük təkan vermişdir. 1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində Azərbaycanın tibb ixtisaslı alimlərinin beynəlxalq əlaqələri əhəmiyyətli dərəcədə genişlənmiş, ölkəmizdə fəaliyyət göstərən tibb müəssisələri dünya səhiyyə sisteminə daha sıx inteqrasiya olunmağa başlamışdır.

1980-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun 50 illik yubileyi Ulu Öndər Heydər Əliyevin iştirakı ilə yüksək səviyyədə keçirilmişdir. Bu yubiley mərasimində institutun əməkdaşlarının bir qismi dövlət tərəfindən fəxri adlarla təltif olunmuşdur. Həmçinin, akademik Mustafa bəy Topçubaşovun və bir neçə digər səhiyyə xadiminin keçmiş Sovetlər İttifaqının ən ali mükafatlarından biri olan “Sosialist Əməyi Qəhrəmanı” ordeninə la-

yiq görülməsi də Heydər Əliyevin diqqət və dəstəyi nəticəsində mümkün olmuşdur. Bu cür görkəmli alim və həkimlərin SSRİ səviyyəsində, sonradan isə beynəlxalq miqyasda tanınması Azərbaycanın səhiyyə sisteminin və tibb elminin dünya səhnəsində nüfuzunun artmasına xidmət etmişdir. Heydər Əliyev Moskvada işlədiyi dövrdə SSRİ-nin səhiyyə sahəsinin idarə olunmasında mühüm rol oynayırdı. O, Sovet İttifaqının qabaqcıl tibb mütəxəssisləri və səhiyyə işçiləri ilə müntəzəm olaraq görüşlər təşkil edir, səhiyyə sistemində mövcud olan problemləri dərindən müzakirə edir və bu problemlərin həlli üçün peşəkar və effektiv yollar təqdim edirdi. Həmin dövrdə SSRİ-nin və dünya tibb elminin tanınmış simalarından biri olan akademik N.N. Bloxin SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin baş direktoru kimi fəaliyyət göstərirdi. O, Heydər Əliyevin SSRİ Səhiyyə İdarələrinin rəhbərləri ilə keçirilən iclaslarda etdiyi çıxışlardan sonra, öz idarəsində işçilərlə müşavirələr keçirərək, Ulu Öndərin tapşırıqlarını və tövsiyələrini onlara dəqiqliklə çatdırırdı. Akademik Bloxin, adətən, tanıdığı insanlara qarşı ehtiyatlı davranmaqla, tənqidə meylli olmasına baxmayaraq, Heydər Əliyev barədə ürəkdən və səmimi təriflər söyləməkdən heç vaxt çəkinmirdi. Onun sözlərinə görə, Heydər Əliyevin səhiyyə sahəsindəki bilikləri və problemlərə yanaşması ən təcrübəli mütəxəssislərdən belə daha dərindən və mükəmməl idi. Buna görə də akademik ona böyük hörmət və ehtiramla yanaşırdı. Ulu Öndərin çıxışları və təklifləri N.N. Bloxin üçün həqiqətən də böyük bir təsir və dərin təəssürat yaratmışdı. Akademik N.N. Bloxindən sonra, Rusiya Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin rəhbəri vəzifəsini üzərinə götürən akademik N.N.Trapeznikov, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra bir neçə dəfə Bakıya səfər etmişdir. Hər dəfə bu səfərlərdə Ulu Öndər Heydər Əliyev onu şəxsən qə-

bul etmiş, səhiyyə sahəsinin aktual problemləri və onkologiya elminin müasir inkişaf mərhələləri barədə geniş söhbətlər aparmışdır. Bu görüşlər zamanı tərəflər dərin müzakirələr keçirərək, Azərbaycan səhiyyəsinin və elminin inkişaf perspektivlərini müzakirə etmiş, eləcə də mövcud problemlərin həlli yollarını araşdırmışlar. Heydər Əliyev yalnız onkoloji sahənin mütəxəssisləri ilə deyil, tibb elminin digər önəmli sahələrində fəaliyyət göstərən tanınmış ekspertlərlə də sıx əlaqələr qururdu. Onun bu münasibətləri, Azərbaycana diqqətin artmasına, ölkənin səhiyyə və tibb təhsili sisteminin beynəlxalq səviyyədə tanınmasına və inkişafına mühüm təsir göstərirdi. Beləcə, Heydər Əliyev Azərbaycanın səhiyyə sahəsindəki uğurlarına yeni dinamika qazandırır, tibb elmi və təhsilinin təkmilləşməsinə öz töhfəsini verirdi. Heydər Əliyevin səyləri və xoşniyyətli təşəbbüsləri Azərbaycan Tibb Universitetinin həyatında da özünü qabarıq şəkildə göstərmişdir. Bu ali təhsil müəssisəsi yarandığı ilk gündən milli kadr çatışmazlığı ilə üzləşmişdi və bu problem uzun müddət davam etmişdi. Ancaq indi inamla demək mümkündür ki, Ulu Öndərin böyük fədakarlıqla və uzaqgörənliklə həyata keçirdiyi cahanşümul işlər nəticəsində Azərbaycanda tibbin bütün sahələri üzrə yüksək ixtisaslı, nüfuzlu milli kadrlar yetişmişdir. Həmin mütəxəssislər isə öz növbəsində yeni mütəxəssis məktəblərinin yaranmasına zəmin yaratmışlar. Qısa müddət ərzində beynəlxalq səviyyədə tanınan və qəbul edilən tibb mütəxəssisləri məktəbləri qurmaq heç də asan iş deyil. Bu cür məktəblərin formalaşması bir neçə il, hətta onilliklər tələb edir. Əgər Azərbaycanda səhiyyə və tibb elmi sahəsində bu qədər möhkəm və fundamental təhsil məktəbləri yaradılıbsa, deməkdir ki, Heydər Əliyevin ideyaları bu gün də yüksək səviyyədə icra edilir və gələcəkdə də öz aktuallığını qoruyacaqdır. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən haki-

miyyətə qayıdışı ilə ölkəmizdə səhiyyə, tibb elmi və tibb təhsili sistemində yeni inkişaf mərhələsi başlamışdır.

XX əsrin 80-ci illərinin sonu və 90-cı illərin əvvəllərində Ermənistanın işğalı nəticəsində Azərbaycanın torpaqlarının təxminən 20%-nin işğal olunmasıyla əlaqədar olaraq, bütün sahələrdə olduğu kimi səhiyyə sahəsində də ciddi tənəzzül yaşanmışdı. Uzun illər ərzində Ulu Öndər tərəfindən böyük zəhmətlə qurulan sistemlər, baxımsızlıq və xaos səbəbindən sürətlə dağılırdı. Lakin bu vəziyyət uzun müddət davam etmədi. Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı parçalanmanı aradan qaldıraraq, dağıntıların qarşısını aldı və səhiyyə sistemində bərpa və inkişaf prosesini sürətləndirdi. Bu, Azərbaycanın səhiyyə sahəsində yeni uğurların başlanğıcı oldu. 1994-cü il mayın 14-də imzalanan atəşkəs rejimi və həmin ilin sentyabr ayının 20-də imzalanan böyük neft müqaviləsi “Əsrin müqaviləsi” kimi tarixə düşdü. Bu mühüm hadisələrdən sonra müstəqil Azərbaycan Respublikasında həm siyasi, həm də iqtisadi vəziyyət yüksələn xətlə inkişaf etməyə başladı. Bu inkişaf ölkəmizin bütün sahələrində öz əksini tapdı və xüsusilə səhiyyə, tibb elmi və tibb təhsili sahələrinin tərəqqisində mühüm irəliləyişlərə şərait yaratdı. Qısa müddət ərzində Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələri genişləndi. Belə ki, 1996-cı ildə bu ali təhsil müəssisəsi Londonda nəşr olunan dünya təhsil birliyinin beynəlxalq reyestrinə daxil edildi. Həmin dövrdə MDB ölkələri arasında bu şərəfə yalnız Rusiya Federasiyası və Ukraynanın bir neçə ali məktəbi nail olmuşdu. Lakin 90-cı illərin əvvəllərində Azərbaycan Tibb Universitetində tədris bazalarının məhdudluğu dərslərin keyfiyyətinə mənfi təsir göstərirdi. Bu vəziyyətdən xəbərdar olan Ulu Öndər Heydər Əliyev SSRİ dövründə bünövrəsini qoyduğu tədris binasının tikintisinin bərpası üçün vəsait ayırdı və layihəni yaxından nəzarətdə saxladı.

1998-ci il sentyabrın 28-də Azərbaycan Tibb Universitetinin yeni, 11 mərtəbəli tədris binasının açılışında çıxış edən Heydər Əliyev bu məqama toxunaraq bildirdi: "Mən Azərbaycana rəhbərlik etdiyim zaman, daha sonra Sovetlər İttifaqında çalışdığım illərdə səhiyyə və tibb elminə daim xüsusi diqqət və qayğı göstərmişəm. O vaxt Moskvada yerləşən ən böyük və mötəbər tibb müəssisələri ilə yaxından tanış idim və onların yaranması, inkişafı üçün çox işlər görmüşəm. Onkoloji, Kardioloji, Ürək Cərrahiyyəsi və Oftalmoloji mərkəzlərin yaradılması və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün böyük səylər göstərmişəm. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, SSRİ Tibb Elmləri Akademiyasının 40 illik yubileyində Sovet İttifaqı rəhbərliyi adından iştirak etmişəm. O zaman mən Azərbaycanın səhiyyəsinə olan marağı və diqqəti artırmaq üçün çalışırdım, Moskvadakı tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edir, ölkəmizə yardım göstərilməsinə təşəbbüs edirdim". Bu sözlər Ulu Öndərin səhiyyəyə və tibb təhsilinə göstərdiyi böyük diqqətin və davamlı dəstəyin göstəricisi olaraq Azərbaycan səhiyyəsinin inkişafında onun rolunu bir daha təsdiq edir. 1998-ci ilin sentyabr ayının 28-də, Azərbaycan Tibb Universitetinin (ATU) 11 mərtəbəli yeni tədris binasının açılış mərasimində şəxsən iştirak edən ümummilli lider Heydər Əliyev, ölkənin tibb işçilərinə, tibb alimlərinə və tələbələrinə güclü dəstək və ilham verdi. Ulu öndər çıxışında vurğuladı ki, "Tibb Universiteti Azərbaycan Respublikası və xalqı qarşısında böyük xidmətlər göstərmişdir." Bu yeni bina, o cümlədən nəzəri kafedralar, universitetin kitabxanası, informatika mərkəzi, hərbi kafedra və internet mərkəzi kimi əsas bölmələr üçün nəzərdə tutulmuşdur və beləliklə, XX əsrin sonu ilə XXI əsrin başlanğıcı ərəfəsində ATU-da çalışan müəllimlər, həkimlər və tələbələr üçün ən böyük hədiyyə sayıldı. 2000-ci ildə isə Ulu Öndər yeni-

dən ATU-ya səfər etdi və burada 500 yerlik unikal akt zalının açılışında, eləcə də universitetin yaranmasının 70 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdə iştirak etdi. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, universitet rəhbərliyinin, professor-müəllim heyətinin, tələbələrin, tibb ictimaiyyətinin, eləcə də Nəsimi rayon İcra Hakimiyyəti nümayəndələrinin və sakinlərinin iştirakı ilə keçirilən mərasimdə ümummilli lider böyük sevgi və hörmətlə qarşılandı. Yenicə istifadəyə verilmiş akt zalında Heydər Əliyevin tarixi nitqi səsləndi. O, Azərbaycan Tibb Universitetinin fəaliyyətini yüksək qiymətləndirərək bildirdi: "...Tibb Universiteti Azərbaycanın digər ali təhsil müəssisələri ilə müqayisədə xüsusi yer tutur. Mən digər universitetlərin və institutların fəaliyyətini və cəmiyyət üçün əhəmiyyətini azaltmaq istəmirəm, lakin ATU-nun rolu xüsusi əhəmiyyət daşıyır".

Bundan əlavə, ATU-nun professor-müəllim heyətinin bir sıra üzvləri, elmi və pedaqoji fəaliyyətlərində qazandıqları uğurlar nəticəsində beynəlxalq qurumlara üzv seçilərək, universitetin nüfuzunu daha da artırdılar. Bu hadisələr Azərbaycan Tibb Universitetinin həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə əhəmiyyətli uğurlarının bariz nümunəsi kimi tarixə keçdi.

Ulu Öndər Heydər Əliyevin xüsusi göstərişi ilə 2000-ci ildə Azərbaycan Tibb Universiteti (ATU) nəzdində strateji əhəmiyyətə malik hərbi tibb fakültəsi yaradıldı. Bu fakültənin təşkili ölkənin müdafiə və səhiyyə sistemlərinin inkişafında mühüm addım oldu. Heydər Əliyevin ATU-ya göstərdiyi dövlət qayğısı nəticəsində universitet beynəlxalq arenada da böyük uğurlar qazandı. Belə ki, Azərbaycan Tibb Universiteti Qara Dəniz hövzəsi ölkələrinin Ali Məktəblər Birliyi, Beynəlxalq Ali Məktəblər Assosiasiyası və Avropa Universitetlər Assosiasiyasının tamhü-

quqlu üzvü kimi tanındı. Bu status universitetin beynəlxalq təhsil və elmi mühitdə nüfuzunu daha da artırdı.

Ümummilli liderin diqqət və dəstəyi ilə 2002-ci ildə ATU-nun nəzdində ilk klinika-Stomatoloji Klinika yaradıldı. Bu, universitetin öz klinik bazasının formalaşması üçün möhkəm əsasların qoyulması demək idi və gələcəkdə digər klinikaların yaradılması üçün önəmli bir təkan oldu.

Bu uğurların əldə edilməsində Azərbaycanın dünya şöhrətli alimi və görkəmli oftalmoloqu, həmçinin Ulu Öndər Heydər Əliyevin həyat yoldaşı olan akademik Zərifə Əziz qızı Əliyevanın böyük rolu olmuşdur. 2025-ci ilin aprel ayının 28-də onun anadan olmasının 91 illiyi ölkəmizdə geniş şəkildə qeyd edildi. Akademik Zərifə Əliyeva uzun illər boyunca Ulu Öndər Heydər Əliyevlə birgə Azərbaycan səhiyyəsinin inkişafında sarsılmaz dayaqlar olmuş, xalqımızın qəlbində və tarixində əbədi iz qoymuşdur. Onların hər ikisi, böyük şəxsiyyətlər olaraq, xalqımızın yaddaşında daim yaşayacaq və gələcək nəsillərə örnək olacaqdır.

**Sual və tapşırıqlar:**

1. Heydər Əliyevin tibbi təhsilin inkişafına yanaşmasını necə xarakterizə etmək olar? Onun əsas prioritetləri nələr idi?
2. Heydər Əliyev dövründə Azərbaycanda tibbi təhsil sahəsində hansı infrastruktur yenilikləri həyata keçirilmişdir?
3. Tibbi kadrların hazırlanması və ixtisasartırılması sahəsində Heydər Əliyevin həyata keçirdiyi tədbirlər hansılardır?
4. Heydər Əliyevin qadın və uşaqların sağlamlığına verdiyi diqqət hansı proqramlarda özünü göstərirdi?
5. Heydər Əliyevin tibbi elmi-tədqiqat işlərinə dəstəyi Azərbaycan səhiyyəsinin inkişafına necə təsir göstərdi?

6. Müstəqillik dövründə Heydər Əliyevin tibbi təhsil sahəsində həyata keçirdiyi tədbirlərin müasir Azərbaycan səhiyyəsinə təsirini qiymətləndirin.
7. Heydər Əliyevin tibbi təhsil sahəsində həyata keçirdiyi ən azı üç mühüm layihəni seçin və bu layihələrin Azərbaycan səhiyyəsi üçün verdiyi töhfələri yazılı şəkildə izah edin. (təxminən 1 səhifə)
8. Azərbaycan tibbi təhsilinin Heydər Əliyev dövründəki inkişafını və onun səhiyyə sisteminə verdiyi töhfələri əks etdirən təqdimat hazırlayın.
9. Heydər Əliyevin tibbi sahədə kadr hazırlığına verdiyi önəmi nümunələrlə izah edən esse yazın. (minimum 400-500 söz)
10. Müasir dövrdə Azərbaycan tibbi təhsilində Heydər Əliyevin siyasətinin davam etdirilməsinə dair konkret misalları (ali tibb məktəblərində tədrisin modernləşdirilməsi, rezidentura və ixtisasartırma proqramları, tibb kadrlarının keyfiyyətinin artırılması və s.) araşdırın və bu barədə məruzə hazırlayın.
11. Heydər Əliyevin dövründə tibbi təhsil sahəsində tətbiq edilən proqramların tibbi kadrların hazırlanmasına və peşəkarlıq səviyyəsinə təsirini araşdırın

## MÖVZU 9. HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCANA RƏHBƏRLİK ETDİYİ DÖVRLƏRDƏ (1993-2003) AZƏRBAYCAN TƏHSİLİ

**Mövzu üzrə təlim nəticəsi:**

*MTN 1. 1993-2003-cü illərdə təhsil sahəsində qəbul olunmuş əsas dövlət qərarlarını və qanunvericilik sənədlərini (məsələn, "Təhsil haqqında" qanun layihələri, dövlət proqramları) araşdırır və onların tətbiq olunduğu sahələr üzrə təsirlərini konkret faktlarla göstərir.*

*MTN 2. 1993-2003-cü illərdə təhsilin idarə olunması, məktəb şəbəkəsinin optimallaşdırılması, müəllim hazırlığı və təhsil islahatlarının sosial-iqtisadi şərtlərlə bağlılığını təhlil edir.*

*MTN 3. Heydər Əliyevin 1993-2003-cü illər ərzində təhsilin inkişafına dair yanaşmalarını ümumiləşdirərək, bu dövrün təcrübəsinə əsaslanan müasir və dayanıqlı təhsil strategiyası formalaşdırır.*

*MTN 4. Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilmiş tədbirlərin Azərbaycan cəmiyyətinin intellektual inkişafına, təhsilalanların keyfiyyət göstəricilərinə və milli təhsil sisteminin formalaşmasına verdiyi töhfələri tarixi və strateji baxımdan qiymətləndirir.*

Ümummilli lider Heydər Əliyev təhsili dövlətin sosial, iqtisadi və mədəni inkişafının əsas amili kimi qiymətləndirmiş, bu sahənin sistemli şəkildə yenidən qurulmasını müstəqil Azərbaycanın inkişaf strategiyasının mərkəzinə yerləşdirmişdir. Onun rəhbərliyi dövründə (1993-2003) həyata keçirilən təhsil siyasəti milli maraqlara söykənən, eyni zamanda qlobal çağırışlara ca-

vab verən keyfiyyətli təhsil modelinin formalaşdırılmasına xidmət etmişdir.

Azərbaycan təhsil sisteminin tarixi inkişaf trayektoriyası göstərir ki, ölkənin ictimai-siyasi mühitində baş verən dəyişikliklər təhsil sahəsinə birbaşa təsir göstərmiş və müxtəlif dövrlərdə onun fərqli istiqamətlərdə inkişafını şərtləndirmişdir.

1993-cü ildən etibarən Azərbaycanda yeni təhsil quruculuğu dövrü başlayır.

Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra (1993-2003) ölkədə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də fundamental islahatlar həyata keçirilmişdir. Bu dövrdə prioritet istiqamətlərə təhsil infrastrukturunun modernləşdirilməsi, müasir tədris metodlarının tətbiqi, ali və orta ixtisas təhsilinin inkişafı, müəllim kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi və təhsilin milli-mənəvi komponentlərinin gücləndirilməsi daxildir.

Bu dövrdə həyata keçirilən islahatlar aşağıdakı məsələləri əhatə edirdi:

- Təhsil infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsi;
- Ali və orta ixtisas təhsilinin inkişafı, ixtisasların diversifikasiyası;
- Müəllim kadrlarının hazırlanması və ixtisasartırma sisteminin təkmilləşdirilməsi;
- Tədris proqramları və dərsliklərin yenilənməsi, müasir pedaqoji texnologiyaların tətbiqi;
- Texniki-peşə və hərbi təhsilin gücləndirilməsi;
- Milli-mənəvi və intellektual komponentlərin tədris prosesinə inteqrasiyası.

**Milli təhsil sisteminin yenidən qurulması.**

1993-cü ildən etibarən Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə təhsilin idarəetmə strukturu müasirləşdirilmiş, təhsil qanunvericiliyi təkmilləşdirilmişdir. Xüsusilə 1995-ci ildə qəbul edilən yeni Konstitusiyada təhsil almaq və təhsil sahəsində bərabər imkanlara malik olmaq hər bir vətəndaşın hüququ kimi təsbit edilmişdir. Bu müddəa Azərbaycan dövlətinin təhsilə münasibətində hüquqi bazanın gücləndirilməsinə şərait yaratmışdır.

**Beynəlxalq təhsil inteqrasiyası və xaricdə təhsil imkanları.**

1994-cü ildən başlayaraq Azərbaycan gənclərinin xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almaları istiqamətində mühüm addımlar atılmışdır. Bu məqsədlə müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq qurulmuş, gənclərin xarici dil biliklərinin artırılması, təqaüd proqramlarına cəlb olunması üçün infrastruktur yaradılmışdır. Bu strategiya nəticəsində ölkəyə yeni dünyagörüşünə malik, müasir texnologiyaları mənimsəmiş kadrlar axını təmin olunmuşdur.

**Təhsilin maddi-texniki bazasının gücləndirilməsi.**

Heydər Əliyev təhsil infrastrukturunun modernləşdirilməsinə xüsusi önəm vermişdir. Yeni məktəb binalarının tikintisi, mövcud məktəblərin əsaslı təmiri, laboratoriya, kompüter və idman avadanlıqları ilə təmin olunması istiqamətində dövlət büdcəsi ilə yanaşı, beynəlxalq donor qurumlarının da resursları səfərbər olunmuşdur. ABŞ-ın müxtəlif humanitar təşkilatları, Yaponiyanın hökuməti, Səudiyyə Ərəbistanı İnkişaf Fondu, İslam İnkişaf Bankı və digər qurumların maliyyə dəstəyi ilə onlarla məktəb binası tikilmiş və ya yenidən qurulmuşdur.

**Peşə təhsilində və ali təhsildə islahatlar.**

23 avqust 1996-cı il tarixli, №116 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə peşə təhsili inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. İqtisadiyyatın tələblərinə uyğun olaraq yeni peşə ixtisaslarının açılması, müvafiq təlim-tədris planlarının yenilənməsi həyata keçirilmişdir. Eyni zamanda ali təhsil müəssisələrində yeni fakültə və ixtisasların açılması, texniki və texnoloji yönlü təhsil sahələrinin genişləndirilməsi təmin edilmişdir.

**Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması.**

Ulu Öndərin 30 mart 1998-ci il tarixli sərəncamı ilə yaradılan Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası, sistemli və elmi əsaslara söykənən islahatların həyata keçirilməsi üçün mühüm platforma rolunu oynamışdır. Həmin ildə keçirilmiş Azərbaycan müəllimlərinin XI qurultayı milli təhsil sisteminin gələcək inkişaf prioritetlərinin müzakirə olunduğu mühüm ictimai platformaya çevrilmişdir. Qurultay çərçivəsində Respublika Təhsil Şurasının yaradılması, müəllimlərin statusunun yüksəldilməsi və elmi-pedaqoji yaradıcılığın stimullaşdırılması məsələləri diqqət mərkəzində olmuşdur.

Heydər Əliyev dövründə təhsilə verilən yüksək dəyər və həyata keçirilən ardıcıl islahatlar nəticəsində Azərbaycan təhsil sistemi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Əldə olunan uğurlar bu sahədə strateji və məqsədyönlü dövlət siyasətinin həyata keçirildiyini göstərir. Təhsilin müasir çağırışlara uyğunlaşdırılması, milli-mənəvi dəyərlərlə inteqrasiya olunmuş dünya səviyyəli təhsil modelinin qurulması baxımından Ulu Öndərin təməlini qoyduğu siyasət bu gün də davam etdirilir və gələcək nəsillər üçün mühüm təməl rolunu oynayır.

**Təhsil sistemində islahatların davamı və konseptual yanaşmalar.**

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-cı illərin sonlarından başlayaraq həyata keçirilən ardıcıl islahatlar təhsil sahəsində köklü struktur və məzmun dəyişikliklərini zəruri etmişdir. Bu baxımdan, 1999-cu il 15 iyun tarixli sərəncamla təsdiq olunmuş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" mühüm dönüş nöqtəsi olmuşdur. Sənəd Azərbaycan təhsilinin milli və beynəlxalq çağırışlara cavab verə bilən, səmərəli və çevik bir sistem kimi formalaşdırılması istiqamətində konseptual çərçivə rolunu oynamışdır.

İslahat Proqramı çərçivəsində Dünya Bankının dəstəyi ilə bir sıra praktiki layihələrə start verilmiş, xüsusən təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin səmərəliliyinin artırılması və yeni tədris məzmununun tətbiqi prioritet istiqamətlər kimi müəyyən edilmişdir. Bu dövrdə həmçinin "Təhsil haqqında" yeni Qanun layihəsi hazırlanaraq geniş ictimai müzakirəyə təqdim edilmiş, bununla da təhsil siyasətində şəffaflıq və ictimai iştirak prinsipinə əsaslanan demokratik müzakirə ənənəsi formalaşdırılmışdır.

**Ümumi orta təhsildə məzmun və struktur dəyişiklikləri.**

1990-cı illərin sonlarında ümumi orta təhsil pilləsində dövlət standartlarının təsdiq olunması və yeni məzmun modellərinin tətbiqi geniş miqyaslı dəyişikliklərin əsasını qoymuşdur. Bu islahatlar nəticəsində təhsil daha çevik, funksional və şagirdyönlü xarakter almışdır. Eyni zamanda, xüsusi istedadlı şagirdlərin erkən mərhələdə aşkar olunması və onların "Qızıl kitab"a daxil edilməsini nəzərdə tutan fərqləndirmə mexanizmi tətbiq edilmişdir. Bu təşəbbüs istedadların sosial cəhətdən tanınması və onların inkişafının dövlət səviyyəsində stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Təhsil sisteminin texniki təminatı istiqamətində də əhəmiyyətli addımlar atılmışdır. 2002-ci il 4 oktyabr tarixli sərəncamla qəbul edilmiş dövlət proqramı əsasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının gücləndirilməsinə başlanmış, bu məqsədlə ölkənin müxtəlif regionlarında beynəlxalq standartlara uyğun müasir məktəb binaları inşa edilmişdir.

Xüsusilə təqdirəlayiq təşəbbüslərdən biri də 1994/1995-ci tədris ilindən etibarən dərsliklərin və tədris vəsaitlərinin şagird və müəllimlərə pulsuz verilməsinin bərpası olmuşdur. Bu sosial yönümlü addım təhsildə bərabərliyin təmin edilməsində və maddi imkanlardan asılı olmadan təhsilə çıxışın genişləndirilməsində mühüm rol oynamışdır. Eyni zamanda, milli-mənəvi dəyərlərə uyğun dərsliklərin hazırlanması sahəsində də ciddi işlər görülmüş, 400-dən artıq dərslik yenilənmiş və 2008-ci ildən tətbiq olunmağa başlanan yeni təhsil məzmunu modelinin tətbiqinə keçid başa çatdırılmışdır.

**Ali təhsildə struktur və idarəetmə islahatları.**

1999-cu ildən etibarən ali təhsil sahəsində də genişmiqyaslı islahatlar həyata keçirilmişdir. Bu dövr üçün xarakterik olan əsas tendensiyalardan biri ali təhsil müəssisələrinin fəaliyyətində muxtariyyət prinsipinin genişləndirilməsi olmuşdur. Təhsil müəssisələrinə tədris planlarını müstəqil şəkildə hazırlamaq səlahiyyətinin verilməsi, onların akademik və inzibati azadlıqlarını genişləndirmiş və universitetlərin idarəetmə modellərində çevik mexanizmlərin tətbiqinə şərait yaratmışdır.

2000-ci ilin 13 iyun tarixli sərəncamla ali təhsil sistemində ikipilləli – bakalavriat və magistratura səviyyələrinə keçidin təmin olunması isə təhsilin struktur baxımından Avropa təcrübəsinə uyğunlaşdırılmasına xidmət etmişdir. Bu dəyişikliklər nəticəsində Azərbaycan təhsil sistemi beynəlxalq ali təhsil məkanına daha sıx inteqrasiya olunmuşdur. Qeyd etmək lazımdır ki, bu

keçid 1997-ci ildə ilk magistrantların təhsilə başlaması ilə faktiki olaraq həyata keçirilməyə başlanmış və 2000-ci ildən hüquqi əsasla təmin edilmişdir.

Maliyyə müstəqilliyi sahəsində də mühüm yeniliklər olmuşdur. 1993-cü ildən etibarən tətbiq edilən ödənişli təhsil sistemi ali məktəblərin maddi imkanlarının genişlənməsinə xidmət etmiş, universitetlərin öz maliyyə resursları hesabına tədris və elmi-tədqiqat potensiallarını gücləndirməsinə şərait yaratmışdır.

**Ali məktəblərin statusu və regional təhsil siyasəti.**

Azərbaycanın ali təhsil sistemində struktur dəyişiklikləri təkcə məzmun və idarəetmə ilə məhdudlaşmamış, eyni zamanda yeni ali təhsil müəssisələrinin yaradılması və mövcud qurumların statusunun yüksəldilməsi ilə müşayiət olunmuşdur. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyası kimi ali məktəblərə maliyyə müstəqilliyi verilmişdir ki, bu da onların idarəetmə və qərarvermə proseslərində operativliyi artırmışdır.

Həmçinin bir sıra ali təhsil müəssisələrinə "universitet" statusunun verilməsi və yeni ali məktəblərin yaradılması regionlarda təhsilin inkişaf etdirilməsi siyasətinin bir hissəsi kimi çıxış etmişdir. Bu kontekstdə 2000-ci illərin əvvəllərində Azərbaycan Müəllimlər İnstitutunun yaradılması və onun bölgələrdə 12 filialının fəaliyyətə başlaması regionlarda pedaqoji kadrların hazırlanması sahəsində mühüm addım olmuşdur. Bu təşəbbüs, həm də milli təhsil sistemində mərkəzləşdirilmiş idarəetmədən desentralizasiyaya keçidin əlaməti kimi dəyərləndirilə bilər.

**Elmin inkişafı və institusional dəyişikliklər.**

Heydər Əliyev dövründə təkcə təhsil sahəsində deyil, elmi fəaliyyətin təşkilati strukturunda da mühüm dəyişikliklər həyata keçirilmişdir. 2001-ci ildə Azərbaycan Elmlər Akademiyasına

“Azərbaycan Milli Elmlər Akademiyası” adı verilmişdir. Bu dəyişiklik simvolik xarakter daşımamaqla yanaşı, elmi-tədqiqat fəaliyyətinin dövlət səviyyəsində milli prioritet kimi qəbul edildiyini əks etdirmişdir. AMEA-nın statusundakı bu dəyişiklik onun beynəlxalq elmi dairələrlə əməkdaşlığını genişləndirmək, innovativ layihələrə cəlb olunmaq və gənc alimlərin potensialını stimullaşdırmaq üçün yeni imkanlar açmışdır.

**Təhsildə dövlət dili siyasəti və normativ hüquqi baza.**

Müstəqil Azərbaycanın milli dövlətçilik prinsiplərinin formalaşdırılması və möhkəmləndirilməsi prosesində dövlət dili siyasətinin təhsildə tətbiqi xüsusi əhəmiyyət kəsb etmişdir. Bu sahədə həyata keçirilən islahatların başlıca məqsədi Azərbaycan dilinin dövlət dili kimi cəmiyyətin bütün sferalarında, xüsusilə təhsil sistemində möhkəmləndirilməsi və tətbiqinin institusional əsaslarla təminatı olmuşdur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunan hüquqi-normativ aktlar bu məqsədlərə xidmət edən strateji sənədlər qismində çıxış etmişdir.

Heydər Əliyev tərəfindən təsdiqlənən aşağıdakı sənədlər dövlət dilinin təhsil mühitində tətbiqini sistemli şəkildə tənzimləyən və genişləndirən hüquqi çərçivəni formalaşdırmışdır:

- “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Fərman (13 iyun 2000-ci il) – bu sənəd təhsil sistemində dövlət dilinin rolu və tətbiq mexanizmləri baxımından əsaslı dəyişikliklərin başlanğıcıdır;
- “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Sərəncam (18 iyun 2001-ci il) – dövlət idarəçiliyində, eləcə də təhsil müəssisələrində Azərbaycan dilinin istifadəsini gücləndirməyə yönəlmiş mühüm addımıdır;

- “Azərbaycan əlifbası və Azərbaycan Dili Günü (1 avqust) təsis edilməsi haqqında” Fərman (9 avqust 2001-ci il) – milli identikliyin qorunması və yeni nəsildə dilə hörmətin formalaşdırılması istiqamətində mühüm simvolik və praktik əhəmiyyətə malikdir;
- “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanunun tətbiq edilməsi barədə Fərman (2 yanvar 2003-cü il) – bu sənəd dövlət dilinin hüquqi statusunu möhkəmləndirən və təhsil müəssisələrində onun tətbiqini məcburi edən normativ baza rolunu oynamışdır.

Sadalanan sənədlər, bir tərəfdən, milli dilin strateji əhəmiyyətini təsbit etmiş, digər tərəfdən isə təhsil sahəsində vahid dil siyasətinin formalaşdırılması üçün hüquqi baza yaratmışdır. Bu addımlar, həmçinin təhsildə məzmunun vahid informasiya və kommunikasiya məkanına uyğunlaşdırılmasına, vətəndaşların milli-mədəni kimliyinin qorunmasına və milli şüurun inkişafına töhfə vermişdir.

**Məktəbəqədər və məktəbdənkənar təhsilin inkişafı.**

Milli təhsil sisteminin ayrılmaz hissəsi kimi məktəbəqədər və məktəbdənkənar təhsil sahələri də Heydər Əliyev dövründə diqqət mərkəzində olmuşdur. Uşaqların intellektual, psixoloji və fiziki inkişafının təmin olunması məqsədilə bu sahədə kompleks tədbirlər görülmüşdür. 2000-ci il üçün statistik göstəricilər həmin mərhələdə məktəbəqədər təhsilin geniş miqyasda təşkil olunduğunu təsdiqləyir: ölkə üzrə 1790 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərmiş, 111 mindən artıq uşaq bu müəssisələrdə təlim-tərbiyə prosesi ilə əhatə olunmuşdur.

Eyni zamanda, şagirdlərin maraq dairələrinin genişləndirilməsi və onların asudə vaxtlarının səmərəli təşkili məqsədilə 367 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərmişdir. Bu müəssisələrdə şagirdlər elmi-texniki yaradıcılıq, incəsənət,

idman və digər istiqamətlər üzrə müxtəlif dərnəklərə cəlb olunmuş, bu da onların harmonik inkişafına və istedadlarının aşkarlanmasına şərait yaratmışdır. Məktəbəqədər və məktəbdənkənar təhsil sahələrinə dövlət səviyyəsində göstərilən diqqət uşaq hüquqlarının təmin edilməsində və təhsildə inklüzivliyin təşviq olunmasında mühüm rol oynamışdır.

**Təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsi.**

Təhsil sahəsində aparılan islahatların uğurla həyata keçirilməsində pedaqoji heyətin maddi-sosial təminatı mühüm rol oynamışdır. Belə ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1993-2003-cü illər ərzində təhsil işçilərinin əməkhaqlarının artırılması məqsədilə imzalanmış Prezident sərəncamları müəllimlərin sosial statusunun və peşə nüfuzunun yüksəlməsinə xidmət etmişdir. Bu təşəbbüs yalnız maddi rifahın yaxşılaşdırılması ilə məhdudlaşmamış, həm də cəmiyyətdə müəllim peşəsinə olan münasibətin pozitiv istiqamətdə dəyişməsinə səbəb olmuşdur.

Sosial təminat sahəsində həyata keçirilən tədbirlər nəticəsində təhsil müəssisələrindən kadr axınının qarşısı alınmış, yüksək ixtisaslı mütəxəssislərin təhsildə saxlanması təmin edilmişdir. Bu yanaşma təhsil islahatlarının dayanıqlığına zəmanət verən əsas amillərdən biri kimi çıxış etmişdir.

Müəllimlərin maddi stimullaşdırılması ilə yanaşı, onların peşəkarlığının artırılması istiqamətində ixtisasartırma və yenidənhazırlanma proqramlarına xüsusi diqqət ayrılmışdır. Bu proqramlar müəllimlərin bilik və bacarıqlarının müasir tələblərə uyğunlaşdırılmasını, yeni pedaqoji texnologiyaların tətbiqini və tədris keyfiyyətinin yüksəldilməsini təmin etmişdir.

Beləliklə, Heydər Əliyevin təhsil sahəsindəki siyasəti maddi-mənəvi təminat və peşəkarlığın artırılması prinsiplərini birləşdirərək, təhsil sisteminin inkişafını dayanıqlı və məqsədyönlü şəkildə təmin etmişdir.

**Sual və tapşırıqlar:**

1. Heydər Əliyevin təhsil sahəsində apardığı islahatların əsas strateji istiqamətlərini sadalayın və bunların milli təhsil sisteminə təsirini şərh edin.
2. 1993–2003-cü illərdə təhsil sistemindəki modernləşmə siyasətini müstəqillik ideyası kontekstində izah edin.
3. “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı”nın strukturu və hədəfləri barədə təhlil aparın.
4. Təhsilin məzmununun yenilənməsi və dövlət təhsil standartlarının tətbiqi nə kimi dəyişikliklərə yol açdı?
5. Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Respublika Təhsil Şurasının funksiyalarını və əhəmiyyətini izah edin.
6. Dövlət və qeyri-dövlət maliyyə mənbələrinin təhsil infrastrukturunun inkişafındakı rolunu qiymətləndirin.
7. Ümumtəhsil və ali təhsil sahəsində aparılmış əsas struktur dəyişikliklərini müqayisəli şəkildə təqdim edin.
8. Xarici ölkələrdə təhsil alan gənclərin milli kadr potensialının formalaşmasındakı rolunu şərh edin.
9. Heydər Əliyev dövründə müəllim əməyinin stimullaşdırılması üçün atılmış addımları sosial siyasət kontekstində dəyərləndirin.
10. Ali təhsildə ikipilləli (bakalavr və magistr) sistemə keçidin milli təhsil modelinə uyğunluğunu təhlil edin.
11. 1998-ci ildə keçirilmiş Azərbaycan müəllimlərinin XI Qurultayının təhsil siyasətində oynadığı rolu izah edin.
12. Dövlət dilinin təhsil sistemində tətbiqi ilə bağlı hüquqi sənədlərin siyasi və mədəni əhəmiyyətini şərh edin.
13. Heydər Əliyev dövründə tətbiq edilən pulsuz dərslik siyasətinin sosial nəticələrini təhlil edin.

14. Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasında qarşıya çıxan çağırış və imkanları sadalayın.
15. Heydər Əliyevin təhsil sahəsində liderliyini digər post-sovet liderləri ilə müqayisə edin.
16. "1993-2003-cü illər arasında aparılan təhsil islahatlarının milli kimlik və dövlətçilik ideologiyasına təsiri" mövzusunda 2000 sözlük tədqiqat işi hazırlayın.
17. Heydər Əliyev dövründə təhsil islahatlarını sosial ədalət və bərabər imkanlar baxımından qiymətləndirin.
18. "Milli təhsilin inkişafı üçün liderlik modeli" adlı konseptual sxem hazırlayın və Heydər Əliyevin liderlik modelini onun əsas komponentləri ilə izah edin.
19. Özünüzü 1999-cu ildə Təhsil Nazirliyində çalışan ekspert kimi təsəvvür edin və islahat proqramının qiymətləndirilməsi üçün hesabat tərtib edin.
20. 1993-2003-cü illər təhsil siyasətini BMT-nin Davamlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırın və əlaqə nöqtələrini göstərin.
21. "Ödənişli ali təhsilin tətbiqi: iqtisadi zərurət, yoxsa sosial bərabərsizlik?" mövzusunda seminar diskussiyası üçün arqumentlər hazırlayın.
22. 2000-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" sərəncamın məqsədlərini və real nəticələrini təhlil edin.
23. Müstəqil Azərbaycanın təhsil sistemi ilə Sovet dövründəki sistemin müqayisəsini aparın: struktur, məzmun, ideologiya və idarəetmə baxımından.
24. Təhsil sahəsində Heydər Əliyevin fəaliyyətinə dair 7 slayddan ibarət təqdimat hazırlayın. Burada statistik məlumatlar, foto və xəritələr də istifadə olunsun.

25. 1993-cü ildən etibarən təhsil işçilərinin əməkhaqlarının artırılması üçün imzalanmış sərəncamları tarixi ardıcıllıqla qeyd edin və onların müəllimlərin sosial statusuna təsirini qiymətləndirin.

## MÖVZU 10. 1993-2003-CÜ İLLƏRDƏ AMEA-NIN ELMİN İNKİŞAFI SAHƏSİNDƏ ƏLDƏ ETDİYİ NAİLİYYƏTLƏR

**Mövzu üzrə təlim nəticələri:**

*MTN 1. 1993-2001-ci illərdə AMEA-nın elmi müəssisələrində aparılmış islahatları və bu dövrdə həyata keçirilmiş elmi proqramları müəyyən edir, onların konkret tətbiq sahələrini və nəticələrini faktlarla izah edir.*

*MTN 2. AMEA-nın maddi-texniki bazasının gücləndirilməsi, elmi-tədqiqat institutlarının fəaliyyətinin səmərəliliyinin artırılması və gənc alimlərin elmi fəaliyyətə cəlbi sahəsində görülən tədbirləri təhlil edir.*

*MTN 3. 1993-2001-ci illərdə elmi sistemdə aparılan struktur dəyişiklikləri və elmi prioritetlərin müəyyənləşdirilməsi əsasında müasir dövr üçün elmin idarəolunması və inkişafı modelini formalaşdırır.*

*MTN 4. Heydər Əliyevin elmi inkişaf prioritetlərinə uyğun olaraq AMEA-nın əldə etdiyi nailiyyətlərin Azərbaycan elminin beynəlxalq əlaqələrinin güclənməsinə, fundamental və tətbiqi tədqiqatların artmasına və milli innovasiya sisteminin əsaslarının qoyulmasına verdiyi töhfəni obyektiv şəkildə qiymətləndirir.*

1990-cı illərin əvvəlləri Azərbaycanın ictimai-siyasi, sosial və iqtisadi həyatında olduğu kimi, elmi mühitində də böhran və qeyri-sabitlik dövrü olmuşdur. SSRİ-nin dağılması ilə müşayiət olunan siyasi transformasiyalar, iqtisadi tənəzzül, idarəetmədəki səriştəsizlik və normativ-hüquqi bazadakı boşluqlar nəticəsində ölkədə elmi fəaliyyətin təşkili və idarə olunması sahə-

sində ciddi problemlər meydana çıxmışdır. Sovet dövründə mərkəzləşdirilmiş sistemin dayaqları üzərində qurulmuş elmi idarəetmə strukturları bu yeni reallıqlara cavab verməkdə aciz qalırdı. Elmi müəssisələr maddi-texniki cəhətdən zəifləyir, elmi kadrların fəaliyyəti təşviq olunmur, gənclərin elmə marağı azalır, elmi tədqiqatların nəticələri isə istehsalatla əlaqələndirilə bilmirdi.

Bu çətinliklərin dərindən fərqində olan Heydər Əliyev, hələ Azərbaycan Respublikasının Prezidenti seçilməmişdən əvvəl belə, elmin inkişafı məsələsinə xüsusi diqqət yetirirdi. O, 1990-cı illərin əvvəllərində müxtəlif tribunlardan çıxışlarında elmi idarəetmədəki problemləri tənqid edərək, konkret faktlara əsaslanan analitik mövqe nümayiş etdirirdi. Məsələn, bir plenum iclasında etdiyi çıxışda o, elmi idarələrin fəaliyyətindəki struktur və məzmun nöqsanlarını bu şəkildə ifadə etmişdir:

"Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar qalmaqdadır. Elmlər Akademiyası və bir sıra sahəvi elmi müəssisələr elmi-texniki tərəqqinin sürətləndirilməsi və əldə edilən nəticələrin istehsalatda tətbiqi istiqamətində yetərincə əzmkarlıq göstərmirlər. Dissertasiyaların əksəriyyəti elmi-nəzəri səviyyəyə cavab vermir, aspiranturada vəziyyət qənaətbəxş deyil. Alimlik dərəcəsi alanlar arasında müxtəlif dövlət idarələrinin rəhbər şəxslərinin sayı da kifayət qədərdir. Elmə yalnız bu sahəyə töhfə verməyə qadir olan insanlar cəlb olunmalıdır".

Bu çıxış bir neçə mühüm məsələyə diqqət çəkir. Birincisi, elmi fəaliyyətin keyfiyyəti və onun nəzəri səviyyəsi ilə bağlı narahatlıq ifadə olunur. İkincisi, elmlə məşğul olanların tərkibində qeyri-peşəkar elementlərin mövcudluğu qeyd edilir. Üçüncüsü isə, elmi nəticələrin tətbiqinə yönəlik mexanizmlərin zəifliyi tənqid edilir. Bütün bunlar, Ulu Öndərin elmi sistemə təkcə ida-

rəetmə obyektinə deyil, strateji dövlət prioritetinə çevriləcək sahə kimi yanaşdığını sübut edir.

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən dərhal sonra elmin vəziyyətinin yaxşılaşdırılması istiqamətində ilk mühüm addımlardan biri, 1993-cü il sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasında elmi ictimaiyyətlə keçirdiyi görüş idi. Bu görüş yalnız formal bir tədbir deyildi. O, dərin məzmuna malik simvolik bir hadisə kimi, dövlət başçısının elmə və elmi ictimaiyyətə göstərdiyi xüsusi münasibətin bariz ifadəsi idi. Görüş zamanı Ulu Öndər tədqiqatçı alimlərin problemlərini dinləmiş, onların təkliflərini dəyərləndirmiş və elmin strateji inkişaf istiqamətlərini müəyyənləşdirən fikirlərini səsləndirmişdir.

Bu görüş həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının statusunun və fəaliyyətinin yenidən nəzərdən keçirilməsi baxımından başlanğıc mərhələ olmuşdur. Ulu Öndərin təşəbbüsü ilə sonrakı illərdə AMEA-nın strukturu təkmilləşdirilmiş, sahəvi elmi müəssisələrin fəaliyyətinin səmərəliliyi artırılmış, elmi kadr hazırlığı sistemində mühüm dəyişikliklər edilmişdir. Xüsusilə aspirantura və doktorantura pillələrində təhsilin keyfiyyətinin artırılması, gənc alimlərin tədqiqatlara cəlb olunması və maddi stimullaşdırılması istiqamətində konkret proqramlar hazırlanmış və həyata keçirilmişdir.

Elmi kadrların stimullaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsindən AMEA-nın və digər elmi qurumların maliyyələşdirilməsinə ayrılan vəsait artırılmış, elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazası tədricən yenilənmişdir. 1990-cı illərin sonlarından başlayaraq akademik institutların bir qismi beynəlxalq elmi layihələrə qoşulmuş, bu da Azərbaycan elminin beynəlxalq aləmə inteqrasiyası baxımından əhəmiyyətli addım olmuşdur.

Heydər Əliyev dövründə elmi sistemə yanaşma təkcə sahəvi idarəetmə çərçivəsində deyil, eyni zamanda milli inkişaf strategiyasının ayrılmaz komponenti kimi formalaşmışdır. Elm və təhsil bir-biri ilə əlaqəli və qarşılıqlı təsirə malik sahələr kimi qiymətləndirilmiş, bu iki sistemin inteqrasiyası və qarşılıqlı dəstəyi təmin olunmuşdur. Elmi fəaliyyətin məzmun baxımından keyfiyyətinin yüksəldilməsi, elmi nəticələrin tətbiqi mexanizmlərinin qurulması və elmi mühitin demokratikləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər Ulu Öndərin Azərbaycanda bilik və innovasiya əsaslı cəmiyyətin təməlini qoymaq niyyətindən xəbər verirdi.

1990-cı illərin ortalarında ölkədə yaşanan iqtisadi çətinliklər, institusional böhran və dövlət idarəçiliyində müşahidə olunan qeyri-müəyyənliklər fonunda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) fəaliyyəti ilə bağlı müxtəlif şayiələr və narahatlıqlar yayılmışdı. Həmin dövrdə Elmlər Akademiyasının ləğv olunacağı, funksiyalarının digər dövlət qurumları arasında bölüşdürüləcəyi ilə bağlı fikirlər cəmiyyətdə geniş müzakirələrə səbəb olmuşdu. Lakin Ulu Öndər Heydər Əliyevin uzaqgörən və milli mənafelərə əsaslanan siyasi mövqeyi bu məsələyə qəti və prinsipial münasibətin formalaşmasını təmin etdi.

1997-ci il yanvarın 31-də Prezident Heydər Əliyev AMEA-nın rəhbərliyi və tanınmış alimlərlə keçirdiyi görüş zamanı elmi qurumun gələcək inkişaf perspektivləri ilə bağlı əhəmiyyətli mesajlar verdi. Bu görüşdə dövlət başçısı bir daha vurğuladı ki, Elmlər Akademiyası Azərbaycanın elmi-texniki potensialının əsas dayağıdır və onun müstəqil fəaliyyətinin qorunması strateji əhəmiyyət daşıyır. Prezident çıxışında elm sahəsində islahatların vacibliyini qeyd edərək, bu istiqamətdə kompleks yanaşma və ardıcıl fəaliyyət proqramının həyata keçirilməsinin zəruriliyini bəyan etdi. Beləliklə, Elmlər Akademiyasının ləğvi

ilə bağlı bütün müzakirələrə son qoyuldu və onun fəaliyyətinin gücləndirilməsi istiqamətində yeni mərhələyə start verildi.

Azərbaycan elminə verilən yüksək siyasi və ictimai dəyərin növbəti təzahürü 15 may 2001-ci il tarixində Prezident Heydər Əliyevin imzaladığı fərmanla Elmlər Akademiyasına "Milli" statusunun verilməsi oldu. Bu qərar təkcə ad dəyişikliyi deyildi; əslində, bu fərmanla Azərbaycan elminin dövlət siyasətindəki prioritet rolu bir daha təsdiqləndi və akademiyanın beynəlxalq nüfuzu artırıldı. Həmin fərmanla yanaşı, akademiyanın həqiqi və müxbir üzvlərinin sayı artırıldı, 2001-ci ilin iyun ayında genişmiqyaslı seçkilər təşkil olundu və elmi ictimaiyyətin təmsilçilik imkanları genişləndirildi.

Sözügedən dövrdə dövlətin elmi mühitə göstərdiyi dəstək yalnız institusional səviyyə ilə məhdudlaşmadı. Alimlərin sosial təminat məsələlərinə də diqqət yetirildi. Prezidentin təşəbbüsü ilə AMEA əməkdaşlarının əməkhaqları artırıldı, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan kadrların maddi rifahı yaxşılaşdırıldı. Bu addımlar elmi fəaliyyəti stimullaşdırmaqla yanaşı, gənc nəslin elmə marağının artırılmasına da mühüm təsir göstərdi.

Təhsil sisteminin digər vacib istiqamətlərindən biri ümumtəhsil məktəblərinin əsaslı təmiri və maddi-texniki təchizatının əldə edilməsidir. Məlumdur ki, əvvəllər məktəblərin əsaslı təmirinə hər bir sahənin yerli büdcə vəsaiti hesabına nail olmaq mümkün idi. Hər il bu məqsədlə dövlət büdcəsindən vəsait ayrılsa da, təmir effektiv həyata keçirilmir, nəticədə məktəb binaları təhsil üçün yararsız olaraq qalırdı. Bu isə təhsilin keyfiyyətinə mənfi təsir edən əsas problemlərdən biri idi.

Azərbaycan hökuməti 2006-cı ildən başlayaraq məktəblərin əsaslı təmirinə xüsusi diqqət ayrılmışdır. Bu tədbir təhsil infrastrukturunun inkişafı sahəsində dönüş nöqtəsi olmuş, mərkəzləşdirilmiş idarəetmə və avadanlıq quraşdırılması ilə təmir

işlərinin keyfiyyəti və sürəti xeyli artmış, nəzarət mexanizmləri gücləndirilmişdir.

2006–2009-cu illər ərzində bu strategiyanın uğurlu icrası nəticəsində ölkə üzrə 550-dən çox ümumtəhsil məktəbi əsaslı təmir edilmiş və müasir tədris avadanlıqları ilə təchiz edilmişdir. Təmir işləri məktəblərdə sağlam və təhlükəsiz tədris mühitinin təmin edilməsinə, həmçinin tədris prosesinə uyğun infrastrukturların yaradılmasına şərait yaratmışdır. Eləcə də təmir olunan məktəblərdə standartlara cavab verən laboratoriyalar, idman zalları və digər əlavə tədris infrastrukturları quraşdırılmışdır ki, bu da təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərmişdir.

Azərbaycanda təhsil sisteminin formalaşmasında dövlət səviyyəsində həyata keçirilən infrastruktur layihələrinin rolu böyük olmuşdur. Bu layihələr həm təhsilin keyfiyyətinin, həm də əlçatanlığının artırılmasına davamlı zəmin yaratmışdır. Prezident İlham Əliyevin 2008–2012-ci illər üzrə imzaladığı “Azərbaycan Respublikasında təhsilin inkişafı və davamlı inkişaf Dövlət Proqramı” çərçivəsində təhsil müəssisələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün genişmiqyaslı layihələr icra edilmişdir.

Proqramın əsas hədəflərindən biri 390 yeni məktəb binasının inşası, 540 məktəb üçün əlavə korpusların tikintisi və 900 məktəbin əsaslı təmirinin həyata keçirilməsi olmuşdur. Bu layihələrdə çoxnövbəli təhsil və beşgünlük dərs sisteminin tətbiqi təmin edilmiş, bu da tədrisin keyfiyyətinin yüksəldilməsi və təhsil şəraitinin əlçatanlığının artırılması baxımından mühüm addım olmuşdur. Məktəb binalarının müasir standartlara uyğun qurulması və təkmilləşdirilməsi, həmçinin inklüziv təhsilin təmin olunması, təhsil prosesinin inkişafına və bütün şagirdlər üçün bərabər imkanların yaradılmasına şərait yaratmışdır.

Bununla yanaşı, ümumtəhsil məktəblərinin maddi-texniki təminatı, yəni avadanlıqla təchizatı uzun müddət ərzində ciddi problemlərlə üzləşmişdir. Məktəblərin avadanlıqla təmin edilməsi və əsaslı təmiri üçün əsasən yerli büdcə vəsaiti istifadə olunmuş, lakin vəsaitin məhdudluğu və səmərəsiz idarə edilməsi prosesin keyfiyyətinə təsir göstərmişdir. Nəticədə, təhsil prosesində istifadə olunan avadanlıqların müasirliyi və keyfiyyəti baxımından müəyyən çatışmazlıqlar meydana çıxmışdır.

Bu ehtiyacların ödənilməsi məqsədilə Təhsil Nazirliyi tərəfindən 2005–2009-cu illəri əhatə edən "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı" hazırlanmışdır. Proqramın əsas məqsədi məktəblərin saxlanması və maddi-texniki təminatının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək olmuşdur. Bu proqram çərçivəsində Təhsil Nazirliyi ümumtəhsil məktəblərinə standartlara cavab verən, yüksək keyfiyyətli təhsil avadanlıqları təqdim etmişdir. Proqram vasitəsilə məktəblərdə əsas avadanlıqlar: təhsil masaları, yazı lövhələri, müəllim masaları və stulları təmin edilmişdir.

Bundan əlavə, proqramın icrası çərçivəsində yalnız yeni məktəb binalarının tikintisi və əsaslı təmir işləri həyata keçirilmiş deyil, eyni zamanda 708 məktəb və 10 rayon təhsil şöbəsi müasir avadanlıqlarla təchiz edilmişdir. Bu tədbir ölkə üzrə təhsil müəssisələrinin maddi-texniki potensialının yüksəldilməsi və keyfiyyətinin artırılması baxımından mühüm addım olmuşdur.

Beləliklə, "Yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" və "Təhsilin İnkişaf Proqramı" Azərbaycanda təhsil infrastrukturunun yenilənməsi və yaradılması prosesində əsas strateji rol oynamış, ölkənin təhsil sistemində dayanıqlı inkişafın təmin edilməsinə təkan vermişdir. Aparılan ətraflı təhlillər və qiymətləndirmələr göstərir ki, 2008-ci ilin dövlət büdcəsi

çərçivəsində bu proqramın icrası effektiv nəticələr vermişdir. Belə ki, təhsildə müasir avadanlıqların və laboratoriya şəraitinin təmin edilməsi tədris prosesinin keyfiyyətinə birbaşa təsir göstərmişdir.

Mövcud vəziyyətin təhlili göstərir ki, respublikanın ümumtəhsil məktəblərinin təxminən 40,4%-ində fizika kabinetləri, 55,4%-ində kimya kabinetləri və 55,9%-ində biologiya kabinetləri yoxdur. Bu çatışmazlıqlar müasir texnologiyalardan istifadənin məhdudlaşmasına səbəb olur və təcrübə əsaslı biliklərin əldə edilməsini çətinləşdirir. Laboratoriya şəraitinin zəifliyi, həmçinin elmi-tədqiqat bacarıqlarının formalaş- dırılmasına mənfi təsir göstərir və ümumilikdə təhsil sisteminin effektivliyini azaldır.

Buna görə də, məktəblərin maddi-texniki təchizatının müasir tələblərə cavab verməsi və fizika, kimya və biologiya fənləri üzrə tədris laboratoriyaları ilə təmin edilməsi zəruri olmuşdur. Bu proqram çərçivəsində təhsil müəssisələrinin laboratoriya imkanlarının artırılması, yeni avadanlıqların alınması və mövcud avadanlıqların yenilənməsi təmin edilmişdir.

Məhz bu ehtiyacların qarşılanması məqsədilə müstəqillik illərində Azərbaycanda ilk dəfə olaraq 19 məktəb müasir standartlara cavab verən kimya və fizika laboratoriyaları ilə təchiz edilmişdir. Bu təşəbbüs davam etdirilmiş və nəticədə ölkənin bütün ümumtəhsil məktəblərində tədris laboratoriyalarının mövcudluğu təmin edilmiş, elmi təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaradılmışdır.

Nəticə olaraq, maddi-texniki bazanın müasirləşdirilməsi və tədris laboratoriyalarının qurulması təhsil sisteminin inkişafı üçün prioritet vəzifələrdən biri olaraq qalmaqdadır. Bu, yalnız yüksək səviyyəli kadrların hazırlanması və ölkənin elmi potensialının inkişafı üçün deyil, həm də mövcud intellektual səviyyə-

nin artırılması və tədris prosesinin keyfiyyətinin yüksəldilməsi üçün vacibdir.

**Sual və tapşırıqlar:**

1. 1970-80-ci illərdə Heydər Əliyevin təhsilə diqqəti və qayğısı nəticəsində respublikada məktəb tikintisi, ümumtəhsil məktəblərində təhsil şəraitinin yaxşılaşdırılması istiqamətində mühim addımlar atılmışdır. Bu istiqamətində görülən işləri araşdırın.
2. 1982-1987 və 1993-cü ilin ikinci yarısı - 2003-cü illər ərzində ümumtəhsil sahə-sində maddi-texniki bazanın, infrastruktrun yaxşılaşdırılması istiqamətində görülən işlərin siyahısı tərtib edin.
3. Statistikaya görə 1998-2002-ci illərdə ümumilikdə 139 yeni məktəb binası inşa edilmişdir. Mənbələri araşdırmaqla cədvəli davam etdirin.

| İllər | İnşa edilən məktəblərin sayı | Şagird yerlərinin sayı |
|---|---|---|
| 1998 | | |

4. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin edilməsinə dair proqramın (2003–2007-ci illər) həyata keçirilməsi haqqında" sənəd, təhsil sahəsində davamlı islahatların icrasına nə kimi töhfələr vermişdir?
5. 1979-cu ildə orta ümumtəhsil məktəbləri şəbəkəsinin 1965-ci ilə nisbətdə 3 dəfə yüksəlməsinin nəticələrini araşdırın.
6. 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında ümummilli lider Heydər Əliyevin məktəb tikintisinə, maddi-

tədris bazasının möhkəmləndirilməsinə diqqətin artırılması barədə çağırışlarının nəticələrini araşdırırn

7. 2005–2009-cu illəri əhatə edən dövlət proqramları əsasında məktəblərin avadanlıqla təchiz edilməsi sahəsində hansı əsas işlər görülmüşdür?
8. Yeni təmir edilmiş məktəb laboratoriyalarının daha effektiv istifadəsi üçün hansı tədbirlərin görülməsini tövsiyyə edərdiniz?
9. Təhsil Nazirliyi tərəfindən həyata keçirilmiş proqramların məqsəd və nəticələrini təhlil edin.
10. Ümumtəhsil məktəblərində beşgünlük iş rejiminə keçidin təhsilin effektivliyinə təsirini faktlara əsaslanaraq qiymətləndirin.

## MÖVZU 15. HEYDƏR ƏLİYEVİN SİYSƏTİNİN DAVAMÇISI İLHAM ƏLİYEVİN AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINADA HƏYATA KEÇİRDİYİ SİYASƏT

**Mövzu üzrə təlim nəticələri:**

*MTN 1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyevin təhsil strategiyasını necə davam etdirdiyini təhlil edir, bu siyasətin təhsil sisteminin modernləşdirilməsinə təsirini izah edir.*

*MTN 2. 2003-cü ildən sonra ölkədə təhsil sahəsində inkişaf islahatları (milli kurikulum, infrastruktur layihələri, rəqəmsallaşma, müəllimlərin inkişafı və s.) faktlara əsaslanaraq təqdim edir.*

*MTN 3. İlham Əliyev tərəfindən qəbul edilmiş təhsil proqramları və hüquqi-normativ sənədləri ("Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası") araşdırır, onların məqsədləri və nəticələrini qiymətləndirir.*

*MTN 4. Təhsildə dövlət siyasəti ilə sosial-iqtisadi inkişaf arasında əlaqəni qiymətləndirir və bu siyasəti gələcək perspektivləri ilə əsaslandırılmış şəkildə əlaqələndirir.*

Azərbaycan Respublikasının müasir təhsil sisteminin formalaşmasında və inkişafında Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü siyasətinin mühüm rol u hər addımda görünür. Onun müəyyən etdiyi təhsil strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən sistemli və uzaqgörən yanaşma ilə uğurla davam etdirilməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi altında təhsil sahəsi yeni mərhələyə qədəm qoymuş, informasiya və texnologiya tələblərinə uyğun strukturlaşdırılmışdır.

Xüsusilə, Prezident İlham Əliyevin 21 avqust 2004-cü il tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin olunmasına dair Proqram (2005–2007-ci illər)" bu siyasətin mühüm nailiyyətlərindən biri olmuşdur. Proqramın əsas məqsədi ümumtəhsil məktəblərinin müasir texnologiyalarla təchizatını təmin etmək, təhsilin keyfiyyətini artırmaq və informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqini genişləndirmək idi. Bu strateji sənəd təhsil sistemində texnoloji boşluqların aradan qaldırılmasına və müasir bilik və bacarıqlara malik insan kapitalının formalaşdırılmasına xidmət etmişdir.

Nəticələr göstərir ki, ölkə üzrə məktəblərin çoxu kompüter və digər İKT ilə təmin edilmişdir. Bundan əlavə, minlərlə müəllim İKT sahəsində treninqlərdən keçmiş və peşəkarlığını artırmışdır. Bu tədbirlər təhsilin rəqəmsallaşdırılması prosesinin genişlənməsinə, həmçinin tədris və idarəetmədə müasir texnologiyalardan daha səmərəli istifadə olunmasına imkan yaratmışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən dövlət proqramları və layihələr yalnız təhsil sektorunu deyil, həm də ölkənin bütün dövlət idarəetmə sistemini təkmilləşdirmişdir. Qısa müddət ərzində Azərbaycan regionun aparıcı dövlətlərindən birinə çevrilmiş, 27 illik müstəqillik tarixində "kosmik dövlətlər" ailəsinə daxil olmaq kimi beynəlxalq nailiyyətlər qazanmışdır. Bütün bu uğurlar gənc nəsilin müasir tələblərə uyğun təhsil alması, yüksək vətənpərvərlik ruhunda yetişməsi və Azərbaycanın intellektual potensialının artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan xalqı üçün böyük şərəf və etimad mənbəyidir ki, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsini və təhsilin inkişaf strategiyasını uğurla da-

vam etdirir. Bu siyasi kursun əsas istiqamətlərindən biri təhsilin modernləşdirilməsi, innovativ texnologiyaların tətbiqi və gələcək nəsillərin intellektual potensialının yüksəldilməsi ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin təhsil sahəsində əsasını qoyduğu humanist və dəyərlərə əsaslanan dövlət siyasəti bu gün də Prezident İlham Əliyev tərəfindən sistemli şəkildə həyata keçirilir. Xüsusilə müəllimlərin fəaliyyətinin stimullaşdırılması, onların cəmiyyətdəki rolunun qiymətləndirilməsi və maddi-sosial rifahının artırılması sahəsində atılan addımlar bu siyasətin prioritet istiqamətləridir. Hər il müəllimlərin peşə bayramının qeyd edilməsi, yeni dərs ilinin başlanması ilə bağlı dövlət tədbirləri və ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin yubileylərinin yüksək səviyyədə keçirilməsi bu sahəyə dövlət diqqətinin bariz göstəricisidir.

Prezident İlham Əliyevin təhsil sahəsində həyata keçirdiyi islahatlar bütün ölkəni əhatə edir. XXI əsrin ilk illərindən etibarən təhsil sistemində kompleks və sistemli tədbirlər həyata keçirilmişdir. Qısa müddət ərzində ölkə üzrə bir çox yeni məktəb binaları inşa edilmiş, mövcud təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilmiş, əsaslı şəkildə təmir edilmiş və müasir avadanlıqlarla təchiz edilmişdir. Bu proses ən ucqar bölgələrdə də təhsilin keyfiyyətinin yüksəlməsinə və regional fərqlərin aradan qaldırılmasına şərait yaratmışdır.

Bütün orta təhsil müəssisələrində internetə qoşulmuş kompüter siniflərinin yaradılması, müəllimlərin informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə biliklərinin artırılması məqsədilə keçirilən treninqlər və yeni tədris vasitələrinin tətbiqi təhsilin yenilənməsinə və keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Əldə olunan nəticələr göstərir ki, məktəb təhsili sahəsində yalnız infrastruktur sahəsində deyil, həm də pedaqoji

metodologiya baxımından ciddi dəyişikliklər baş verir. Müasir təhsilin əsas məqsədi savadlı, sosial məsuliyyətli, milli və ümumbəşəri dəyərləri mənimsəmiş vətəndaşların formalaşdırılmasıdır. Bu kontekstdə məktəblərin inkişafı dövlət siyasətində prioritet istiqamət kimi müəyyən edilmişdir.

Dərs ilinin başlanması ərəfəsində Prezident İlham Əliyevin əsaslı təmirdən çıxmış orta ümumtəhsil məktəblərinə səfəri, yaradılan şəraitin və müəllim-şagird kollektivlərinin nümayişi dövlət vətəndaşları ilə münasibətlərin praktiki təzahürüdür. Bu sahəyə ayrılan diqqət və investisiyalar artıq öz bəhrəsini verməkdədir. Dövlət İmtahan Mərkəzinin həyata keçirdiyi imtahanların nəticələri, abituriyentlərin yüksək nəticələr əldə etməsi (600 baldan yuxarı nəticələr) və Azərbaycan məktəblilərinin beynəlxalq fənn olimpiadalarında qazandığı uğurlar təhsil sisteminin dünya standartlarına uyğun olaraq inkişaf etdiyini göstərir.

Peşə təhsilində yeni yanaşmanın əsas məqsədi gəncləri əmək bazarının tələblərinə uyğun ixtisaslara yönəltmək və onları rəqabətədavamlı mütəxəssis kimi formalaşdırmaqdır. Bu məqsədlə qəbul edilmiş normativ sənədlər, kurikulum əsaslı ixtisas proqramları və ikili təhsil elementlərinin tətbiqi peşə təhsilini həm inkişaf etdirici, həm də funksional sahəyə çevirir.

Prezident İlham Əliyevin təhsilin inkişafı istiqamətində dövlət strategiyası bu sahənin ideoloji əsaslarını formalaşdırır. Onun çıxışlarında qeyd edildiyi kimi: “Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir”. Bu strateji məqsədin həyata keçirilməsində müəllim əməyinin stimullaşdırılması mühüm rol oynayır. Müəllimlərin işgüzarlıq səviyyəsinin artırılması, ixtisasartırma və sertifikatlaşdırma mexanizmlərinin tətbiqi təhsildə insan resurslarının keyfiyyətini yüksəldir.

Nəticə etibarilə, Azərbaycanda təhsil siyasəti həm struktur, həm də məzmun baxımından davamlı yenilənir. Aparılan islahatların əsas məqsədi vətəndaşın intellektual və mənəvi inkişafını təmin etməkdir. Bu, yalnız məqsədyönlü dövlət siyasəti, müəllim əməyinə verilən yüksək dəyər və müasir təhsil mühitinin mövcudluğu ilə mümkündür.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən təhsil islahatları bütün ərazilərdə təhsil imkanlarının bərabər şəkildə yaradılmasını və regional inkişafın sürətlənməsini təmin edir. Xüsusilə kənd və ucqar bölgələrdə yeni məktəb binalarının və tədris mərkəzlərinin tikilməsi, mövcud təhsil müəssisələrinin əsaslı təmir-bərpa işlərinin aparılması və sinif otaqlarının müasir avadanlıqlarla təchiz edilməsi təhsil infrastrukturunun keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Maddi-texniki bazanın təkmilləşdirilməsi və yeniliklərin tətbiqi üçün yaradılan şərait həm müəllimlərin peşəkarlıq səviyyəsini artırır, həm də təhsilin dayanıqlılığını təmin edir. 2011-ci ildən ucqar ərazilərdə pedaqoji fəaliyyətə başlayan gənc müəllimlər üçün həvəsləndirici tədbirlər həyata keçirilmiş, 4000-dən artıq müəllim bu bölgələrə göndərilmiş və vakant yerlərin doldurulması ilə tədrisin keyfiyyətinə töhfə verilmişdir.

Eyni zamanda, Təhsil Nazirliyi gənclərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə müxtəlif sosial təminat tədbirləri hazırlamışdır. Bu tədbirlər çərçivəsində ucqar kənd müəllimlərinə torpaq sahələrinin verilməsi və ipoteka kreditlərinin tətbiqi kimi imkanlar yaradılmış, nəticədə müəllim peşəsinin nüfuzu yüksəlmiş və bölgələrdə kadr təminatı yaxşılaşdırılmışdır. Bu sosial yönlü siyasət peşəkar müəllim potensialının inkişafı və təhsilin regional ədalətli paylanmasına mühüm töhfə vermişdir.

Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı və modernləş-dirilməsi sahəsində son illərdə əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən proqramlar çərçivəsində 3500-dən artıq ümumtəhsil müəssisəsi ya yeni inşa edilmiş, ya da əsaslı şəkildə təmir edilərək istifadəyə verilmişdir. Bu tədbirlər ali və orta təhsil sistemlərinin inkişafına, təhsilin maddi-texniki bazasının gücləndirilməsinə və ümumi keyfiyyət göstəricilərinin yüksəldilməsinə xidmət edir.

Ali təhsil sahəsində də ciddi islahatlar həyata keçirilmişdir. Yeni ali təhsil müəssisələri binalar və tədris korpusları inşa edilmiş, mövcud ali məktəblər müasir standartlara uyğunlaşdırılmışdır. Bu tədbirlər ali təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Regionlarda təhsil infrastrukturunun yaxşılaşdırılması məqsədilə modul tipli məktəblərin quraşdırılması istiqamətində də işlər görülmüşdür. Bu məktəb layihələri xüsusilə ucqar və çətin coğrafi ərazilərdə qəzalı məktəblərin əvəzlənməsi baxımından mühüm əhəmiyyətə malikdir. Modul tipli məktəblərin tətbiqinə 2016-cı ildən başlanılmış və müxtəlif bölgələrdə onlarla yeni məktəb istifadəyə verilmişdir. 2022-ci ildə Prezidentin müvafiq Sərəncamı ilə modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi üçün Elm və Təhsil Nazirliyinə vəsait ayrılmış, bir sıra rayonlarda müxtəlif tutumlu (56, 80, 96, 132 şagird yerlik) modul tipli məktəblərin quraşdırılması nəzərdə tutulmuşdur. Bu təşəbbüs təhsilin əlçatanlığının təmin olunması istiqamətində atılan mühim addımlardandır.

Eyni zamanda, təhsil sistemində keyfiyyətin yüksəldilməsi sahəsində davamlı inkişaf müşahidə olunur. Beynəlxalq və yerli təhsil standartlarına uyğun olaraq aparılan tədbirlər, qəbul imtahanları və olimpiadalarda əldə edilən uğurlar bunun bariz

göstəricisidir. Təhsilin keyfiyyətinin əsas amillərindən biri müəllimlərin yüksək hazırlıq səviyyəsidir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, müəllimlərin metodiki hazırlığı, pedaqoji yanaşmaları və etik standartlara uyğun fəaliyyəti şagirdlərin bilik və bacarıqlarının formalaşmasında həlledici rol oynayır.

Nəticə etibarilə, ölkənin təhsil siyasəti regionlarda həyata keçirilən tədbirlər və inklüziv xarakter daşıyan proqramlarla inkişaf etdirilir. Dövlət tərəfindən infrastruktur layihələri və sosial dəstək proqramlarının həyata keçirilməsi, müəllim fəaliyyətinin stimullaşdırılması və peşəkar imkanların genişləndirilməsi Azər-baycanın gələcək inkişafı üçün savadlı, bilikli və vətənpərvər nəsil yetişdirməyə xidmət edir. Son illərdə müəllim peşəsinin ictimai nüfuzunun artırılması və təhsilin inkişaf etdirilməsi istiqamətində dövlət proqramları və islahatlar uğurla həyata keçirilir. Təhsil sistemində sosial strukturların gücləndirilməsi, pedaqoji kadrların müdafiəsi, əməkhaqlarının yüksəldilməsi və ictimai nüfuzunun bərpası prioritet vəzifələr sırasında yer alır.

Müəllimlərin bilik və bacarıqlarının obyektiv şəkildə ölçülməsini təmin edən və onların əməkhaqqının fəaliyyət göstəricilərinə əsasən hesablanmasına imkan yaradan diaqnostik qiymətləndirmə tətbiq olunmuşdur. Bu yanaşma nəticəsində əməkhaqqı yüksək olan, peşəkarlığı artırılmış müəllimlərin orta maaşı təxminən iki dəfə yüksəlmiş, həmçinin müəllim əməyinin stimullaşdırılması daha məqsədyönlü xarakter almışdır. Sonrakı dövrdə müəllimlərin əməyinin səmərəli qiymətləndirilməsi müəllimlərin sertifikasiyası prosesinin tətbiqinə gətirib çıxarmışdır.

Əvvəlki illərlə müqayisədə pedaqoji ixtisaslara maraqda əhəmiyyətli artım müşahidə olunur. Əgər bir neçə il əvvəl müəllim olmaq istəyənlərin sayı məhdud idisə, son dövrlərdə abituriyentlərin və müəllim ixtisasına yiyələnmək istəyənlərin sayı

əhəmiyyətli dərəcədə artmışdır. Bu artımın əsas səbəbləri dövlət səviyyəsində müəllimlərin maddi rifahının yaxşılaşdırılması, peşənin ictimai nüfuzunun yüksəldilməsi və iş şəraitinin təkmilləşdirilməsidir.

Müasir dövrdə müəllimlər yenilənmiş tələblərə cavab verir, əsaslı təmir edilmiş və müasir avadanlıqlarla təmin olunmuş məktəblərdə fəaliyyət göstərirlər. Belə şərait tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə və müəllimlərin peşəkar inkişafına şərait yaradır.

Prezident İlham Əliyev hər il yeni tədris ilinin başlanması ərəfəsində məktəblərdə aparılan islahatları diqqətlə izləyir, yeni təhsil müəssisələrinin açılışında iştirak edir və Bilik Günü tədbirlərini həyata keçirir. Prezidentin çıxışlarında vurğulandığı kimi, məktəb yalnız təhsil məkanı deyil, həm də müəllimin iş yeridir və burada yaradılan şərait onun fəaliyyət keyfiyyətinə birbaşa təsir göstərir. Bu yanaşma təhsilin inkişafında müəllim amilinin əhəmiyyətini bir daha vurğulayır.

Azərbaycanda yaradılmış müasir infrastrukturun mühüm nümunələrindən biri Heydər Əliyev Müasir Təhsil Kompleksinin yeni binasının istifadəyə verilməsidir. 2001-ci ildən fəaliyyət göstərən bu təhsil müəssisəsi ölkənin ilk özəl və alternativ təhsil modellərindən biri kimi diqqət çəkir. Kompleksin artan ictimai maraq və genişlənən kontingenti yeni, müasir binanın inşasını zəruri etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak etmiş, kompleksin yüksək standartlara cavab verən infrastrukturu ilə tanış olmuşlar.

Yeni kompleks binası müasir şəhərsalma planlarına uyğun inşa edilmiş, tədrisin təşkili üçün bütün texniki və madditexniki imkanlarla təmin edilmişdir. Burada yaradılan şərait yal-

nız paytaxt üçün deyil, eyni zamanda regionlarda təhsilin stimullaşdırıcı model nümunəsi kimi qiymətləndirilə bilər.

Bu tədbirlər müəllim peşəsinin nüfuzunun artırılması, iş şəraitinin yaxşılaşdırılması və maddi-mənəvi stimullaşdırma mexanizmlərinin tətbiqi ilə təhsilin keyfiyyətinə birbaşa təsir göstərir. Eyni zamanda, pedaqoji peşəyə marağı artırır və təhsilalanların daha bilikli, layihəkar və yaradıcı şəraitdə formalaşmasına şərait yaradır. Müasir Azərbaycan müəllimi yalnız bilik sahibi olmaqla kifayətlənmir, həm də ölkənin intellektual potensialını formalaşdıran əsas sosial institutun daşıyıcısı kimi çıxış edir.

2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) keçirilən illik hesabat tədbiri elmi mühitdə mühüm hadisə kimi qiymətləndirilmişdir. Tədbirdə Prezident İlham Əliyevin elmi fəaliyyətə və Azərbaycan elminin inkişafına göstərdiyi diqqət və qayğı bariz şəkildə nümayiş olunmuşdur. Prezidentin çıxışında elmin gələcək inkişaf istiqamətləri ilə bağlı irəli sürdüyü strategiyalar, elmi kadr potensialının artırılması və təhsilin müasirləşdirilməsi vəzifələrini dəqiq müəyyən etmişdir.

Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) maddi-texniki təchizatının bərpası sahəsində mühüm addımlar atılmışdır. Akademiyanın əsas binasında tam həlli təmir və yenidənqurma işləri aparılmış, müasir standartlara cavab verən infrastruktur formalaşdırılmışdır. Həmçinin digər elmi müəssisələrin yerləşdiyi binalarda da texniki yenilənmə işləri davam etdirilmişdir. Bu tədbirlər nəticəsində AMEA-nın iş şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış, akademiyanın bütün ehtiyaclarının dövlət dəstəyi hesabına təmin olunması və maddi-texniki bazasının davamlı gücləndirilməsi məqsəd kimi müəyyən edilmişdir.

Prezident İlham Əliyev vurğulamışdır ki, ölkənin inkişafı, intellektual potensialın yüksəldilməsi, innovasiya və elmi-texniki tərəqqi uğurlu dövlət siyasətinin həlledici amillərindəndir. Bu yanaşma Azərbaycanda elmin inkişafı üçün prioritet olaraq qəbul edilmiş və dövlət siyasətinin əsas prinsiplərindən biri kimi həyata keçirilir. Müasir dövlət quruculuğu yalnız elmi əsaslandırılmış siyasət əsasında mümkün ola bilər və Azərbaycan dövləti bu prinsipə sadiq qalaraq elmin inkişafını strateji prioritetlərdən biri kimi müəyyən etmişdir.

Azərbaycan Respublikasında elmi siyasətin sistemli formalaşdırılması 2009-cu ildə "Elmin İnkişafı üzrə Milli Strategiya"nın və 2010–2015-ci illər üçün Dövlət Proqramının qəbul edilməsi ilə daha da möhkəmlənmişdir. Bu sənədlər elmi fəaliyyətin müasir çağırışlara uyğunlaşdırılması və tədqiqatların keyfiyyətinin yüksəldilməsi məqsədini daşıyır. Elmin İnkişafı Fondu elmi tədqiqatların maliyyələşdirilməsində, işçilərin fəaliyyətinin stimullaşdırılmasında və müasir elmi avadanlıqların alınması, innovativ layihələrin dəstəklənməsi üçün elmi qrantların ayrılmasında əsas rol oynayır.

Azərbaycanda elmi potensialın formalaşmasında və beynəlxalq səviyyədə tanınmasında alimlərimizin mühüm rolu vardır. Tədqiqatçılar müxtəlif sahələrdə, xüsusilə təbiət elmləri, riyaziyyat, mühəndislik, tarix və arxeologiya üzrə həyata keçirilən işlər nəticəsində ölkəmizi beynəlxalq elmi jurnallarda çap olunan məqalələrlə layiqincə təmsil edirlər. Bu tədqiqatlar regional və qlobal elmi inkişafın diqqət mərkəzindədir və dünya elmi ilə inteqrasiyanı gücləndirməklə elmin praktik tətbiqini və Azərbaycanda elmi fəaliyyətin sürətli inkişafını təmin edir.

Prezident İlham Əliyevin rəhbərliyi altında formalaşdırılmış sistemli və məqsədyönlü siyasət nəticəsində elmin maddi-texniki, institusional və intellektual bazası gücləndirilmişdir.

AMEA-nın rolu həm elmi, həm də ictimai həyatda daha da artırılmışdır. Bu proses elmi potensialın bərpasına, gənc tədqiqatçıların yetişdirilməsinə və elmin iqtisadi inkişafda idarəedici qüvvəyə çevrilməsinə şərait yaratmışdır.

Müasir Azərbaycan Respublikasında hərbi və mülki təhsil sahələrinin inkişafı ölkənin strateji siyasətinin mühüm hissəsini təşkil edir. Prezident İlham Əliyev, ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olaraq, təhsil sisteminin gücləndirilməsi və modernləşdirilməsinə xüsusi diqqət ayırmışdır. Bu sahəyə göstərilən dövlət qayğısı Azərbaycan Silahlı Qüvvələrinin kadr hazırlığında yüksək keyfiyyətli nəticələr əldə olunmasına imkan vermişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən hərbi təhsil müəssisələrindən yalnız ikisinə - 2004-cü ildə Naxçıvan şəhə-rindəki Hərbi Liseyə və Azərbaycan Ali Hərbi Məktəbinə ümummilli lider Heydər Əliyevin adı verilmişdir. Bu addım yalnız rəmzi xarakter daşımır, həm də dövlətin hərbi təhsilə verdiyi yüksək önəmi və strateji yanaşmanı əks etdirir. Sözügedən müəssisələrdə təlim prosesi müasir standartlara uyğun qurulmuş, gənc zabitlərin və kursantların hərtərəfli hazırlanmasına imkan verən maddi-texniki baza formalaşdırılmışdır.

Mülki təhsil sahəsində də analoji yüksəliş müşahidə olunur. Xüsusilə mülki aviasiya sahəsində kadr hazırlığının bərpası istiqamətində atılan addımlar diqqətə-layiqdir. 1992-ci ildən fəaliyyət göstərən Azərbaycan Milli Aviasiya Akademiyası son illərdə əsaslı inkişafa qədəm qoymuşdur. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Akademiyanın yeni tədris korpusları, müasir yataqxana binaları, pilotların yüksək səviyyəli hazırlığına yönəlmiş trenajor mərkəzləri və elmi-tədqiqat sahələri formalaşdırılmışdır. Bu infrastruktur beynəlxalq standartlara

uyğun təlim-tədris mühiti yaratmaqla yüksək səviyyəli ixtisaslı kadrların hazırlanmasını təmin edir.

Təhsil Fondunun həyata keçirdiyi strateji layihələr təhsil infrastrukturunun əsaslı şəkildə yenilənməsinə, təlim-tərbiyə prosesinin modernləşdirilməsinə və gənc nəslin hərtərəfli inkişafına geniş imkanlar yaratmışdır. Fond çərçivəsində uğurla icra olunan “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində regionlarda yüzlərlə məktəb binası tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir. Həmçinin “İnternat məktəblərin inkişaf proqramı”, “Təhsilə dəstək” layihəsi və digər sosial yönlü proqramlar vasitəsilə təhsilə əlçatanlıq artırılmış və sosial qruplardan olan şagirdlərin təhsil imkanları genişləndirilmişdir.

Fondun fəaliyyəti, ümummilli lider Heydər Əliyevin elm və təhsilə verdiyi önəm və müasir Azərbaycan dövlətinin gələcək inkişafının bu sahələrin gücləndirilməsinə strateji baxışı ilə sıx bağlıdır. Bu yanaşma, eyni zamanda, vətənpərvərlik ruhunda formalaşan və milli-mənəvi dəyərlərə sadiq olan gənc nəslin yetişdirilməsinə yönəlmiş məqsədyönlü siyasətin davamıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və sistemli tədbirlər mülki təhsil sahəsinin inkişafına böyük töhfə verir və təhsil sistemini milli inkişaf strategiyasının mərkəzi istiqamətlərindən birinə çevirir. Bu proses nəticəsində gələcək intellektual potensialın inkişafı və qlobal çağırışlara cavabvermə qabiliyyəti təmin olunur. Eyni zamanda, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Azərbaycanın elm və təhsil sahəsinə misilsiz töhfələr vermişdir. Onun layihələri və təşəbbüsləri həm ictimai nümunə, həm də vətəndaşlıq məsuliyyəti və sarsılmaz vətənpərvərlik ruhunun göstəricisidir. Bu fəaliyyətlər Ulu Öndər Heydər Əliyevin təhsil sahəsində qoyduğu əsasların Prezident İlham

Əliyevin rəhbərliyi altında uğurla davam etdirildiyinin nümayişidir.

Heydər Əliyev Fondu fəaliyyətə başladığı gündən etibarən Azərbaycanın mədəni və humanitar sahələrində məqsədyönlü və genişmiqyaslı layihələr həyata keçirmiş, ölkənin sosial infrastrukturunun inkişafı və intellektual potensialının gücləndirilməsində aparıcı rol oynamışdır. Fondun təhsil sahəsində əsas məqsədi bu sahəni milli prioritet səviyyəsinə yüksəltmək və Azərbaycan təhsilini beynəlxalq standartlara uyğunlaşdırmaqdır.

Xüsusilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində həyata keçirilən tədbirlər yüksək nəticələr göstərmişdir. Layihə çərçivəsində yüzlərlə yeni məktəb binası tikilmiş, mövcud məktəblər əsaslı şəkildə yenidən qurulmuş və müasir infrastrukturla, kompüter avadanlıqları və laboratoriyalarla təmin edilmişdir. Təkcə 2005-ci il ərzində təxminən 132 yeni məktəb binasının istifadəyə verilməsi görülən işin miqyasını aydın şəkildə göstərir. Bu məktəblər müasir tələblərə cavab verən şəraitlə təmin edilmişdir: istilik sistemləri, kitabxanalar, texniki təchizat, əyani vəsaitlər və əlçatanlıq üçün yeni standartlar tətbiq edilmişdir.

Fondun diqqət yetirdiyi digər mühüm istiqamət xüsusi qayğıya ehtiyacı olan uşaqlardır. Məhz bu kontekstdə həmin il 23 belə təhsil müəssisəsinin əsaslı şəkildə bərpası həyata keçirilmişdir.

Heydər Əliyev Fondu yalnız yerli səviyyədə deyil, həmçinin beynəlxalq təşkilatlarla, o cümlədən UNESCO ilə əməkdaşlıq çərçivəsində də Azərbaycan təhsilinə töhfələr vermişdir. "Təhsil hamı üçün" proqramının icrası, UNESCO-nun Assosiativ Məktəblər Şəbəkəsinə daxil olan müəssisələrin fəaliyyətinin gücləndirilməsi, texniki və peşə təhsili layihələri və bəzi universitetlər-

də UNESCO kafedralarının yaradılması bu əməkdaşlığın konkret nəticələridir.

2006-cı ildən etibarən “Yenilənən Azərbaycana yeni məktəb” layihəsinin ikinci mərhələsi çərçivəsində Bakıətrafı qəsəbələrdə məktəblərin infrastruktur səviyyəsi əhəmiyyətli dərəcədə yüksəldilmiş və yeni məktəb binaları inşa edilmişdir. 2008–2009-cu tədris ilində Fondun həyata keçirdiyi tədbirlər nəticəsində 237 yeni məktəb binası tələbələr və müəllim kollektivlərinin istifadəsinə verilmişdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bu məktəblərin bir çoxunun açılış mərasimində şəxsən iştirak etmiş, bu isə onun təhsil sahəsinə xüsusi fərdi münasibətini nümayiş etdirmişdir.

Yeni tikilən məktəblər yüksək texniki təminatla, müasir kompüter avadanlığı və laboratoriya imkanları ilə təchiz edilmişdir. Regionlarda, xüsusilə dağlıq və ucqar ərazilərdə isə köhnə, yararsız binalar əvəz edilmişdir. Bu, təhsilin keyfiyyətinin yüksəlməsinə, dərsə davamiyyətin artırılmasına və müəllimlərin motivasiyasının güclənməsinə mühüm təsir göstərmişdir.

Mehriban Əliyevanın təhsil sahəsindəki fəaliyyəti yalnız infrastrukturun qurulması ilə məhdudlaşmır; o, eyni zamanda təhsilin yenilənməsi, inklüzivlik prinsiplərinin gücləndirilməsi, milli-mənəvi dəyərlər ilə müasir təhsil standartlarının vəhdətinin yaradılması istiqamətində layihələr həyata keçirir. Bu təşəbbüslər Azərbaycanda təhsil strategiyasının inkişafında Ümummilli lider Heydər Əliyevin ənənələrinə sadiqlik nümunəsidir.

2023-cü il üçün olan statistik məlumata görə, hazırda işğaldan azad edilmiş ərazilərdə 300-dən çox məktəb dağılıb və ciddi təmir olunmalı və ya yenidən tikilməlidir. Müharibədən əvvəl bu məktəblərdə təhsilalanların sayı 50 mindən yuxarı olmuşdur. Prezident İlham Əliyevin uğurlu təhsil siyasətinin nəticəsi olaraq hazırda regionda təhsil infrastrukturunun yaradıl-

masına sıfırdan başlanılmışdır. Belə ki, Xankəndidə "Qarabağ Universiteti"nin yaradılması barədə 28 noyabr 2023-cü il tarixli Sərəncam imzalanıb, paralel olaraq azad olunmuş ərazilərdə onlarla yeni və bərpa olunan məktəb fəaliyyətə başlayıb ki, bu məktəblərdə minlərlə şagird təhsilə cəlb edilib.

2024-Bütün ölkədə, eləcə də Qarabağ regionunda rəqəmsal texnologiyaların tətbiqi istiqamətində də mühüm işlər həyata keçirilir ki, bu da Qarabağda tədrisin keyfiyyətini yüksəltməklə yanaşı müasir təhsil resurslarına çıxışı təmin etməyə imkan verəcəkdir.

Nəticə etibarilə, həyata keçirilən bütün tədbirlər təhsil sahəsinin inkişafını təmin edir, intellektual resursların səfərbər edilməsinə və elmi-texniki potensialın yüksəldilməsinə xidmət edir. Bu nailiyyətlər Ümummilli lider Heydər Əliyevin təhsil sahəsində qoyduğu əsasların qorunması, Prezident İlham Əliyevin strategiyasının davam etdirilməsi və Mehriban xanım Əliyevanın bu strategiyaya sadiq fəaliyyətinin məntiqi nəticəsidir.

**Sual və tapşırıqlar:**

1. İlham Əliyevin regionlarda təhsil infrastrukturunun yaxşılaşdırılması istiqamətində apardığı siyasətin nəticələri haqqında təqdimat hazırlayın
2. Müasir dövrdə təhsildə rəqəmsallaşdırma, insan kapitalının inkişafı istiqamətində ölkədə həyata keçirilən tədbirlər, layihələrlə bağlı araşdırma aparıb təqdim edin.
3. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin mahiyyətini izah edin.
4. Beynəlxalq əməkdaşlıq çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Qarabağda təhsilin inkişafı istiqamətində həyata keçirilən layihələrlə bağlı araşdırma aparın.

5. “Qarabağda təhsilin inkişaf perspektivləri” mövzusunda araşdırma aparıb təkliflərinizi yazın
6. Heydər Əliyev Fondunun təhsil layihələrinin Azərbaycanın sosial-iqtisadi inkişafına təsirini qiymətləndirin.
7. Gələcəkdə təhsilin inkişafına yönəldilən fəaliyyətləri artırmaq üçün hansı yeni layihələr təklif edə bilərsiniz? Təklif planı hazırlayın.
8. İlham Əliyevin təhsil siyasətini Heydər Əliyev strategiyasına baxışı ilə müqayisə edin.
9. 2003, 2026-cı illərdə fəaliyyət göstərən bir məktəbin infrastrukturunu, maddi texniki bazasını, bu illərdə təhsil sahəsində baş verən yeniliklərin tətbiqi aspektindən dəyərləndirin.
10. İlham Əliyevin təhsil siyasətinin ölkənin intellektual potensialına təsirini araşdırın.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abdulla K. Heydər Əliyev və milli mənəvi dəyərlər-http://anl.az/down/meqale/525/2011/may/cm07.htm.

2. Azərbaycan beynəlxalq aləmdə. 5 cilddə. I cild. Bakı: Göytürk, 1996, 267 s.

3. Azərbaycan beynəlxalq aləmdə. 5 cilddə. III cild. Bakı: Göytürk, 1998, 776 s.

4. Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin "Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsi, bərpası və onlardan istifadə olunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı / "Kommunist" qəz., 1981, 4 oktyabr.

5. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 28 dekabr 2006-cı il, http://www.msk.gov. az/az/ serencamlar.

6. Azərbaycan tarixi. 7 cilddə. VI cild, Bakı: Elm, 2008, 568 s.

7. Azərbaycan tarixi. 7 cilddə. VII cild. Bakı: Elm, 2003, 676 s.

8. Bakı Beynəlxalq Humanitar Forumu, 2-3 oktyabr 2014-cü il-hht://www.bakuforum.orq/az.

9. Bəhrəmova S. Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti. Bakı: 2021, 232 s.

10. Bəhrəmova S. Azərbaycanda dini tolerantlığın tarixi (1920-2016). Bakı6 2025, 248 s.

11. Əfəndiyev T. Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı: 2011, 328 s.

12. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.

13. Əl-Fərəh Adil Abdulla. Heydər Əliyev və milli mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 s.

14. Əliyev H. Azərbaycan dövlət müstəqilliyi: gerçəklik və gələcək. Bakı: Azərnəşr, 2000, 295 s.

15. Əliyev H. Zirvələrdə. Bakı: Azərnəşr, 2002, 350 s.

16. Əliyev H. Azərbaycan elmi qarşısında vəzifələr. Bakı: Elm, 1998, 122 s.

17. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət/ "Azərbaycan" qəz., 2000, 30 dekabr.

18. Əliyev H. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 1996, 140 s.

19. Əliyev H. Azərbaycan gəncliyi XXI əsrə doğru. Bakı: Azərnəşr, 1999, 185 s.

20. Əhmədov Ə. Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Təhsil, 2005, 220 s.

21. Əliyev İ.H. Milad bayramı münasibətilə pravoslav xristian icmasına təbrik// Dövlət və din. İctimai fikir toplusu, 2007, mart, s. 8.

22. Əliyev R. Heydər Əliyev, din və mənəvi dəyərlər. Bakı: İrşad, 1998. 82 s.

23. Heydər Əliyev. İki cilddə. I cild. Bakı: Turxan NPB, 2013, 678 s.

24. Heydər Əliyev. İki cilddə. II cild. Bakı: Turxan NPB, 2013, 704 s.

25. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. I cild. Bakı: Turxan, 2013, 665 s.

26. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. II cild. Bakı: Turxan, 2013, 640 s.

27. Heydər Əliyev. Mədəni irsimizin keşiyində. 2 kitabda, Bakı: Azərbaycan, 2001.

28. Heydər Əliyev və dini-mənəvi dəyərlər. Dini Qrumlarla İş üzrə Dövlət Komitəsinin Bülleteni, 2004, №10, s. 6-7

29. Heydər Əliyev və mədəniyyət. 3 cilddə, III cild. Bakı: Nurlar, 2008, 536 s.

30. Heydər Əliyev və mənəvi dəyərlər. Bakı: Nurlan, 2003, 276 s.

31. Heydər Əliyev və Şərq. 6 cilddə. IV cild. Bakı: Çaşıoğlu, 2005,357 s.

32. Heydər Əliyev siyasəti: Tolerantlıq. Bakı: 2015, 506 s.

33. Həsənov Ə. Heydər Əliyev və Azərbaycan elminin inkişafı. Bakı: Elm, 2003, 210 s.

34. Həmidov H. Azərbaycanda dini tolerantlıq./ "Azərbaycan" qəz., 2008, 27 noyabr.

35. Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri.Bakı: 2011

36. Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: Elm, 2002, 233 s.

37. Xəlilov S. Sivilizasiyalararası dialoq. Bakı: Adiloğlu., 2009, 252 s.

38. Xoşməramlı səfir. 5 kitabda. Bakı: Şəms, 2007.

39. İsmayılov G. Tolerantlıq – bildiklərimiz və bilmədiklərimiz. Bakı: Nurlan, 2014, 240 s.

40. Qasımov V. Elm və dövlətçilik: Heydər Əliyev irsi. Bakı: Azərnəşr, 2012, 225 s.

41. Quliyev F. Azərbaycan elmi: inkişaf mərhələləri və Heydər Əliyev siyasəti. Bakı: Elm, 2005, 240 s.

42. Qloballaşma və Azərbaycan mədəniyyəti. II Respublika elmi-praktiki konfransının materialları. Bakı: Araz , 2004, 440 s.

43. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: təhsil, 2002, 324 s.

44. Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı: "Təhsil", 2011, 608 s.

45. Məmmədova L. Milli elmi kadrların hazırlanması siyasəti: Heydər Əliyev dövrü. Bakı: Elm və Təhsil, 2014, 190 s.

46. Məmmədov R. Azərbaycan Respublikasında elm siyasəti: Heydər Əliyev dövrü. Bakı: Elm və Təhsil, 2010, 280 s.

47. Məmmədov A. Heydər Əliyev dövründə Azərbaycan elminin inkişaf tendensiyaları. Bakı: Elm, 2018, 220 s.

48. Məmmədli İ. Heydər Əliyev və Azərbaycan intellektual potensialının inkişafı. Bakı: Elm, 2004, 188 s.

49. Mərdanov M, Şahbazlı F. Azərbaycanın təhsil siyasəti (1998–2004). I kitab. Bakı: Çaşıoğlu, 2005, 832 s.

50. Müstəqil Azərbaycan gənclərinin Birinci Forumunun materialları, "Azərbaycan" qəzeti, 6-9 fevral 1996.

51. Sərdarov Z. Heydər Əliyev və milli mübarizə tariximiz. Bakı: Çinar-Çap, 2008, 166 s.

52. Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyanın formalaşması məsələləri. Bakı: Elm və Təhsil, 2010, 424 s.

53. Vəliyev T.T. XX əsr Azərbaycan tarixi. C. II. Bakı: Təhsil, 2009, s.

## ***QEYDLƏR***

Nəşriyyatın Baş direktoru:
Səməd Eyvazov

Texniki redaktor:
Mail Xəlilov

Kağız formatı:60x84 1 /16
Tiraj: 300 ədəd
Həcmi: 12,5 çap vərəqi

“OPTİMİST” MMC-də  hazır diopozitivlərdən çap olunub